RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 177 (10197) 29 sentyabr 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Şəhidlərin xatirəsinə dərin ehtiramla




## Prezident İlham Əliyev Anım Günü ilə əlaqədar Bakıdakı Zəfər parkında olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Anım Günü ilə əlaqədar Bakıdakı Zəfər parkında olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Zəfər abidəsinin önünə əklil qoydu, şəhidlərin xatirəsini ehtiramla yad etdi.

Sonra birinci xanım Mehriban Əliyeva şəhidlərimizin xatirəsini dərin hörmətlə andı.





## Prezident İlham Əliyevin sosial media hesablarında 27 Sentyabr – Anım Günü ilə bağlı paylaşım edilib




## Birinci vitse-prezident Mehriban Əliyevanın sosial şəbəkə hesablarında 27 Sentyabr – Anım Günü ilə bağlı paylaşım edilib




## Prezident İlham Əliyevin himayəsi altında...

### 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçirilib

Sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında Bakıda keçirilən 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal bağlantı və investisiya sabitliyinin dayağı kimi" mövzusunda tədbir təşkil olunub.

2-3



## 10-cu yubiley yarışı, 17 mindən çox xarici azarkeş, 11 komanda...

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Formula-1" Azərbaycan Qran-prisinin əsas yarışına baxıblar



Sentyabrın 26-da Bakı Şəhər Halqasında "Formula-1" Azərbaycan Qran-prisinin əsas yarışı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yarışı izləyiblər.

Qeyd edək ki, "Formula-1" Azərbaycan Qran-prisinin 10-cu yubiley yarışına sentyabrın 24-də start verilib. 17 mindən çox xarici azarkeş "Formula-1" yarışlarını tribunalardan canlı izləyə bilib. Yarışda hər biri iki pilotdan ibarət 11 komanda mübarizə aparıb.

4



## Vətən müharibəsi

6 il əvvəl həmin gün

→ 9-10-11

# Prezident İlham Əliyevin himayəsi altında...

## 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçirilib

*Əvvəli 1-ci səh.*





AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı moderator **Adebayo OQUNLESİ**nin suallarını cavablandırıb.

**Moderator:** Hər kəsin sabahı xeyir olsun. Mən "Global Infrastructure Partners" şirkətinin sədri və baş icraçı direktoru Adebayo Oqunlesiyəm. Zati-aliləri Prezidentlə bu səmimi söhbəti aparmaq mənim üçün böyük məmnuniyyətdir. İcazə verin, çıxışıma Prezidentin Azərbaycana rəhbərlik etdiyi son iyirmi ildən artıq müddət ərzində əldə etdiyi nailiyyətlər barədə sizə məlumat verməklə başlayım. Bu, həqiqətən də əsl və misilsiz bir transformasiya olub. Təbii ki, gözlənildiyi kimi, mən ChatGPT-yə müraciət etdim. OpenAI-ın İdarə Heyətinin üzvü olduğum üçün mən "Claude"a deyil, məhz ChatGPT-yə müraciət etməliydim. Bu isə nəticə - ÜDM on dəfə artaraq 7 milyarddan 76 milyarda yüksəlib. Adambaşına düşən ÜDM səkkiz dəfədən çox artaraq 900-dən 7500-ə yüksəlib. Təqdirəlayiq haldır ki, yoxsulluq səviyyəsi 45 faizdən 5 faizə enib. Dövlət Neft Fondunun aktivləri 90 dəfə artaraq 840 milyon dollardan 75 milyard dollara yüksəlib. Dünən keçirilən görüşdə Prezident dostumuz İsrafilə Dövlət Neft Fondunun aktivlərini 100 milyarda çatdırmaqla bağlı tapşırıq verdi. Əminəm ki, burada olan hər kəs - İsrafil haradadır? - bu hədəfə çatmağınızda sizə kömək etməyə hazırdır.

Qeyri-neft-qaz sektorunun həcmini dörd dəfə yarım artırmaqla iqtisadiyyat genişləndirilib. Nəticədə 2025-ci ildə qeyri-neft-qaz iqtisadiyyatı ÜDM-in 71 faizini təşkil edib. Eyni zamanda neft hasilatı azaldığı halda 2003-cü ildə 5 milyard kubmetr olan qaz hasilatı 2025-ci ildə 50 milyard kubmetrə qədər artıb. Sözsüz ki, Azərbaycan artıq Avropa və Türkiyə üçün təbii qazın mühüm təchizatçısına çevrilib. Bu, xüsusilə Ukraynadakı müharibə ilə əlaqədar son dərəcə böyük əhəmiyyət kəsb edir.

Əminəm ki, Prezident sizə qaz sektorundakı son yeniliklər, qaz hasilatını daha da artıracaq "Exxon", "TotalEnergies", BP və ADNOC şirkətləri ilə bağlı yeniliklər haqqında məlumat verəcək.

Azərbaycanda fiziki infrastruktur tamamilə yenilənib. Sosial proqramlara, müdafiə sahəsinə, yollara, elektrik və su təchizatına, dəmir yollarına, məktəb və xəstəxanalara külli miqdarda vəsait sərf edilib. Bütün bunlar dövlət borcunun ÜDM-ə nisbətinin 22 faizdən 20 faizə endirildiyi bir vaxtda həyata keçirilib. Mən dövlət borcunun ÜDM-ə nisbətinin 20 faizə bərabər olmasını istəyən bir çox ölkənin adını çəkə bilərəm - ABŞ, Fransa, Böyük Britaniya, Yaponiya, Çin.

Siyasi müstəvidə o, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində nəzarətini bərpa etdi. Bu proses, sözsüz ki, ötən ilin avqustunda Ağ Evdə sülh sazişinin imzalanması ilə nəticələndi. Azərbaycan özünün strateji müstəqilliyini, ABŞ, Avropa və Türkiyə ilə güclü əlaqələrini qoruyub saxladı, Rusiya və Çinlə münasibətlərini davam etdirdi və 2024-cü ildə Bakıda COP29-a evsahibliyi etdi.

Beləliklə, təəccüblü deyil ki, Azərbaycan xalqı ona etimad göstərərək beş dəfə prezident seçib və hər dəfə də daha böyük səs çoxluğu ilə. Əgər azərbaycanlı olsaydım, mən də ona səs verərdim. Odur ki, gəlin, hamımız birlikdə onu alqışlayaq.

Lakin cənab Prezident, necə deyərlər, bunlar keçmişdə olanlardır. Buradakı auditoriya isə Sizin gələcəklə bağlı planlarınız barədə eşitmək arzusundadır. Beləliklə, gəlin, diqqətimizi gələcəyə yönəldək. Zalda təxminən 30 trilyon dollar dəyərində aktivləri idarə edən şəxslər əyləşib. Düşünürəm ki, Prezidentin istəyi daha çox artıma təkan vermək məqsədilə həmin vəsaitin cəmi kiçik bir hissəsinin Azərbaycana yönəldilməsidir. Ön sırada əyləşən dostum, "Neuberger Berman" şirkətinin baş icraçı direktoru Corc Uolkerlə söhbət edirdik. O bildirdi ki, SOCAR tərəfindən satışa çıxarılan 30 illik istiqrazlardan külli miqdarda alıb. Deyəsən, Corc məndən soruşmağımı xahiş etdi ki, onun daha 30 il vəzifəsində qalması mümkündürmü? Amma bunun mümkün olub-olmadığına əmin deyiləm.

Cənab Prezident, növbəti onillikdə iqtisadi artım baxımından Azərbaycanla bağlı baxışınız nədən ibarətdir? Bu artımı təmin edən əsas amillər hansılardır?

**Prezident İlham ƏLİYEV:** İlk növbədə, bu cür təqdimata görə sizə çox təşəkkür edirəm. Düşünürəm ki, siz təkcə iqtisadi fəaliyyətimizin bütün parametrlərini deyil, həm də məsələnin regional aspektlərini əhatə etdiniz. Buna görə sizə çox minnətdaram. İndiyədək görülən işlər, şübhəsiz ki, gələcək inkişaf üçün ilkin şərt oldu. Çünki görülən işlər, sabit iqtisadiyyat və müstəqil maliyyə və iqtisadi sistem olmasaydı, bu gün gələcəkdən danışmaq çətin olardı. Beləliklə, bizim bu müsbət dinamikanı daha da inkişaf etdirməyimizə ehtiyac var. Biz iqtisadiyyatın müxtəlif sektorlarını təmsil edən bir çox aparıcı beynəlxalq şirkətin Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul etməsi faktını əldə rəhbər tutmalıyıq. Əlverişli investisiya mühiti sayəsində biz son 20 ildə 350 milyard ABŞ dollarından çox investisiya cəlb etmişik. Bunun yarısı birbaşa xarici investisiyalardır.

Beləliklə, bütün bunlara əsaslanaraq, biz iqtisadi inkişafın ümumi tendensiyasına uyğunlaşmalı, uzunmüddətli və dayanıqlı artıma nail olmaq üçün neft-qaz sektorundan kənar sahələrdə olan potensialımızdan istifadə etməliyik. Əsas prioritetlərin bir neçəsini qeyd edərdim. Onlardan biri bərpaolunan enerjidir. Bizim çox böyük potensialımız var. Təkcə Xəzər dənizinin Azərbaycan sektorunda biz 157 giqavatlıq enerji potensialına malikik. Bundan əlavə, quruda Günəş və külək-elektrik stansiyaları artıq fəaliyyətdədir. Beləliklə, bizim hədəfimiz elektrik enerjisi istehsal etmək üçün təbii qaz istehlakını minimuma endirmək və həmin ehtiyatdan ixrac məqsədilə istifadə etməkdir. Qarşıdakı beş il ərzində Azərbaycanın hər yerində bərpaolunan enerji mənbələri olacaq.

İqtisadiyyatın ikinci mühüm hərəkətverici qüvvəsi, əlbəttə ki, logistika, nəqliyyat və bağlantılardır. Biz fiziki infrastruktur yaradaraq, investorlar üçün daha anlaşılan biznes mühiti formalaşdıraraq və dənizə birbaşa çıxışı olmayan ölkə olduğumuza görə qonşularla birlikdə işləyərək bunun üzərində kifayət qədər uzun müddət çalışmışıq. Qonşular olmadan biz böyük tranzit ölkəsi ola bilmərik. Beləliklə, bu, xüsusilə bəzi ənənəvi təchizat zəncirlərinin müəyyən risklərlə üzləşdiyi hazırkı geosiyasi vəziyyəti nəzərə alsaq, əlavə stimullaşdırıcı amil ola bilər.

Yerli və xarici investisiyalar üçün də bu əla fürsətdir. Əlavə elektrik enerjisi potensialına sahib olaraq biz sözsüz ki, iki istiqamətə diqqət yetiririk. Birincisi, süni intellekt data mərkəzləri ilə bağlı daxili tələbatı ödəmək üçün bu enerjidən maksimum dərəcədə necə istifadə etmək və onu necə ixrac etmək olar? Ötürücü xətlərimiz var, lakin onlar yetərli deyil. Beləliklə, hazırda biz yeni ötürücü xətlər üzərində işləyirik, mövcud olanları genişləndiririk və yenilərini inşa edirik. Bu, həmçinin gələcək iqtisadi inkişafın mühüm tərkib hissəsi ola bilər.

Ola bilsin ki, böyük potensiala malik sahələrdən biri də mədənçilikdir. Cəmi bir neçə gün bundan əvvəl mədənçiliklə əlaqədar dövlət proqramı qəbul edildi. Bu, çox sayda fəaliyyətə təkan verəcək dörd ili əhatə edən qısamüddətli bir proqramdır. Beləliklə, bunlar bizim inkişafımızın əsas istiqamətləridir və sözsüz ki, biz açıq-aşkar olan bir amili, - neft və qazı, - unutmamalıyıq, xüsusilə nəzərə alsaq ki, bu il çox sayda müqavilələr imzalanıb və bu gün də imzalanacaq. Yəni neft və qaz iqtisadiyyatımızda aparıcı rolunu qoruyacaq və əldə olunan gəlirlər yenidən iqtisadiyyata investisiya şəklində yönəldiləcək.

**Moderator:** Bu, çox genişmiqyaslı bir baxış kimi səslənir. İnsanların Azərbaycana investisiya qoyması üçün geniş imkanlar mövcuddur. Siz, həmçinin hazırkı geosiyasi mühiti qeyd etdiniz. Məlumdur ki, Azərbaycan Avropa ilə Asiyanın kəsişməsində, əhəmiyyəti getdikcə artan ticarət marşrutu üzərində yerləşir. Siz özünüz Mərkəzi Asiya birliyi və rifahının birgə artmasının böyük tərəfdarlarından biri olmusunuz. Qlobal ticarət və təchizat zəncirlərinin yenidən formalaşdırıldığı bir vaxtda Azərbaycanın strateji rolunun necə dəyişəcəyini düşünürsünüz?

**Prezident İlham ƏLİYEV:** İlk növbədə biz ev tapşırığımızı yerinə yetirməli idik. Yəni fiziki infrastruktur qurulmalı idi. Ona görə də biz dəmir yollarına, dəniz limanlarına, hava yolu ilə yükdaşımalara və avtomobil yollarına böyük həcmdə investisiya yatırdıq. Dəmir yollarımızın 60 faizi elektrikləşdirilib və bu proses davam edir. Bizim bütün qonşularla, həmçinin ölkə daxilində dəmir yolu əlaqəmiz mövcuddur. Beləliklə, bu, mühüm bir mərhələ idi. Tranzit ölkəyə çevrilmək üçün bizim, sözsüz ki, qonşularımız və qonşularımızın qonşuları ilə yaxşı münasibətlərə ehtiyacımız var idi. Əks halda dənizə çıxışı olmayan bir ölkə olaraq, nə qədər çox çalışsanız da, uğur qazana bilməzsiniz. Bu da həyata keçirildi. Bu gün bütün qonşularla münasibətlər çox aydın, ən əsası isə proqnozlaşdırılabiləndir.

Bundan əlavə, biz elə bir mühit və təşviq mexanizmi yaratmalı idik ki, təchizatçılar Azərbaycanı seçsinlər. Biz bunu hətta həmin geosiyasi dəyişiklikdən əvvəl etdik. Çünki beş il bundan əvvəl ənənəvi təchizat zəncirlərinin pozulacağını təsəvvür belə etmək çətin idi. Beləliklə, biz elə bir fiziki və inzibati mühit yaratmaq istədik ki, təchizatçılar Azərbaycan ərazisindən keçən multimodal daşımalardan istifadəni seçsinlər. Çünki Azərbaycan ərazisindən keçərkən həm də bərələrdən istifadə edilir.

Bu gün biz istər Şərq-Qərb, istərsə də Şimal-Cənub istiqamətlərində Azərbaycan vasitəsilə həyata keçirilən daşımalara tələbatın artdığını müşahidə edirik. Biz bu iki mühüm qovşaq üzərində yerləşirik. Yeri gəlmişkən, biz hər iki nəqliyyat dəhlizinin fəal iştirakçısı olan az sayda ölkələrdən biriyik. Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcmində sürətli artım var. Bu il həmin göstərici 16 milyon tona çatacaq. Lakin hədəfimiz 2030-cu ilədək, qeyd etdiyim kimi, hər iki istiqamətdə, - həm Şərq-Qərb, həm də Şimal-Cənub marşrutlarında, - daşımaların həcmini 25 milyon tona, bəlkə də daha yüksək səviyyəyə çatdırmaqdır. Bu məqsədlə biz qonşularımızla fəal əməkdaşlıq prosesindəyik. Siz Mərkəzi Asiyanı qeyd etdiniz. Ötən ilin noyabrından etibarən Azərbaycan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasının tamhüquqlu üzvüdür. Əslində, bu, misli görünməmiş bir hadisədir. Çünki coğrafi baxımdan Qafqazda yerləşsək də, siyasi, iqtisadi və nəqliyyat nöqteyi-nəzərindən biz artıq böyük Mərkəzi Asiya regionunun bir hissəsiyik. Bundan əlavə, nəqliyyat sahəsində idarəetmə və rəqəmsallaşma, gömrük idarəçiliyi - bütün bunlar investorlar üçün aydın və başadüşüləndir. Azərbaycandakı qaydalar və tənzimləmələr, bütün bunlar bizim potensialımızı daha da gücləndirəcək. Regionumuzdakı geosiyasi vəziyyət dəyişib, beş il əvvəlki vəziyyətə qayıtsa belə biz hələ də təchizatçılar üçün cəlbedici olmalıyıq.

**Moderator:** Bu, çox maraqlıdır. Düşünürəm ki, qarşıya qoyduğunuz məqsədlərdən biri Azərbaycanın qlobal bazarlarla təmasını dərinləşdirməkdir. Siz bəzi rəqabət üstünlüklərini qeyd etdiniz: bərpaolunan enerji mənbələri, coğrafi yerləşməniz, əlbəttə ki, karbohidrogen sektoru. Xahiş edirəm, rəqabət üstünlüklərinin nədən ibarət olması ilə bağlı fikrinizi inkişaf etdirəsiniz, burada əyləşən xanımlara və cənablara həmin 30 trilyonun böyük hissəsinin nəyə görə Azərbaycana yatırmalı olduqlarını izah edəsiniz.

**Prezident İlham ƏLİYEV:** Hesab edirəm ki, xüsusilə bugünkü dünyada ən önəmli amillərdən biri siyasi və iqtisadi sabitlikdir. Bu proses Azərbaycanda artıq 30 ildən çoxdur ki, davam edir. Biz 1990-cı illərdə müstəqilliyimizin erkən dövründən bəri çətinliklər yaşamışıq, Ermənistan ərazimizi işğal edib, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb. 1990-cı illərin əvvəlində bizim 1 milyon qaçqın və məcburi köçkünümüz var idi. O zaman əhalimiz 8 milyon idi. Beləliklə, bu, əslində humanitar fəlakət idi. Vətəndaş müharibəsi gedirdi və iqtisadiyyat tamamilə xaos içində idi.

Beləliklə, bunlar artıq keçmişdə qaldı. Bu gün siyasi və iqtisadi sabitlik mühüm amildir. Digər amil isə bizim maliyyə sistemimizin çox güclü olmasıdır və sizin də qeyd etdiyiniz kimi, bizim çox aşağı dövlət borcumuz var - 20 faiz. Lakin bu göstərici daxili borcla birlikdədir. Xarici borc ÜDM-in 5,6 faizini təşkil edir və əslində, biz onu bir gündə sıfırlaya bilərik. Çünki bizim valyuta ehtiyatlarımız xarici borcumuzu demək olar ki, 20 dəfə üstələyir. Valyutamız sabitdir. 2017-ci ilin aprel ayından dollara münasibətdə məzənnə dəyişməyib. Məzənnə 1 dollar 1,7 manat idi, 2017-ci ilin aprelində belə idi və bu gün də belədir və belə də olmağa davam edəcək. Çünki bizim yaxşı ticarət balansımız var.

İnvestisiyalar. Neft və qaz sektorunun inkişafına gətirib çıxaran, 30 il bundan əvvəl imzalanmış müqavilələrə hələ də heç toxunulmayıb. Heç bir söz də dəyişdirilməyib və bu da investorları cəlb etmək üçün amillərdən biri idi. Artıq bizim çox etibarlı tərəfdaş olduğumuza dair etibarlı portfelimiz var. Beləliklə, hətta biz müqavilə parametrlərinin bəziləri ilə 100 faiz qane olmasaq belə bu məsuliyyətin üstün tutulmalı olduğunu düşünürük. Hesab edirəm ki, xüsusilə bugünkü dünyada vacib amillərdən biri təhlükəsizlikdir. Azərbaycan dünyanın ən təhlükəsiz yerlərindən biridir. Kriminogen vəziyyət tamamilə nəzarət altındadır.

Eyni zamanda yaxşı iqlimi də qeyd etməliyəm. Nisbətən kiçik ölkədə doqquz iqlim qurşağının olması, yaxşı mətbəxi, qonaqpərvər insanları və bu gün keçirilən "Formula-1" yarışı, ənənəvi UFC turnirləri və bir çox digər tədbirlər kimi mühüm hadisələr. Beləliklə, mən bir çox üstünlüklər haqqında danışa bilərəm, lakin çox millətçi görünmək istəmirəm.

Düşünürəm ki, auditoriyada əyləşənlərin, - əgər bunu hələ də etməyiblərsə, - gəzmək və Azərbaycanı daha da kəşf etmək üçün vaxtı olacaq. Hesab edirəm ki, bu və bir çox digər amillər insan kapitalına, infrastruktura, süni intellektə, iqtisadiyyatın digər sektorlarına yatırılacaq daha çox investisiyalara gətirib çıxaracaq və bu kimi tədbirlərin əhəmiyyəti də ölkə daxilində təqdimatını keçirməkdir. Çünki siz xaricə getsəniz və xaricdə bəzi təqdimatlar etsəniz, oradakı auditoriya nisbətən məhdud olacaq və siz sadəcə gəlib ölkəniz haqqında yaxşı sözlər söyləmiş olacaqsınız. Lakin bu tədbiri Azərbaycanda keçirən zaman hər kəs özü üçün qərar verə bilər. Düşünürəm və ümid edirəm ki, bu qərarların əksəriyyəti müsbət olacaq.

**Moderator:** Çox gözəl. Bizə məsləhət verin. Sizin fikrinizcə, növbəti on ildə Azərbaycanda iki və ya üç cəlbedici investisiya fürsətləri hansılardır?

**Prezident İlham ƏLİYEV:** Birincisi, bizim bir çox şaxələndirmə işlərini aparmaq istəyimizə və apardığımıza rəğmən bu, hələ də neft və qaz sahəsi olacaq. Bu gün iki mühüm müqavilə imzalanacaq. Biri böyük potensiala malik olan qeyri-ənənəvi neft və qaz yataqlarının işlənilməsi üzrə "Exxon" şirkəti ilə bağlanılacaq müqavilədir. Kəşfiyyat işləri uğurla nəticələnsə, bu, Azərbaycanda daha bir neft və qaz bumuna gətirib çıxara bilər.

Xoşbəxtlikdən bu gün qazıntı yanacağına qarşı əsas Avro-Atlantik trendi dəyişib, Prezident Trampın sayəsində. Qazla bağlı biz bu gün yenə də "Abşeron" yatağının işlənilməsinin ikinci mərhələsi üzrə "Total" şirkəti ilə müqavilə imzalayacağıq. Bu da Azərbaycanda qaz hasilatını üç-dörd il müddətində əlavə 5 milyard kubmetr artıracaqdır. Builki Bakı Enerji Həftəsində digər müqavilələr də imzalanmışdır. Odur ki, neft və qaz hələ də ən cəlbedici investisiya sahələrindən biri kimi investisiyaların həcmi nöqteyi-nəzərindən ən böyük seqment olacaqdır. Bu, uzun müddət belə olacaq.

Qeyd etdiyim digər potensial imkan isə elektrik enerjisi ilə bağlıdır. Burada regiondan daha geniş coğrafiyanı nəzərdə tuturam. Çünki bu coğrafiyada əlavə enerji gücünə malik ölkələrin sayı kifayət qədər məhduddur. Bir çoxları enerji qıtlığı ilə üzləşir. Bir çoxları enerji resurslarını xaricdən, o cümlədən Azərbaycandan alırlar. Bu üstünlük, əlbəttə ki, rəqəmsal inkişaf, data mərkəzləri, süni intellektin inkişafı üçün istifadə oluna bilər və biz artıq dünyanın aparıcı şirkətləri ilə danışıqların aktiv mərhələsindəyik. Beləliklə, bunu nömrə iki adlandırardım.

Mən artıq bərpaolunan enerji resurslarını qeyd etmişəm. Bərpaolunan enerji resursları dedikdə mən təkcə hasilatı deyil, ötürücülük və akkumulyasiya imkanlarını nəzərdə tuturam. Bizim artıq 250 meqavatlıq ehtiyatımız var, lakin bu, sadəcə, başlanğıcdır. Biz elektrik enerjisinin mühüm təchizatçılarından birinə çevrilmək istəyirik. Neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları və gübrə ilə yanaşı, - ixrac etdiyimiz məhsulları nəzərdə tuturam, - ölkəmiz regionda bütün bu məhsulları ixrac edən azsaylı ölkələrdən biridir. Elektrik enerjisinin, xüsusilə də Avropanın premium enerji bazarlarına ixracı isə enerji təhlükəsizliyini, bağlantıları və qarşılıqlı asılılığı daha da gücləndirəcək.

Daxili ehtiyaclarımıza gəldikdə, mənim təsvir etdiklərimin hamısının daha geniş təsiri var. Daxili ehtiyaclarımıza gəldikdə, əlbəttə ki, prioritetlərdən biri ərzaq təhlükəsizliyidir. Çünki biz hələ iqlim dəyişmələrinin çətinliklərini hiss etmirik. Mən hər qış mövsümü xizək sürməyə gedirəm və dağlarımızdakı qarın eyni səviyyədə olduğunu görürəm. O, eyni səviyyədə qalır, ola bilsin, haradasa əriyir, lakin Azərbaycanda bu belə deyil. Beləliklə, biz iqlim dəyişmələrinin təsirinə hələ məruz qalmamışıq. Lakin su qıtlığı və bəzi digər amillər, əlbəttə ki, bizə ərzaq təhlükəsizliyi sahəsində daha çox işləri görməli olduğumuzu birmənalı şəkildə diktə edir. Bu ilin may ayında əsasən idxaldan asılılığı azaltmaq üçün dövlət proqramı qəbul olunmuşdur. Bilmirəm, belə toplantılarda kənd təsərrüfatı sahəsinə nə dərəcədə maraq var.

**Moderator:** Çoxları üçün. Bəli.

**Prezident İlham ƏLİYEV:** Lakin hesab edirəm ki, burada da böyük potensial var, xüsusilə indi, müxtəlif amillərə - quraqlığa, dizelin çatışmazlığına və təchizat zənciri ilə bağlı olan digər problemlərə görə bəzi məhdudiyyətlərin olduğu zaman. Biz bəzi ölkələrin ərzaqla bağlı təhlükədə olacağı vəziyyəti istisna etmirik. Biz bu vəziyyətdən qaçmaq istəyirik. Beləliklə, fikrimcə, bu da yerli və xarici investorlar üçün cəlbedici sahə ola bilər.

**Moderator:** Cənab Prezident, bu zalda infrastruktur sahəsində dünyanın bəzi aparıcı investorları əyləşib. "Brookfield" şirkətindən Konor Teskey, Adiya, Temasek. Bunu və bərpaolunan enerji resursları ilə bağlı "Masdar" və "ACWA Power" şirkətləri ilə işbirliyinizi nəzərə alaraq infrastruktur investorları Azərbaycanda infrastrukturun inkişafına yardım etmək üçün dövlət-özəl tərəfdaşlıqlarını başqa harada axtarmalıdırlar?

*Ardı 3-cü səh.*

# Prezident İlham Əliyevin himayəsi altında...

## 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçirilib

*Əvvəli 2-ci səh.*

**Prezident İlham ƏLİYEV:** Əslində, daxili tələbatımıza gəldikdə, düşünürəm ki, işlərin böyük əksəriyyəti artıq görülüb.

**Moderator:** Bizə ehtiyacınız varmı?

**Prezident İlham ƏLİYEV:** Daxili tələbat baxımından? Bəlkə də yox. Çünki ölkədə qazlaşdırma səviyyəsi ən yüksək göstəricilərdən biridir. Ölkənin 96 faizi qazlaşdırılıb. Ölkə 100 faiz elektrik enerjisi, genişzolaqlı internetlə əhatə olunub və biz ixrac edirik. Dəmir yolları ilə bağlı işlər demək olar ki, tamamlanıb. Hava limanları - bizim doqquz beynəlxalq hava limanımız var. Dəniz limanı genişləndirilir.

Beləliklə, daxili infrastruktura gəldikdə, bizdə vəziyyət yaxşıdır. Fikrimcə, maraq yarada biləcək sahə çoxmilli maraqlara xidmət edən infrastruktur ola bilər. Burada ilk növbədə nəqliyyat, logistika, fiziki və rəqəmsal infrastruktur məsələləri ön plana çıxır. Biz çoxlu sayda körpü, yanalma qurğuları və gəmilər inşa edə bilərik. Lakin rəqəmsallaşma və gömrük inzibatçılığı sahələrində mövcud müasir tendensiyaları lazımi səviyyədə nəzərə almasaq, yüklərin idarə olunması prosesini daha asan və sürətli etməsək, rəqabətdə uduzacağıq. Beləliklə, bu, bir sahədir.

Digər bir sahə elektrikötürücü xətlərdir. Bu sahədə nəhəng potensial var. Çünki bu gün Azərbaycan təkcə Avropa üçün enerji mənbəyi deyil. İki ildən də az müddət əvvəl biz Özbəkistan və Qazaxıstanla Xəzər dənizinin dibi ilə keçəcək, Mərkəzi Asiyanı əvvəlcə Azərbaycanla, daha sonra isə Avropa ilə birləşdirəcək sualtı elektrik kabel xəttinin çəkilməsi ilə bağlı müqavilə imzalamışıq. Beləliklə, bütün bu işlər həm də böyük həcmdə maliyyələşmə deməkdir.

Artıq texniki-iqtisadi əsaslandırmadan sonrakı mərhələdə olan digər mühüm layihə Qara dəniz kabelidir. Bu kabel də Azərbaycandan Gürcüstana, oradan isə Rumıniyaya uzanacaq. Söhbət yenə yüksəkgəlirli enerji bazarına çıxışı təmin edəcək 4 gigavat gücündə elektrik kabelindən gedir. Enerjisaxlanc sistemləri də mühüm əhəmiyyət daşıyır. Bütün bunlar təkcə bizim üçün deyil, Azərbaycanın beynəlxalq miqyasda daha geniş iştirakının təmin edilməsi baxımından da zəruridir. Düşünürəm ki, infrastruktur sahəsində əsas diqqət məhz bu istiqamətlərə yönəldilə bilər.

**Moderator:** Cənab Prezident, Siz rəqəmsal infrastruktur və data mərkəzlərinə maraq göstərildiyini, Azərbaycanın malik olduğu, o cümlədən müəyyən hissəsi bərpaolunan mənbələr hesabına əldə edilən əlavə və aşağıqiymətli enerji təchizatından faydalanma imkanlarını qeyd etdiniz. Bildiyimə görə, dekabr ayında G20 çərçivəsində səfəriniz zamanı qlobal rəqəmsal infrastrukturun aparıcı şirkətlərinin rəhbərləri ilə görüşmək də planlarınız arasındadır. Azərbaycanın regionda rəqəmsal transformasiya və rəqəmsal fəaliyyət mərkəzinə çevrilməsi ilə bağlı baxışınız barədə bir qədər danışa bilərsinizmi?

**Prezident İlham ƏLİYEV:** Biz bir neçə istiqamət üzrə fəaliyyət göstəririk. Əlbəttə, bunlardan biri potensialın, kadr imkanlarının formalaşdırılmasıdır və hazırda təhsil sahəsində çox iş görülür. Artıq bir müddətdir ki, fəaliyyət göstərən Kibertəhlükəsizlik Mərkəzi bu istiqamətdə atılmış ilk mühüm addım idi. Çünki təhsil və hazırlıqlı kadrların yetişdirilməsi hər şeydən önəmlidir. Peşəkar və ixtisaslı kadrlar olmadan qarşıya qoyduğumuz məqsədlərə heç vaxt nail ola bilmərik. Əlbəttə, bizim malik olduğumuz bir sıra praktiki üstünlüklər də var. Bunlara ucuz enerjinin əlavə həcmlərinin mövcudluğu, coğrafi mövqeyimiz, - Avropa ilə Asiyanın arasında yerləşməyimiz, - və digər amillər daxildir. Qərbə doğru uzanan fiber-optik kabelimiz var. Bu ilin sonunadək Xəzər dənizinin dibi ilə Azərbaycanı Qazaxıstanla birləşdirən kabeli istifadəyə verəcəyik. Bu da bizim üçün əlavə üstünlükdür.

Biz, şübhəsiz ki, qlobal iqtisadiyyatın inkişafının ümumi tendensiyalarına uyğun hərəkət etmək istəyirik. Bunun üçün əlbəttə, qlobal rəqəmsal infrastruktur şirkətləri ilə, sizin kimi qurumlarla və dünən görüşdüyüm digər şirkət rəhbərləri ilə fəal əməkdaşlıq etməliyik ki, Azərbaycana investisiya imkanları baxımından diqqət yetirilsin. Təhlükəsizlik və sabitlik, əlverişli investisiya mühiti, proqnozlaşdırılabilən vergi sistemi, həmçinin investisiya üçün əlverişli iqtisadi mühit barədə artıq qeyd etdiyim bütün bu amillər bunun üçün zəruri ilkin şərtləri yarada bilər. Beləliklə, əgər bütün bunlar kifayət qədər cəlbedici olarsa, biz uğur qazanacağıq. Əks təqdirdə isə tərəfdaşlarımızdan Azərbaycana uzunmüddətli investor kimi gəlmələri üçün daha nələrin edilməli olduğunu bizə bildirmələrini xahiş edəcəyik.

**Moderator:** Təbii ki, qlobal tərəfdaşlarınız yalnız kapital gətirməklə deyil, həm də texnologiya, ekspertiza və imkanlar təqdim etməklə Sizə dəstək ola bilərlər. Qarşınızda Sizi dinləməyə hazır və böyük maraq göstərən auditoriya var. Azərbaycana, Bakıya texnologiya və imkanlar gətirmək baxımından onlar nə etməlidirlər?

**Prezident İlham ƏLİYEV:** İlk növbədə Bakıda ofislər açsınlar.

**Moderator:** Biz bunu dünən müzakirə etdik.

**Prezident İlham ƏLİYEV:** Bəli, dünən Brukfilddən olan dostumuzla da bunu müzakirə etdik. Düşünürəm ki, texnologiyalara gəlincə, biz onları əldə edə bilərik



və bunu edirik də. Bu gün kifayət qədər böyük maliyyə resurslarına malik olduğumuz üçün demək olar ki, istənilən texnologiyanı əldə edə bilərik. Əlbəttə, əgər söhbət məxfi texnologiyalardan getmirsə.

Təcrübəyə gəldikdə isə bəli, bu, çox mühümdür. Burada neft-qaz sənayesindəki təcrübəmiz yaxşı nümunədir. 1994-cü ildə Hasilatın pay bölgüsü haqqında Saziş imzalananda Qərbin enerji şirkətlərində çalışan əməkdaşların 90 faizindən çoxu əcnəbilər idi. İndi isə yəqin ki, əcnəbi əməkdaşların payı təxminən 5 faizdir. Bu, ölkənin inkişafına və potensialının formalaşdırılmasına misilsiz töhfə oldu. Hazırda çoxsaylı Azərbaycan vətəndaşı müxtəlif şirkətlərdə qlobal miqyasda fəaliyyət göstərir. Biz həmçinin nümayəndələrimizin mühüm vəzifələr tutmasından məmnunuq və bununla fəxr edirik.

Düşünürəm ki, xüsusilə Azərbaycanın savadlılıq səviyyəsinin 100 faizə yaxın olduğunu və təhsil sahəsində çox böyük işlərin görüldüyünü nəzərə alsaq, kadr hazırlığı və potensialın gücləndirilməsi son dərəcə mühüm olacaq. 2003-cü ildə ilk dəfə Prezident seçildikdən dərhal sonra gənclərimizin xaricdə təhsil alması məqsədilə dövlət proqramı qəbul etdik. O vaxtdan bəri minlərlə, bəlkə də on minlərlə gəncimiz xaricdə təhsil alıb və onların mütləq əksəriyyəti geri qayıdıb. Beləliklə, bu, satın ala bilməyəcəyimiz bir potensialın formalaşdırılmasıdır.

Təcrübəyə gəldikdə isə əlbəttə, aparıcı şirkətlərin ən yaxşı təcrübələri və qabaqcıl yanaşmaları bizim üçün çox vacib olacaq. Bu, düzgün istiqamətdə irəliləməyimizə və qeyd etdiyimiz sahələrdə, neft-qaz sektorunda yaratmağa nail olduğumuz mühitə bənzər bir mühit formalaşdırmağımıza imkan verəcək.

Beləliklə, iqtisadiyyatımız daha da şaxələndiriləcək. Baxmayaraq ki, bu gün ÜDM-ə nəzər salsaq, onun 70 faizindən çoxu qeyri-neft sektorunun payına düşür. Lakin ixracımıza nəzər yetirsəniz, görərsiniz ki, ixracımızın hələ də 90 faizindən çoxu neft və qazın payına düşür. Biz bu göstəricini yaxşılaşdırmalıyıq və ümid edirik ki, bizimlə əməkdaşlıq etmək qərarına gələcək qonaqlarımızın köməyi ilə buna nail olacağıq.

**Moderator:** Cənab Prezident, burada toplaşmış trilyonlarla dollar həcmində kapitalı təmsil edənlər Azərbaycan və onun gələcəyi ilə bağlı bu görüşdən hansı mesajla ayrılmalıdırlar? Mənim eşitdiklərimə əsasən, Azərbaycan biznes üçün açıqdır, investisiya üçün cəlbedici məkandır. Onlar başqa nələri nəzərə almalıdırlar?

**Prezident İlham ƏLİYEV:** Hesab edirəm ki, onlar feyk xəbərlər yayan mediaya inanmamalıdırlar. Zənnimcə, belə tədbirlərin üstünlüklərindən biri də odur ki, burada iştirak edənlər hər şeyi öz gözləri ilə görə bilirlər. Onlar insanların nə dediyini eşidə bilərlər. Təkcə biznes ictimaiyyətinin nümayəndələrindən deyil, bu günlər ərzində istənilən şəxsdən ölkə haqqında, onun necə inkişaf etdiyi barədə fikirlərini öyrənmək olar: Ölkə düzgün istiqamətdə irəliləyirmi, yoxsa yox? Özləri nəticə çıxara bilərlər.

Biz ölkəmizi nə qədər tərifləsək, nə qədər xoş sözlər desək də, hər bir ölkənin ev sahibi təbii ki, öz ölkəsi haqqında yaxşı sözlər deyir. Prezidentin investisiya forumuna gəlib "bu pisdir, o pisdir" deməsini təsəvvür etmək çətin olardı. Biz bunları öz aramızda müzakirə edirik. Amma yenə də düşünürəm ki, ən yaxşı təəssürat insanın özünün gördüyü və hiss etdiyi təəssüratdır. Bizim etməli olduğumuz yalnız əlverişli mühit yaratmaqdır. Sadəcə, bunun üçün müəyyən imkan və şərait yaratmalıyıq.

Amma düşünürəm ki, istənilən sahədən, fəaliyyətin istənilən istiqamətindən olan obyektiv müşahidəçi, - söhbət təkcə biznesdən getmir, - Azərbaycanın 1991-ci ildə Sovet İttifaqının tərkibindən çıxmasından sonra keçdiyi yolu nəzərdən keçirsə, o zaman ölkədə bazar iqtisadiyyatının, demək olar ki, mövcud olmadığını, azadlıqların olmadığını, hətta o dövrdə neft-qaz sənayesinin belə tamamilə dağılmış vəziyyətdə olduğunu görər. Bu gün isə hər kəs obyektiv şəkildə qiymətləndirə bilər ki, bəli, bu ölkə uğursuz dövlət deyil. Bu ölkə və onun insanları öz dövlətçiliyinə sadiqdirlər.

Bilirsiniz, Azərbaycan dünyada neftin hasil edildiyi ilk məkan olub, - o vaxt hələ müasir mənada ölkə deyildi, - və biz ilk neft buruğunun xatirəsini qoruyub saxlayırıq. Həmin yer buradan çox da uzaqda deyil. Bu, 1846-cı ildə baş verib, hətta Pensilvaniyadan da əvvəl. Əgər həmin vaxt Azərbaycan müstəqil olsaydı, bu gün vəziyyətin necə olacağını təsəvvür edə bilərsinizmi? Əgər 1920-ci ildə müstəqilliyimizi qoruya bilsəydik necə? Çünki 1918-ci ildə burada müsəlman dünyasında ilk demokratik respublika yaradılmışdı, lakin cəmi iki il mövcud oldu. Sonra müstəqilliyimiz əlimizdən alındı və biz yenidən böyük bir imperiyanın tərkibinə daxil olduq. Əgər həmin dövrdə müstəqil olsaydıq və öz sərvətlərimizin sahibi ola bilsəydik, bu gün Azərbaycanın necə bir ölkə olacağını təsəvvür edə bilərsinizmi?

Bütün bunlardan məhrum edildik. İkinci Dünya müharibəsi illərində Azərbaycan sovet ordusunun yanacaq tələbatının 80 faizindən çoxunu təmin edirdi. Bu olmasaydı, İkinci Dünya müharibəsinin nəticəsi tamamilə fərqli ola bilərdi. Nasist ordusu nə üçün Qafqaz dağlarına qalxmaq istəyirdi, nə üçün? Sadəcə təlim xatirinəmi? Xeyr. Onlar Bakıya Bakı neftini ələ keçirmək üçün gəlirdilər. Əgər buna nail olsaydılar, sovet ordusunun yanacaq təchizatı tamamilə kəsiləcəkdi və bu, çox ağır nəticələrlə müharibənin taleyini dəyişə bilərdi.

Bütün bunlar bizdən alındı. Bəs 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdə nə əldə etmişdik? Tənəzzülə uğramış neft sənayesi, sıfra yaxın qaz hasilatı. Qazı xaricdən alırdıq, enerji qıtlığı var idi, vətəndaş müharibəsi gedirdi, Ermənistanın təcavüzü və torpaqlarımızın işğalı ilə üzləşmişdik. Bu işğal 30 il davam etdi və biz torpaqlarımızı güc yolu ilə azad etdik. Azərbaycan tamamilə süquta uğramaq təhlükəsi ilə üz-üzə idi. Beləliklə, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdə ölkə tamamilə iflasa uğramağın astanasında idi. Lakin ayağa qalxmağı bacardıq və bu gün möhkəm dayanmışıq.

Düşünürəm ki ölkənin ən azı XX əsr tarixinin özü kifayət qədər aydın şəkildə göstərir ki, bu ölkənin insanları bacarıqlıdırlar, onlar müstəqil yaşaya, ləyaqətlə yaşaya, müharibələr apara və qısa müddət ərzində müharibələrdə qalib gələ bilərlər. Onlar ərazi bütövlüyünü bərpa edə bilərlər. Yəqin ki, bu, bu əsrin və bəlkə də XX əsrin böyük bir hissəsinin tarixində yeganə belə haldır. Onlar milli maraqlara qətiyyətlə sadiqdirlər. Onlar dünyaya açıqdırlar.

Azərbaycanda çoxsaylı əcnəbi mütəxəssislər yaşayır və çalışırlar. Düşünürəm ki, bunu kitabdan və ya məqalədən oxumaqla dərk etmək mümkün deyil. Bunu yalnız ölkəyə gəlib müəyyən müddət burada qalmaqla hiss etmək olar. Buna görə də arzu edirəm ki, qonaqlarımız Bakıda bir müddət qalsınlar və bəlkə də yenidən gəlsinlər. Əlbəttə, onların geri qayıtmasını, bizimlə əməkdaşlıq etməsini və yeni inkişaf yolumuzda bizimlə birgə addımlamalarını istərdik.

**Moderator:** Cənab Prezident, Sizinlə vaxt keçirmək böyük məmnunluq idi. Bu, həqiqətən də möhtəşəm bir hekayədir. Düşünürəm ki, tarixi kontekst və Sizin bu nailiyyətləri həmin kontekstdə təqdim etməyiniz əldə olunan nəticələri daha da əhəmiyyətli göstərir. Hazırda investisiya sammitlərinin keçirildiyi bir dövrdəyik. Ötən həftə Torontoda idi. Düşünürəm ki, gələn ay Almaniyada olacaq. Hesab edirəm ki, Siz investisiya sammiti keçirən bütün digər ölkələr üçün də çox yüksək standart müəyyən etdiniz. Təbrik edirəm və Azərbaycana investisiya qoymağı səbirsizliklə gözləyirik.

Təşəkkür edirəm, cənab Prezident.

# 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində imzalanmış sənədlər mübadilə edilib

**2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində imzalanmış sənədlərin sentyabrın 26-da Prezident İlham Əliyevin iştirakı ilə mübadiləsi mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, "SOCAR, XRG və "TotalEnergies" şirkətləri arasında "Abşeron" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi üzrə Yekun İnvestisiya Qərarı"nı SOCAR-ın prezidenti Rövşən Nəcəf, "TotalEnergies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terraz və ADNOC/XRG-nin İcra Ofisi Direktorluğunun direktoru Omar Əl-Suveydi mübadilə etdilər.

"SOCAR ilə "Comstock Resources" şirkəti arasında strateji tərəfdaşlığa dair Çərçivə Sazişi"ni SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Comstock" şirkətinin prezidenti Roland Burns mübadilə etdilər.

"SOCAR ilə "Apollo" şirkəti arasında "upstream" işlənmə və hasilat layihələrinə investisiya üzrə strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu"nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Apollo" şirkətinin idarəedici direktoru Conatan Bar mübadilə etdilər.






"SOCAR ilə "Securing Energy for Europe GmbH" (SEFE) şirkəti arasında təbii qaz, LNG, enerji təhlükəsizliyi, enerji infrastrukturunun inkişafı və hasilat layihələri üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və SEFE şirkətinin idarəedici direktoru Alexander Demidov mübadilə etdilər.

"SOCAR ilə İtaliyanın "Eni S.p.A." şirkəti arasında Kot-d'İvuar Respublikasında yerləşən "Baleine" neft-qaz yatağının işlənməsi layihəsində 10 faiz iştirak payının əldə olunması üzrə Əməliyyatın Tamamlanmasına dair Protokol"u SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Eni" şirkətinin Mərkəzi Asiya Bölgəsi üzrə rəhbəri Seger Hoijtink mübadilə etdilər.

"SOCAR və "ExxonMobil" şirkəti arasında Azərbaycan Respublikasının Orta Kür hövzəsi üzrə qeyri-ənənəvi karbohidrogen resurslarının kəşfiyyatı, işlənməsi və hasilatı üzrə Hasilatın Pay Bölgüsü Sazişi"ni SOCAR-ın prezidenti Rövşən Nəcəf və "ExxonMobil" korporasiyasının qlobal qeyri-ənənəvi kəşfiyyat üzrə meneceri Kit Simpson mübadilə etdilər.

"SOCAR və "Oracle" şirkəti arasında Oracle Alloy Agreement (və yaxud Əsas Şərtlər Toplusu)"nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və ABŞ-nin "Oracle" şirkətinin Avropa, Yaxın Şərq və Afrika regionu üzrə texnologiya mühəndisliyinin baş vitse-prezidenti Ceyson Ris mübadilə etdilər.

"SOCAR ilə VNG arasında Strateji Əməkdaşlığa dair Saziş"i SOCAR-ın prezidenti Rövşən Nəcəf və "VNG AG" şirkətinin idarəedici direktoru Konstantin Herzog von Oldenburg mübadilə etdilər.

"Azərbaycan Biznesinin İnkişafı Fondu ilə Hindistanın "UFlex Group" şirkəti arasında Üçtərəfli Birgə Müəssisə Müqaviləsi"ni Azərbaycan Biznesinin İnkişafı Fondunun İdarə Heyətinin sədri Ülvi Mansurov və "UFlex Group" şirkətinin İdarə Heyətinin sədri və Baş direktoru Aşok Çaturvedi mübadilə etdilər.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə "Carlsberg Group" şirkəti arasında Strateji Tərəfdaşlıq və İnvestisiya Çərçivə Sazişi"ni Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Carlsberg Group"un Mərkəzi və Şərqi Avropa və Hindistan üzrə icraçı vitse-prezidenti Nikos Kalaitzidakis mübadilə etdilər.

"Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumu ilə "Hong Kong Renteng International Trade Co. Limited" şirkəti arasında İnvestisiya Müqaviləsi"ni Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov və "Hong Kong Renteng International Trade Co. Limited" şirkətinin İdarə Heyətinin sədri Yang Xueren mübadilə etdilər.

# 10-cu yubiley yarışı, 17 mindən çox xarici azarkeş, 11 komanda...

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Formula-1" Azərbaycan Qran-prisinin əsas yarışına baxıblar

*Əvvəli 1-ci səh.*





Komandalar ilk gündə iki sərbəst yürüşdə yarışıblar. Bu yürüşlərdə yüksək nəticə göstərən pilotlar ardınca sıralama turunda mübarizəni davam etdiriblər. Sıralama turunun yekununda "Mercedes"in pilotu Corc Rassell 6 kilometrlik Bakı trekində poul qazanaraq əsas yarışı ilk pillədən başlamaq hüququ əldə edib. "Ferrari"nin pilotu Şarl Lekler ikinci, "McLaren" təmsilçisi Oskar Piastri üçüncü yerdə qərarlaşıblar.

Sentyabrın 26-da keçirilən əsas yarışda pilotlar Bakı Şəhər Halqasında 2 saat ərzində 51 dövrə vurublar. Yarış "Mercedes"in pilotu Corc Rassellin qələbəsi ilə başa çatıb. "Red Bull"dan Maks Ferstappen ikinci, onun komanda yoldaşı İsak Hacar isə üçüncü olub.

Xatırladaq ki, Azərbaycan "Formula-1" yarışlarına onuncu dəfədir evsahibliyi edir. 2016-cı ildə təşkil olunan və Avropa Qran-prisi adlandırılan ilk yarışda "Mercedes" komandasının pilotu Niko Rosberq birinci olub. Yarış növbəti ildən Azərbaycan Qran-prisi adlandırılıb.




# Paytaxtımızda "Formula-1" yarışları bu dəfə də yüksək səviyyədə təşkil edilib

## Prezident İlham Əliyev Beynəlxalq Avtomobil Federasiyasının prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı hər il olduğu kimi, bu dəfə də paytaxtımızda "Formula-1" yarışlarının yüksək səviyyədə təşkil edildiyi qeyd olundu.

Ölkəmizin turizm potensialının təbliği baxımından bu yarışların əhəmiyyəti vurğulandı.

Görüşdə Beynəlxalq Avtomobil Federasiyasının Azərbaycan Avtomobil Federasiyası və klublar ilə əməkdaşlığından məmnunluq ifadə edildi, tərəfdaşlığın perspektivləri müzakirə olundu.

# İldə 16 min ton mahlıc, 7,3 min ton boyalı parça...

## Prezident İlham Əliyevin iştirakı ilə onlayn formatda Mingəçevir Sənaye Parkında "Textile Horizon" MMC-nin "Tekstil Klasteri" layihəsi üzrə istehsal müəssisəsinin təməlqoyma mərasimi keçirilib

**Sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakıda Konqres Mərkəzində onlayn formatda Mingəçevir Sənaye Parkında "Textile Horizon" MMC-nin "Tekstil Klasteri" layihəsi üzrə istehsal müəssisəsinin təməlqoyma mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev, "Azərşəkər" MMC-nin İdarə Heyətinin sədri Nəsib İslamzadə və "Global Textile Group"un sədri Muzaffar Razakov müəssisənin onlayn formatda təməlinin qoyulmasını bildirən düyməni basdılar.

Qeyd edək ki, ötən il Mingəçevir Sənaye Parkının rezidenti statusu verilən "Textile Horizon" MMC-nin təsisçiləri "Azərşəkər" MMC, "Global Textile" LLC və Azərbaycan-Özbəkistan İnvestisiya Fondudur. Layihə çərçivəsində pambıq əkinindən başlayaraq, mahlıc, iplik, parça və son tekstil məhsullarının istehsalı nəzərdə tutulur. Müəssisə Mingəçevir Sənaye Parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanacaq. Sahəsi 11,2 hektar olan müəssisədə ildə 16 min ton mahlıc, 11 min ton iplik, 7,3 min ton boyalı parça və 11 milyon köynək istehsalı nəzərdə tutulur. Məhsulların daxili bazarla yanaşı, ixracı da planlaşdırılır.

# İl ərzində 11,8 milyon kVt/saat elektrik enerjisi...

## Prezident İlham Əliyevin iştirakı ilə onlayn formatda Laçın rayonunda "Minkənd" Kiçik Su-Elektrik Stansiyasının açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə sentyabrın 26-da Bakıda Konqres Mərkəzində onlayn formatda Laçın rayonunda "Minkənd" Kiçik Su-Elektrik Stansiyasının açılışı olub.**






AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və Türkiyənin "Demirören Holdinq"inin prezidenti Yıldırım Demirören stansiyanın onlayn formatda açılışını bildirən düyməni basdılar.

Qeyd edək ki, dövlətimizin başçısının rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" potensialının reallaşdırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu baxımdan Kəlbəcər və Laçında kiçik su-elektrik stansiyalarının bərpası, tikintisi və uzunmüddətli istismarı layihəsi xüsusi əhəmiyyət kəsb edir. Bu layihəyə daxil olan "Minkənd" Kiçik Su-Elektrik Stansiyasının qoyuluş gücü 3,2 MVt, gözlənilən illik elektrik enerjisi istehsalı isə 11,8 milyon kVt/saat təşkil edir. Stansiya Avstriya və İtaliya texnologiyaları əsasında qurulub.

Kəlbəcər və Laçında kiçik su-elektrik stansiyalarının bərpası, tikintisi və uzunmüddətli istismarını əhatə edən layihə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində və dövlət-özəl tərəfdaşlığı prinsipi əsasında həyata keçirilir. Ümumi dəyəri 53,2 milyon manat olan layihəyə "Minkənd", "Qalaca-1", "Qalaca-2", "Malıbəy" və "Tərtər-1" kiçik su-elektrik stansiyaları daxildir. Digər stansiyaların 2026-cı ilin sonunadək istismara verilməsi nəzərdə tutulur. Onların istismar müddəti 30 ildir. Layihə üzrə ümumi qoyuluş gücü 12,9 MVt, gözlənilən illik elektrik enerjisi istehsalı 44,1 milyon kVt/saatdır. Layihəyə işğaldan azad olunmuş ərazilər üçün nəzərdə tutulan güzəşt və azadolmalar tətbiq edilib, həmçinin İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən güzəştli kredit verilib.

Layihə ilə bağlı fəaliyyət göstərən "Green Karabakh Energy" MMC-də "Demirören Holdinq" və Azərbaycan Biznesinin İnkişafı Fondu iştirak payına malikdir.

# Azərbaycanda müasir qış-xizək infrastrukturu yaradılıb

## Prezident İlham Əliyev Beynəlxalq Xizək və Snoubord Federasiyasının prezidenti ilə görüşüb

**Sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Xizək və Snoubord Federasiyasının prezidenti Aleksandr Ospelt ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkəmizin beynəlxalq əhəmiyyətli nüfuzlu idman tədbirlərinə, o cümlədən qış idman növü üzrə yarışlara uğurla evsahibliyi etdiyi xatırlanaraq, bu xüsusda Bakıda keçirilən "Formula-1" yarışlarının da yüksək səviyyədə təşkil olunduğu vurğulandı.

Azərbaycanda müasir qış-xizək infrastrukturunun yaradıldığı qeyd edildi, Beynəlxalq Xizək və Snoubord Federasiyasının xətti ilə "Şahdağ" Turizm Mərkəzində bir sıra nüfuzlu yarışların keçiriləcəyi bildirildi.

Ötən il Azərbaycanın Dövlət Turizm Agentliyi ilə Beynəlxalq Xizək və Snoubord Federasiyası arasında tərəfdaşlıq haqqında imzalanmış müqavilənin ölkəmizdə qış turizmi və qış idman növləri üzrə potensialın inkişaf etdirilməsi baxımından rolu qeyd olundu.

Görüşdə ölkəmizlə federasiya arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Rəcəb Tayyib Ərdoğan İlham Əliyevə zəng edib




Sentyabrın 27-də axşam radələrində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Türkiyə Prezidenti Azərbaycanda Anım Günü ilə əlaqədar şəhidlərin xatirəsini ehtiramla yad etdiyini bildirib.

Dövlətimizin başçısı telefon zənginə görə Türkiyə Prezidentinə təşəkkür edib.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi və ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**
Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşlarına ali xüsusi və ali hərbi rütbələr verilsin:

**II dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi**

Sənan İsa oğlu Paşayevə - Naxçıvan Muxtar Respublikasının prokuroru

**III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi**

Emin Ramiz oğlu Mürsəliyevə - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi rəisinin müavini

Asəf Vaqif oğlu Sarıkişiyevə - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi rəisinin müavini

**"ədliyyə general-mayoru" ali hərbi rütbəsi**

Nihad Ənvər oğlu Şıxəliyevə - Azərbaycan Respublikası hərbi prokurorunun müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2026-cı il*

## Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Abbasov Mahir Fəxrəddin oğlu
Əliyev Vüsal Azad oğlu
İsayev Orxan Elşad oğlu
Qarayev Teymur Fəxrəddin oğlu

**"Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə**

Abbasov Cabir Etibar oğlu
Abdullayev Vüsal Habil oğlu
Bağırov Taleh Vilayət oğlu
Bayramov Nəsir Yasin oğlu
Əhməd Rəcəb Nazim oğlu
Əsədov Şahin İlyas oğlu
Hacıyev Saleh Ruslan oğlu
İmanlı Cavid Oruc oğlu
İsgəndərov Əsgər Akif oğlu
İsmayılov Sahib İsmayıl oğlu
Qəhrəmanov Şöhrət Qazaxəli oğlu
Nəcəfzadə Samirə Yusif qızı
Osmanova Aynur Nəriman qızı
Rəhimli Tuqay Rafael oğlu
Səməndov Zöhrab Nəcəf oğlu
Şahverdiyev Ataş Möhbalı oğlu
Tofiqi Fuad Valeh oğlu
Yusifov Rövşən Şahin oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2026-cı il*

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1343 (Cild I); 2024, № 11, maddə 1196; 2025, № 4 (I kitab), maddə 334, № 6, maddə 541) ilə təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı"nın 17-ci və 18-ci hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2026-cı il*

## N.O.Əliyevin Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**
Natiq Oruc oğlu Əliyev Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2026-cı il*

## M.S.Məmmədovun Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**
Məmmədiyə Süleyman oğlu Məmmədov Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 28 sentyabr 2026-cı il

## H.A.Babayevin Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**
Hacıbaba Adil oğlu Babayev Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2026-cı il*

# Dövlət və hökumət rəsmiləri Bakıda Zəfər parkında olublar

**27 Sentyabr - Anım Günündə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, Milli Məclisin Sədri Sahibə Qafarova, digər dövlət və hökumət rəsmiləri Bakıdakı Zəfər parkında olublar.**



AZƏRTAC xəbər verir ki, dövlət və hökumət rəsmiləri Zəfər abidəsinin önünə gül dəstələri düzərək şəhidlərin əziz xatirəsini ehtiramla yad ediblər.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamına əsasən, Vətən müharibəsinin başladığı gün - 27 Sentyabr ölkəmizdə Anım Günü kimi qeyd edilir. Anım Günündə Azərbaycan xalqı, bütün dünyada yaşayan azərbaycanlılar Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsini dərin ehtiramla anırlar.

# Baş nazir Əli Əsədov Suriyanın iqtisadiyyat və sənaye naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 26-da Suriya Ərəb Respublikasının iqtisadiyyat və sənaye naziri Məhəmməd Əl Şaar ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun əhəmiyyəti vurğulanıb.

Azərbaycanla Suriya arasında münasibətlərin son dövrdə müsbət dinamika ilə inkişaf etdiyi bildirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa arasında keçirilmiş görüşlərin və davamlı təmasların ikitərəfli siyasi dialoqun möhkəmləndirilməsinə, həmçinin əməkdaşlığın müxtəlif sahələr üzrə genişləndirilməsinə əlverişli zəmin yaratdığı qeyd olunub.

Azərbaycan təbii qazının Suriyaya tədarükü iki ölkə arasında iqtisadi əməkdaşlığın praktik nəticələr verən mühüm nümunəsi kimi dəyərləndirilib.

Humanitar sahədə həyata keçirilən təşəbbüslərin, o cümlədən Azərbaycan Hökumətinin dəstəyi ilə Suriyada təhsil infrastrukturunun bərpasına yönəlmiş layihənin əhəmiyyəti vurğulanıb.

Görüşdə Azərbaycan ilə Suriya arasında ticarət-iqtisadi, investisiya, energetika, infrastruktur və humanitar sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Görüşdə Baş nazirin müavini Samir Şərifov da iştirak edib.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Zəfər parkını ziyarət ediblər

**27 Sentyabr - Anım Günü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Bakıda Zəfər parkını ziyarət ediblər.**




Zəfər abidəsinin önünə əklil və gül dəstələri qoyulub, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub.

***"Azərbaycan"***

# Milli Məclisin kollektivi Zəfər parkını ziyarət edib

**Sentyabrın 27-də Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, parlamentin komitə sədrləri, deputatlar, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Aparatın, İşlər İdarəsinin şöbə müdirləri və müavinləri 27 Sentyabr - Anım Günü münasibətilə Zəfər parkını ziyarət ediblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, deputatlar və Milli Məclisin kollektivi parkdakı Zəfər abidəsi önünə tər güllər düzüblər, Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizi dərin ehtiramla anıblar.

***"Azərbaycan"***

# Şahin Mustafayev İranın yol və şəhərsalma naziri Fərzanə Sadiq ilə görüşüb




**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinin İran İslam Respublikasına səfəri çərçivəsində iki ölkə arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın həmsədrlərinin (Azərbaycan tərəfdən Baş nazirin müavini Şahin Mustafayev, İran tərəfdən yol və şəhərsalma naziri Fərzanə Sadiq) görüşü keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı iqtisadi-ticarət, nəqliyyat-kommunikasiya və humanitar sahələrdə əlaqələrin mövcud vəziyyəti, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər və əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Bu ilin fevralında Bakıda keçirilmiş Dövlət Komissiyasının 17-ci iclasının yekunları üzrə əldə edilmiş razılaşmaların və imzalanmış Anlaşma Memorandumunda nəzərdə tutulan tədbirlərin icra vəziyyəti ilə bağlı müzakirələr aparılıb.

Baş nazirin müavini prezidentlər İlham Əliyevlə Məsud Pezeşkian arasında fəal siyasi dialoqun və dostluq münasibətlərinin iki ölkənin əlaqələrinin inkişafına mühüm təkan verdiyini bildirib.

Bişkekdə liderlər arasında keçirilən görüşü xüsusi qeyd edib.

Şahin Mustafayev ötən dövr ərzində görülmüş işlərə nəzər salaraq, razılaşdırılmış layihələrin həyata keçirilməsi prosesinin sürətləndirilməsi və aidiyyəti qurumlar arasında əlaqələndirilmiş fəaliyyətin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı nəqliyyat və tranzit sahəsində "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı, onun ötürücülük qabiliyyətinin artırılması əsas müzakirə mövzularından biri olub.

Ağbənd-Kəlalə avtomobil körpüsünün tikintisinin başa çatdırılması məmnunluqla qeyd edilib, sərhəd-keçid infrastrukturunun istifadəyə verilməsi ilə bağlı məsələlər müzakirə olunub.

Astara yük terminalında işlərin tamamlanması və terminalın yükaşırma imkanlarının genişləndirilməsi ilə bağlı görülən tədbirlər də nəzərdən keçirilib.

İki ölkə arasında perspektivli infrastruktur layihələri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan ilə İran arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi, Dövlət Komissiyasının 17-ci iclasında əldə olunmuş razılaşmaların ardıcıl icrası və birgə layihələrin həyata keçirilməsinin sürətləndirilməsi istiqamətlərində fəaliyyətin davam etdirilməsi barədə razılığa gəlinib.

# Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin iclası keçirilib




**Sentyabrın 28-də Göygöl rayonunda Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası hökumətləri arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin 5-ci iclası keçirilib.**

Tədbir iştirakçıları ilk olaraq Ümummilli Lider Heydər Əliyevin Göygöl şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Nümayəndə heyətlərinin iştirak etdiyi iclasda üç ölkənin gömrük xidmətləri arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri geniş müzakirə olunub.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov beynəlxalq ticarətin sürətli, asan və təhlükəsiz şəkildə həyata keçirilməsində gömrük orqanlarının əhəmiyyətli rol oynadığını bildirib. Qeyd olunub ki, xüsusilə Orta dəhliz boyu yükdaşımaların həcminin artması fonunda beynəlxalq tranzitin davamlılığının təmin edilməsi baxımından üç ölkənin gömrük orqanları arasında əməkdaşlıq daha da gücləndirilməli, elektron məlumat mübadiləsi, rəqəmsallaşma daha da genişləndirilməlidir.

Gürcüstan Gəlirlər Xidmətinin rəhbəri, maliyyə nazirinin müavini Mamuka Barataşvili iclasın gömrük orqanları arasında məlumat və təcrübə mübadiləsinin, tranzit imkanlarının genişləndirilməsi istiqamətində səmərəli müzakirələrin aparılmasına töhfə verəcəyini vurğulayıb.

Türkiyə Respublikasının ticarət nazirinin müavini Sezai Uçarmak Orta dəhliz boyu yükdaşımaların həcminin artmasının region ölkələri üçün əlavə iqtisadi imkanlar yaratdığını bildirib və bundan faydalanmaq üçün prosedurlarının sadələşdirilməsinin, sərhədkeçmə proseslərinin sürətləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

İclas çərçivəsində əvvəlki görüşlər zamanı əldə edilmiş razılaşmaların icra vəziyyəti qiymətləndirilib, qarşılıqlı əməkdaşlığın nəticələri təhlil olunaraq növbəti mərhələdə həyata keçiriləcək tədbirlər müəyyənləşdirilib.

Qeyd edilib ki, Azərbaycan, Gürcüstan və Türkiyə arasında gömrük sahəsində formalaşmış səmərəli əməkdaşlıq regionda ticarət və nəqliyyat əlaqələrinin inkişafına, tranzit imkanlarının genişləndirilməsinə və sərhədkeçmə prosedurlarının daha da təkmilləşdirilməsinə mühüm töhfə verir.

Görüşdə Orta dəhliz boyunca gömrük prosedurlarının optimallaşdırılması, tranzit əməliyyatlarının sürətləndirilməsi və gömrük xidmətləri arasında praktiki qarşılıqlı fəaliyyətin gücləndirilməsi əsas prioritetlər sırasında qeyd olunub.

Üç ölkənin gömrük orqanları arasında koordinasiyanın gücləndirilməsinin regional nəqliyyat və logistika imkanlarının daha səmərəli reallaşdırılmasına xidmət etdiyi vurğulanıb. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində tranzit əməliyyatlarının asanlaşdırılması, elektron məlumat mübadiləsinin genişləndirilməsi və sərhədkeçmə proseslərinin səmərəliliyinin artırılması istiqamətində əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Üçtərəfli əməkdaşlığın mühüm istiqamətlərindən biri kimi tranzit gömrük prosedurlarının uzlaşdırılması, ilkin elektron məlumat mübadiləsinin təkmilləşdirilməsi, risklərin idarə edilməsi mexanizmlərinin inkişaf etdirilməsi və gömrük nəzarətinin səmərəliliyinin artırılması, həmçinin gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi məsələləri diqqət mərkəzində olub. Bu istiqamətlər üzrə gömrük xidmətlərinin əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsinin yükdaşımaların daha çevik təşkili, sərhədlərdən keçid proseslərinin sürətləndirilməsi və beynəlxalq ticarət zəncirinin fasiləsizliyinin təmin edilməsi baxımından əhəmiyyəti vurğulanıb və görüşün protokolu imzalanıb.

***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə arasında Gömrük Məsələləri üzrə Birgə Komitənin iclası keçirilib




**Sentyabrın 28-də Göygöl rayonunda Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında Gömrük Məsələləri üzrə Birgə Komitənin 6-cı iclası keçirilib.**

İclasda Azərbaycan-Türkiyə gömrük orqanları arasında əməkdaşlığın mövcud vəziyyəti nəzərdən keçirilib, Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminin (NCTS) tətbiqi sahəsində Türkiyə tərəfinin təcrübəsinin öyrənilməsi, gömrük prosedurlarının sadələşdirilməsi və sərhədkeçmə proseslərinin sürətləndirilməsi, o cümlədən TIR və e-TIR mexanizmlərinin tətbiqi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, iki ölkənin sərhədində yerləşən buraxılış məntəqələrindən sürətli keçidin təmin olunması, yük nəqliyyat vasitələrinin buraxılış imkanlarının artırılması ilə bağlı məsələlər müzakirə olunub.

Həmçinin tərəflər gömrük işinin müxtəlif istiqamətləri üzrə məlumat mübadiləsinin genişləndirilməsi, gömrük hüquqpozmalarına qarşı mübarizə, səlahiyyətli iqtisadi operator, güzgülü gömrük statistikası, risklərin idarəedilməsi sahəsində qabaqcıl təcrübələrin öyrənilməsinə dair fikir mübadiləsi aparıb, birgə əməliyyatların və təlimlərin keçirilməsi imkanlarını nəzərdən keçiriblər.

Görüşün yekununda müzakirə olunan məsələləri və əldə edilmiş razılaşmaları əks etdirən protokol imzalanıb.

***"Azərbaycan"***

# Azərbaycan və Rusiya Baş nazirlərinin müavinləri iqtisadi əlaqələri müzakirə ediblər



**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksandr Novak ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş əsnasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivləri, xüsusən də iqtisadi-ticari, o cümlədən sənaye, energetika, nəqliyyat və logistika sahələrində əməkdaşlıq məsələləri müzakirə olunub.

# Prokurorluq orqanlarının yaradılmasının 108-ci ildönümünə həsr olunmuş tədbir keçirilib

**Sentyabrın 28-də prokurorluğun inzibati binasında 1 oktyabr - Azərbaycan Respublikası Prokurorluğunun yaradılmasının 108-ci ildönümü münasibətilə tədbir keçirilib.**





Əvvəlcə prokurorluq orqanlarının rəhbər heyəti Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla yad edərək məzarı önünə gül dəstələri qoyub. Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarları ziyarət olunub.

Şəhidlər xiyabanına gələn prokurorluğun kollektivi Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının əziz xatirəsini dərin ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri qoyub.

Baş Prokurorluğun inzibati binalar kompleksində keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev çıxış edərək prokurorluq orqanlarında xidmət edən əməkdaşları və prokurorluğun veteranlarını peşə bayramı münasibətilə təbrik edib, Azərbaycan Prokurorluğunun 108 illik inkişaf yoluna nəzər salıb, onun müxtəlif tarixi mərhələlərdə əldə etdiyi nailiyyətlərdən və qarşıda duran vəzifələrdən bəhs edib.

Baş prokuror çıxışında Azərbaycan Prokurorluğunun formalaşması və inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərini xüsusi qeyd edib. Bildirib ki, müstəqil Azərbaycanın hüquqi dövlət quruculuğu prosesində Ulu Öndərin müəyyən etdiyi strateji xətt dövlət idarəçiliyinin, hüquq sisteminin və hüquq-mühafizə institutlarının müasir tələblər əsasında inkişafının mühüm əsasını təşkil edib. Bu siyasətin ardıcıl davam etdirilməsi nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin hüquqi və institusional baxımdan təkmilləşdirilməsi, dövlətçilik və qanunçuluq prinsiplərinin möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib.

Çıxışda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquqi islahatların prokurorluq orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun təşkilinə, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə, əməkdaşların peşəkarlığının artırılmasına və maddi-texniki bazanın gücləndirilməsinə mühüm töhfə verdiyi vurğulanıb. Qeyd olunub ki, həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində prokurorluğun fəaliyyətində müasir idarəçilik və informasiya texnologiyalarının tətbiqi genişləndirilib, hüquq-mühafizə fəaliyyətinin səmərəliliyinin artırılması, vətəndaş müraciətlərinə baxılması, şəffaflığın və operativliyin təmin edilməsi istiqamətində yeni imkanlar yaradılıb.

Baş prokuror həmçinin ölkədə hüquq sisteminin inkişafı, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, sosial və humanitar dəyərlərin təşviqi istiqamətində həyata keçirilən dövlət siyasətindən bəhs edib. Bu kontekstdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sosial və humanitar sahələrdə, o cümlədən cəmiyyətin həssas təbəqələrinin müdafiəsi, mədəniyyət və digər istiqamətlərdə həyata keçirdiyi çoxşaxəli fəaliyyətin mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

Tədbirdə son illərdə prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, fəaliyyətin müasir standartlar əsasında təşkili, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi, "Elektron Prokurorluq" informasiya sisteminin inkişaf etdirilməsi və rəqəmsal həllərin hüquq tətbiqi fəaliyyətində istifadəsinin genişləndirilməsi istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə dövlət orqanlarının, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinin bərpası, burada hüquq və qanunçuluğun təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Həmçinin cinayətkarlıqla mübarizə, hüquq pozuntularının qarşısının alınması və insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinin, xarici dövlətlərin və beynəlxalq təşkilatların müvafiq qurumları ilə qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Baş prokuror müasir dövrdə prokurorluq qarşısında duran vəzifələrin daha yüksək peşəkarlıq, məsuliyyət və çeviklik tələb etdiyini bildirib. Vurğulanıb ki, əməkdaşlar bundan sonra da qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəli təşkili, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi, vətəndaş müraciətlərinə baxılmasının səmərəliliyinin artırılması, ibtidai istintaqın hərtərəfli, tam və obyektiv aparılması, ibtidai araşdırmaya prosessual rəhbərliyin və qanunların icrasına nəzarətin lazımi səviyyədə təmin edilməsi, yeni texnologiyaların imkanlarından səmərəli istifadə olunması, hüquq tətbiqetmə mexanizmlərinin təkmilləşdirilməsi, habelə beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsi istiqamətində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər.

Eyni zamanda Azərbaycan Respublikasının müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə, habelə Azərbaycan xalqına qarşı xüsusilə ağır cinayətlər törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb olunaraq ibtidai istintaqın tamamlanması, dövlət ittihamının məhkəmədə yüksək peşəkarlıqla müdafiə olunması, ədalətli məhkəmə araşdırması nəticəsində barələrində ittiham hökmlərinin çıxarılması zamanı prokurorluq əməkdaşlarının peşəkar və fədakar fəaliyyəti, eləcə də bu istiqamətdə görülmüş digər işlər diqqətə çatdırılıb.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 sentyabr 2026-cı il tarixli sərəncamına əsasən, 4 nəfər prokurorluq işçisinə verilmiş ali xüsusi və hərbi rütbələr təqdim olunub.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2026-cı il tarixli sərəncamına əsasən, dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmiş dövlət qulluqçularına müvafiq medallar təqdim olunub.

Bundan əlavə, Azərbaycan Respublikasının Prezidentinin 28 sentyabr 2026-cı il tarixli sərəncamına əsasən, xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə 22 nəfər prokurorluq işçisinin "Tərəqqi" və "Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə" medalları ilə təltif edilməsi elan olunub.

Tədbir çərçivəsində xidməti fəaliyyətini nümunəvi icra etdiklərinə görə Azərbaycan Respublikası baş prokurorunun 28 sentyabr 2026-cı il tarixli əmri ilə təltif olunmuş, həmçinin prokurorluq orqanlarının yaradılmasının 108-ci ildönümü münasibətilə prokurorluq əməkdaşları və veteranları arasında keçirilmiş şahmat turnirinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

İştirakçılar tədbir zamanı Azərbaycanda prokurorluq orqanlarının yaranma tarixindən müasir dövrədək keçdiyi inkişaf mərhələlərini, ölkəmizdə qanunun aliliyinin təmin olunması və ədalətin bərqərar edilməsində oynadığı mühüm rolu əhatəli şəkildə əks etdirən, Azərbaycan Prokurorluğunun 108 illiyinə həsr olunmuş videoçarxa baxıblar.

Tədbir zamanı çıxış edən prokurorluğun veteranı Zahid Vəliyev, prokurorluq əməkdaşları Fuad Musayev və Eyvaz Mustafayev, dövlət qulluqçusu Validə Əliyeva göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə prokurorluq orqanlarına göstərdiyi yüksək etimada, diqqət və qayğıya görə minnətdarlığını ifadə edib, dövlət başçısının müəyyən etdiyi strateji xəttə uyğun olaraq prokurorluq əməkdaşlarının bundan sonra da qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və qarşıda duran digər vəzifələrin layiqincə yerinə yetirilməsi istiqamətində fəaliyyətlərini əzmlə davam etdirəcəklərinə əminliyini bildirib.

***"Azərbaycan"***

## 28 Sentyabr Ümumdünya İnformasiya Əldə Etmək Azadlığı Günüdür

# Ombudsmanın informasiya əldə etmək hüququnun təmin olunmasında rolu

**İnformasiya əldə etmək hüququ insan hüquq və azadlıqlarının ayrılmaz tərkib hissəsi olmaqla, şəxslərin öz hüquq və qanuni mənafelərini həyata keçirmək, ictimai həyatda iştirak etmək, habelə dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyəti barədə məlumat almaq hüququnu ehtiva edir. Bu hüququn səmərəli şəkildə həyata keçirilməsi şəxsin məlumat almaq imkanı ilə yanaşı, eyni zamanda ictimai əhəmiyyət daşıyan informasiyanı qanunvericiliklə müəyyənləşdirilmiş qaydada, müddətdə, dolğun və mümkün qədər əlçatan formada əldə etməsini nəzərdə tutur.**

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) tərəfindən elan edilmiş 28 Sentyabr - Ümumdünya İnformasiya Əldə Etmək Azadlığı Günü informasiya əldə etmək hüququnun insan hüquq və azadlıqlarının mühüm tərkib hissəsi olduğunu bir daha önə çəkir. Bu gün həm də şəffaflığın, hesabatlılığın və ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsində informasiya əldə etmək hüququnun roluna diqqətin artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

İnformasiya əldə etmək hüququ demokratik cəmiyyətlərdə şəffaflıq, hesabatlılıq və açıq idarəetmə prinsiplərinin təmin edilməsində mühüm rol oynayır. Dövlət orqanlarının və digər informasiya sahiblərinin sərəncamında olan ictimai əhəmiyyətli məlumatların qanunvericiliyə uyğun olaraq açıqlanması və vətəndaşların informasiya sorğularının səmərəli şəkildə cavablandırılması dövlət idarəçiliyində açıqlığın daha da gücləndirilməsinə, ictimai nəzarətin həyata keçirilməsinə və dövlət-vətəndaş münasibətlərində etimadın möhkəmləndirilməsinə xidmət edir. Bu baxımdan informasiya əldə etmək hüququ dövlət orqanlarının fəaliyyətinin ictimaiyyət üçün hesabatlılığını təmin edən mühüm hüquqi mexanizmlərdən biri kimi çıxış edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 50-ci maddəsində hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı təsbit edilmişdir. Bununla yanaşı, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu informasiya əldə etmək hüququnun həyata keçirilməsinin hüquqi, təşkilati və təminat mexanizmlərini müəyyən edir, informasiya sahiblərinin vəzifələrini, informasiya sorğularının icrası qaydalarını və bu hüququn pozulması hallarında hüquqi müdafiə imkanlarını tənzimləyir.

Rəqəmsal texnologiyaların sürətli inkişafı və süni intellekt əsaslı sistemlərin dövlət idarəçiliyi, müxtəlif xidmətlər və sahələrdə tətbiqinin genişlənməsi insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi baxımından yeni vəzifələr müəyyən edir. Süni intellekt texnologiyalarından istifadənin genişlənməsi böyük həcmli məlumatların toplanması, sistemləşdirilməsi və emalına imkan yaratmaqla yanaşı, şəxsi məlumatların qorunması, şəxsi həyatın toxunulmazlığı, qərar qəbuletmə proseslərinin şəffaflığı və hüquqi məsuliyyət kimi məsələlərin xüsusi diqqətdə saxlanılmasını zəruri edir.

Müasir dövrdə süni intellekt texnologiyalarının insan həyatının müxtəlif sahələrinə sürətlə inteqrasiyası və bununla əlaqədar insan hüquq və azadlıqlarının müdafiəsi qarşısında yeni çağırışların yaranması nəzərə alınaraq, 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Gününə həsr olunmuş "Süni intellekt dövründə insan hüquqları: imkanlar, risklər və məsuliyyətlər" mövzusunda Ombudsmanların Beynəlxalq Bakı Sammiti keçirilmişdir. Tədbirdə süni intellektin insan hüquqlarına əsaslanan prinsiplər çərçivəsində tətbiqinin vacibliyi, habelə bu sahədə qanunçuluq, hesabatlılıq, bərabərlik və insan ləyaqətinə hörmət prinsiplərinin təmin edilməsi ilə bağlı məsələlər diqqət mərkəzində olmuşdur. Bu yanaşma informasiya əldə etmək hüququ baxımından da xüsusi əhəmiyyət daşıyır.

İnformasiya əldə etmək hüququnun effektiv müdafiəsində ombudsman təsisatı xüsusi institusional rola malikdir. Ombudsmanın fəaliyyətinin hüquqi əsasını təşkil edən "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən, müvəkkil dövlət orqanlarının, bələdiyyələrin, publik hüquqi şəxslərin və onların vəzifəli şəxslərinin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirir. Konstitusiya Qanununun 13-1-ci maddəsi informasiya əldə etmək hüququnun pozulmasına dair şikayətlərə baxılması ilə bağlı müvəkkilin səlahiyyətlərini



müəyyən edir. Bu səlahiyyətlərin daha səmərəli həyata keçirilməsi məqsədilə Ombudsman Aparatında 2020-ci ildə İnformasiya əldə etmək hüququnun müdafiəsi şöbəsi yaradılmış, şöbənin strukturunda informasiya əldə etmək hüququnun təmini, eləcə də təhlil və monitorinq istiqamətləri üzrə fəaliyyət göstərən sektorlar formalaşdırılmışdır. Şöbənin fəaliyyət istiqamətlərinə informasiya əldə etmək hüququnun pozulması ilə bağlı müraciətlərin araşdırılması, bu sahədə monitorinq və təhlillərin aparılması, hüquqi maarifləndirmənin həyata keçirilməsi, informasiya əldə etmək hüququnun təbliği və təşviqi, müvafiq sahədə beynəlxalq əməkdaşlıq daxildir.

Müvəkkilin ünvanına daxil olan müraciətlər əsasında informasiya sahiblərinin qanunvericilikdən irəli gələn vəzifələrə riayət olunması vəziyyəti araşdırılır, zəruri hallarda aidiyyəti qurumlardan məlumat və sənədlər tələb edilir, aşkar edilmiş pozuntuların aradan qaldırılması ilə bağlı zəruri tədbirlər görülür.

İnformasiya əldə etmək hüququnun pozulması hallarında qanunvericiliklə müəyyən edilmiş məsuliyyət mexanizmlərinin tətbiqi bu hüququn təmin edilməsinin mühüm hüquqi vasitələrindən biridir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 3 may 2017-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na uyğun olaraq, İnzibati Xətalar Məcəlləsinin 371-374, 381.2, 381.3 və 554-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar barədə işlər üzrə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili adından inzibati xəta haqqında protokol tərtib edilərək aidiyyəti üzrə məhkəməyə göndərilir. Nəticə etibarilə hüquq pozuntusuna yol vermiş informasiya sahibləri barəsində qanunvericilikdə nəzərdə tutulmuş inzibati məsuliyyət tədbirlərinin tətbiqi ilə bağlı məhkəmə tərəfindən müvafiq qərarlar qəbul edilir. Bu mexanizm informasiya əldə etmək hüququnun pozulması hallarına hüquqi qiymət verilməsinə, informasiya sahiblərinin qanunvericiliklə müəyyən edilmiş vəzifələrinin icrasının təmin edilməsinə və həmin hüququn müdafiəsi üzrə təsirli hüquqi təminatların formalaşdırılmasına xidmət edir.

İnformasiya əldə etmək hüququ barədə ictimai məlumatlılığın artırılması da ombudsmanın fəaliyyətinin mühüm istiqamətlərindəndir. Bu məqsədlə ötən bir il ərzində bir sıra dövlət qurumları, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun tabeliyində olan qurumlar, Sosial Xidmətlər Agentliyi, Dövlət Əmək Müfəttişliyi Xidməti, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi, Dövlət Məşğulluq Agentliyi, DOST Agentliyinin vəzifəli şəxsləri üçün maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Qeyd olunmalıdır ki, Abşeron, Yevlax, Şəki, Şirvan, Xankəndi şəhər və rayonlarında "İnformasiya əldə etmək hüququnun müdafiəsi" mövzusunda təlimlər keçirilmişdir. Bununla yanaşı, Ombudsman Aparatı tərəfindən hazırlanmış maarifləndirici materiallar məlumatlılığın artırılması istiqamətində mühüm vasitədir. Xüsusilə qeyd etmək istərdim ki, vətəndaşlar üçün "İnformasiya əldə etmək hüququmuzu bilək!", informasiya sahibi olan qurumlar üçün "İnformasiya əldə etmək hüququnu təmin edək!", miqrantlar üçün "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin informasiya əldə etmək hüququ" (Azərbaycan, ingilis, rus və Ukrayna dillərində), media subyektləri və jurnalistlər üçün "Media subyektlərinin və jurnalistlərin informasiya əldə etmək hüququ" adlı bukletlər, "Right of access to information!" adlı broşür və "Implementation of the Law on Access to Information in Azerbaijan: The activities of the Commissioner for Human Rights (Ombudsman) of the Republic of Azerbaijan" adlı buklet hazırlanaraq çap olunmuşdur. Maarifləndirmə materialları geniş milli və beynəlxalq ictimaiyyət arasında yayılmış, həmçinin ölkəmizdə fəaliyyət göstərən 30-dan çox kitabxanaya göndərilmişdir.

Cəmiyyətin informasiya əldə etmək hüququnun məzmunu və onun həyata keçirilməsi mexanizmləri barədə məlumatlılığın artırılması məqsədilə tərəfimizdən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununun əsas müddəalarını, informasiya sahiblərinin vəzifələrini, informasiya sorğusunun təqdim edilməsi və icra müddətlərini, habelə informasiya əldə etmək hüququnun pozulması ilə bağlı ombudsmana müraciət imkanlarını əhatə edən maarifləndirici sosial videoçarx hazırlanmış və müxtəlif televiziya kanallarında yayımlanaraq geniş ictimaiyyətə təqdim edilmişdir. Videoçarxda həmçinin informasiya əldə etmək hüququnun pozulması hallarında ombudsmanın qanunvericiliklə müəyyən edilmiş protokol tərtib etmək səlahiyyətinə dair məlumatlara yer verilmişdir.

İnformasiya əldə etmək hüququnun təmin olunması vəziyyətinin öyrənilməsi və bu sahədə qanunvericiliyin təhlili məqsədilə Ombudsman Aparatının aidiyyəti struktur bölməsi tərəfindən mütəmadi monitorinqlər həyata keçirilir, dövlət orqanlarına və digər informasiya sahiblərinə sorğular göndərilir, daxil olmuş cavablar qanunvericiliyin tələbləri baxımından təhlil edilir. Aparılan təhlillərin nəticələri əsasında informasiya əldə etmək hüququnun həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi, informasiya sahiblərinin bu sahədə vəzifələrinin daha səmərəli icrasının təmin edilməsi və qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində müvafiq təklif və tövsiyələr hazırlanaraq aidiyyəti dövlət qurumlarına təqdim edilir.

Bu sahədə fəaliyyətimiz beynəlxalq əməkdaşlıq istiqamətində də davam etdirilir. Azərbaycan ombudsmanının Beynəlxalq İnformasiya Komissarları Konfransının (ICIC) fəaliyyətində iştirakı informasiya əldə etmək hüququnun müdafiəsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, qabaqcıl yanaşmaların müzakirəsi və milli təcrübənin beynəlxalq platformalarda təqdim edilməsi baxımından əhəmiyyətlidir. 2025-ci ildə ICIC tərəfindən hazırlanmış xüsusi buraxılışda informasiya əldə etmək hüququnun təmin edilməsi və bu sahədə hüquqi maarifləndirmə ilə bağlı fəaliyyətimiz də əks etdirilmişdir. Bu il İnformasiya Komissarlarının Beynəlxalq Konfransı (ICIC) çərçivəsində informasiya əldə etmək hüququ ilə bağlı müraciətlərin araşdırılması prosesində süni intellektin tətbiqi, proaktiv şəffaflıq, məxfilik və fərdi məlumatların qorunması istiqamətləri üzrə işçi qruplarının yaradılması və fəaliyyətinin müzakirə olunması məqsədilə keçirilmiş Şəffaflıq və İnformasiya Hüququ üzrə Avropa Şəbəkəsinin (ENTRI) Assambleyasının I onlayn toplantısında Azərbaycanın Ombudsman təsisatının müsbət təcrübələri bölüşülmüş, koordinasiyalı yanaşmanın əhəmiyyəti diqqətə çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli sərəncamı ilə Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. 2026-cı ilin Azərbaycan Respublikasında "Şəhərsalma və Memarlıq İli" elan edilməsi şəhərsalma və memarlıq sahəsində həyata keçirilən tədbirlərin, qəbul olunan qərarların və bu sahədə idarəetmə proseslərinin ictimai əhəmiyyətini bir daha ön plana çıxarır. Şəhərsalma siyasəti insanların yaşadığı mühitin formalaşdırılması, yaşayış və ictimai məkanların təşkili, ərazilərdən istifadə, tikinti və yenidənqurma, nəqliyyat və infrastrukturun inkişafı kimi məsələləri əhatə etdiyindən bu sahədə qəbul edilən qərarlar şəxslərin gündəlik həyatına, mülkiyyət və ondan istifadə hüquqlarına, əlverişli və təhlükəsiz yaşayış mühitinə, eləcə də digər hüquq və qanuni mənafelərinə birbaşa və ya dolayı təsir göstərə bilər. Bu baxımdan şəhərsalma və memarlıq sahəsində ictimai əhəmiyyətli məlumatların qanunvericiliyin müəyyən etdiyi qaydada əlçatan olması şəffaf və hesabatlı idarəetmənin mühüm şərtlərindən biridir. Şəhərsalma sahəsində informasiya əldə etmək hüququnun təmin olunması yalnız vətəndaşların informasiya sorğularına cavab verilməsi ilə məhdudlaşmamalı, qanunvericiliyə əsasən açıqlanmalı olan ictimai əhəmiyyətli məlumatların informasiya sahibləri tərəfindən əvvəlcədən və əlçatan formada ictimaiyyətə təqdimatını da əhatə etməlidir.

İnformasiya əldə etmək hüququ demokratik və hüquqi dövlətin əsas göstəricilərindən olmaqla, insan hüquq və azadlıqlarının səmərəli həyata keçirilməsinin, ictimai iştirakçılığın və dövlət idarəçiliyində şəffaflıq və hesabatlılığın təmin edilməsinin mühüm hüquqi vasitəsidir. Bu hüququn təmin olunması yalnız şəxsin sorğu əsasında müvafiq informasiyanı əldə edə bilməsi ilə məhdudlaşmır, eyni zamanda ictimai əhəmiyyətli məlumatların qanunvericiliyin tələblərinə uyğun olaraq vaxtında, dolğun, düzgün və əlçatan formada təqdim edilməsi, informasiya sahiblərinin üzərinə düşən vəzifələri lazımi qaydada yerinə yetirməsi və hüquq pozulması hallarında effektiv hüquqi müdafiə mexanizmlərinin mövcudluğu baxımından da mühüm əhəmiyyət daşıyır.

Müasir rəqəmsal transformasiya şəraitində bu hüququn məzmunu və onun həyata keçirilməsi mexanizmləri yeni çağırışlarla qarşılaşır. Xüsusilə süni intellekt texnologiyalarının dövlət idarəçiliyində və sosial həyatın müxtəlif sahələrində tətbiqinin genişlənməsi informasiya əldə etmək hüququ ilə yanaşı, şəxsi məlumatların və məxfiliyin qorunması, hüquqi məsuliyyət kimi məsələlərin də diqqətdə saxlanılmasını zəruri edir. Bu baxımdan rəqəmsal mühitdə informasiya əldə etmək hüququnun təmin olunması texnoloji inkişafla insan hüquqlarının müdafiəsi arasında hüquqi balansın qorunmasını tələb edir.

Beləliklə, informasiya əldə etmək hüququ yalnız müəyyən məlumatın əldə olunması imkanını ifadə edən hüquq deyil, həm də şəffaf və hesabatlı idarəetmənin, ictimai iştirakçılığın və digər insan hüquq və azadlıqlarının səmərəli həyata keçirilməsinin mühüm hüquqi təminatıdır. Bu hüququn təmin olunması dövlət orqanlarının fəaliyyətində açıqlıq və hesabatlılığın artırılması ilə yanaşı, şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün zəruri olan məlumatlara çıxışının təmin edilməsinə, hüquqi məlumatlılığın yüksəldilməsinə və hüquq mədəniyyətinin inkişafına xidmət edir. Bu baxımdan informasiya əldə etmək hüququnun müdafiəsi və onun həyata keçirilməsi üçün mövcud mexanizmlərin davamlı təkmilləşdirilməsi müasir dövrün mühüm tələblərindən biri olaraq qalmaqdadır.

***Səbinə ƏLİYEVA,***
***Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman), hüquq üzrə fəlsəfə doktoru***

# Azərbaycan qlobal investisiyaların mərkəzində

**İri qlobal investorların Azərbaycana marağı artmaqda davam edir. Bakıda keçirilən 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu bunun növbəti təsdiqi oldu. Bir daha göründü ki, Prezident İlham Əliyevin uzaqgörən strategiyası ölkəmizin beynəlxalq kapitalın əsas cəzbetmə mərkəzi kimi mövqelərini möhkəmləndirir və tanınmış şirkətlər Azərbaycanla energetika, infrastruktur, rəqəmsal texnologiyalar, sənaye və digər perspektivli sahələrdə əməkdaşlığa xüsusi önəm verirlər.**



2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda 70 ölkədən 803 nümayəndə daxil olmaqla, 3000-dən çox iştirakçı qeydiyyatdan keçmişdi. Dövlət strukturlarının nümayəndələri, qlobal investorlar, biznes liderləri, maliyyə institutları və dünyanın aparıcı analitik mərkəzləri yenidən Bakıda bir araya gəldilər. Forumun açılış günündə Prezident İlham Əliyevin dünyanın ən böyük investisiya şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlər mövcud tərəfdaşlıqların dərinliyini və əhatəliliyini bir daha təsdiqləyir.

Xatırladaq ki, Prezident İlham Əliyev sentyabrın 25-də "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Uolkeri, "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru Konnor Teski, "Global Infrastructure Partners" şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi qəbul edib. Böyük aktivləri olan bu şirkətlərin Azərbaycana maraq göstərmələri respublikamızda olan əlverişli investisiya mühitinin göstəricisidir.

2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu imzalanmış sənədlərlə öz səmərəliliyini təsdiqlədi. Tədbir çərçivəsində Azərbaycan ilə xarici tərəfdaşlar arasında 11 Anlaşma Memorandumu imzalandı. Onların arasında rəqəmsal iqtisadiyyatın inkişafı sahəsində "Microsoft Romania, Moldova & CIS" ilə əməkdaşlıq, "ROX Group" ilə günəş və külək energetikası layihələri, yeni texnologiyalar əsasında karbid və silisium oksidi istehsalı, "AGROFERT"in iştirakı ilə Ağdamda quşçuluq kompleksinin yaradılması, baytarlıq vaksinlərinin istehsalı və əczaçılıq müəssisəsinin işə salınması yer alır.

Bundan əlavə, Azərbaycan-Oman Birbaşa İnvestisiya Fondu tərəfindən "Azər-Türk Bank"da pay alqı-satqısı üzrə ayrıca saziş, həmçinin SOCAR, ADSEA və "Esyasoft" arasında saziş və Ukrayna ilə investisiyaların təşviqində əməkdaşlığa dair razılaşma rəsmiləşdirilib.

İstiqamətlərin siyahısı tikintidən əczaçılığa, su ehtiyatlarından rəqəmsal texnologiyalara qədər genişdir.

Xatırladaq ki, keçən il keçirilən birinci forumda ümumi məbləği 10 milyard dollardan çox olan investisiya sazişləri imzalanmışdı ki, bunun da 7 milyard dollarından çoxu qeyri-neft-qaz sektorunun payına düşmüşdü. Bu, dövlət başçısının həyata keçirdiyi iqtisadi şaxələndirmə siyasətinin real bəhrə verdiyinin birbaşa sübutudur. Bu il gündəlik daha da genişlənib: sənaye, maliyyə, tikinti, süni intellekt, bərpaolunan energetika, kənd təsərrüfatı, su ehtiyatları və idman.

Ardıcıl iqtisadi siyasət və beynəlxalq əməkdaşlığa açıqlıq konkret layihələrə çevrilən maraq formalaşdırır. Forumun əsas məqsədi bu etimadı uzunmüddətli tərəfdaşlığa və real investisiya qərarlarına çevirməkdir.

Bu gün investorlar üçün ölkənin nə dərəcədə etibarlı olduğunu və uzunmüddətli perspektivdə sabit oyun qaydalarına arxalana biləcəklərini başa düşmək xüsusilə vacibdir. Bunun fonunda Azərbaycan iri layihələr üçün məhz lazım olan şəraiti təklif edir.

Prezident İlham Əliyev forum iştirakçılarına müraciətində Azərbaycanın təkcə kapital deyil, həm də yeni texnologiyalar, biliklər və müasir həllər cəlb etməkdə maraqlı olduğunu vurğulayıb. "Azərbaycan getdikcə daha çox ölkə üçün etibarlı enerji tərəfdaşıdır. Baxışımız enerji təchizatından kənara çıxaraq "yaşıl enerji" dəhlizlərinin inkişafını da əhatə edir ki, bu da bərpaolunan enerjinin regional bazarlara inteqrasiyasına və Azərbaycan, geniş Cənubi Qafqaz, Mərkəzi Asiya və Avropa arasında əlaqəliliyin möhkəmlənməsinə imkan verir.

Ənənəvi enerji sektoru ilə yanaşı, Azərbaycan emal sənayesi, nəqliyyat və logistika, bərpaolunan enerji, rəqəmsal texnologiyalar, kənd təsərrüfatı və qida emalı, turizm, infrastruktur və digər yüksək əlavə dəyərli sahələrdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yaranan bərpa və inkişaf imkanları da daxil olmaqla, mühüm imkanlar təklif edir. Qabaqcıl texnologiyalar gətirən, məhsuldarlığı artıran, ixtisaslı iş yerləri yaradan və regional və qlobal dəyər zəncirlərinə inteqrasiyamızı gücləndirən layihələrə xüsusi önəm verilir", - deyə Prezident İlham Əliyev bildirib.

Xüsusi diqqət isə yeni iş yerləri yaradan, iqtisadiyyatın səmərəliliyini artırmağa və Azərbaycan şirkətlərinə yeni bazarlara çıxmağa kömək edən istehsal layihələrinə məxsusdur. Məhz buna görə də xarici biznes bu gün Azərbaycanda uzunmüddətli əməkdaşlıq üçün getdikcə daha çox imkanlar görür. Ölkə investorlara geniş istiqamət seçimi, hazır və müasir infrastruktur və iri regional bazarlara çıxış təklif edir. Azərbaycanda investorlar üçün imkanlar dairəsi nəzərəçarpacaq dərəcədə genişlənib. Beləliklə, energetika və nəqliyyatla yanaşı, sənaye, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı, bərpaolunan energetika və digər sahələrdə yeni layihələr meydana çıxır.

İri qlobal investorların Azərbaycana artan marağı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin bəhrəsidir. Belə ki, son illər ərzində ölkə iqtisadiyyatını gücləndirib, investorlar üçün yeni imkanlar yaradıb. Ölkəmiz coğrafi mövqeyindən mühüm üstünlük kimi istifadə edə bilib. Bu gün iri beynəlxalq şirkətlər konkret layihələri və uzunmüddətli əməkdaşlığı müzakirə etmək üçün Bakıya gəlirlər. Bu, dövlətimizin başçısının Azərbaycanın regionun əsas iqtisadi və investisiya mərkəzlərindən biri kimi gücləndirilməsi kursunun əyani nəticəsidir.

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin komitə sədri***

# "Cənubi Qafqazın geoiqtisadi əhəmiyyəti daha da artır"

**Asiya ilə Avropa arasında ticarət əlaqələrinin şaxələndiyi, qlobal təchizat zəncirlərinin yeni istiqamətlər üzrə formalaşdığı və alternativ nəqliyyat marşrutlarına marağın artdığı hazırkı şəraitdə Cənubi Qafqazın geoiqtisadi əhəmiyyəti daha da artır.**



Bunu AZƏRTAC-a açıqlamasında **türk iqtisadçı-ekspert Canip NURAY** bildirib.

Onun sözlərinə görə, dünya iqtisadiyyatında baş verən dəyişikliklər beynəlxalq ticarətin daha çevik və çoxşaxəli nəqliyyat bağlantılarına ehtiyacını artırır.

"Bu baxımdan Avropa ilə Asiyanı birləşdirən marşrutların diversifikasiyası həm regional, həm də qlobal iqtisadiyyat üçün mühüm əhəmiyyət daşıyır. Əlverişli coğrafi mövqeyi, nəqliyyat infrastrukturu və beynəlxalq layihələrdə iştirakı Cənubi Qafqazı Şərq-Qərb ticarət əlaqələrinin mühüm halqalarından birinə çevirir. Regionun tranzit potensialının artırılması yükdaşımaların daha sürətli və təhlükəsiz həyata keçirilməsinə, eləcə də yeni iqtisadi əməkdaşlıq imkanlarının yaranmasına şərait yaradır. Bu prosesdə Azərbaycan xüsusi əhəmiyyət daşıyan ölkələrdən biridir. Azərbaycanın həyata keçirdiyi nəqliyyat və logistika layihələri, liman və dəmir yolu infrastrukturunun inkişafı, həmçinin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirakı ölkənin tranzit imkanlarını genişləndirir", - deyə Canip Nuray vurğulayıb.

Ekspert bildirib ki, Orta dəhlizin inkişafı Asiya və Avropa arasında alternativ bağlantıların gücləndirilməsi baxımından mühüm perspektivlər vəd edir. Bu marşrut üzrə infrastrukturun təkmilləşdirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi və rəqəmsal həllərin tətbiqi daşımaların səmərəliliyinin artırılmasına və regionun rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edə bilər: "Nəqliyyat dəhlizlərinin inkişafı yalnız tranzit gəlirlərinin artması ilə məhdudlaşmır. Bu proses yeni investisiyaların cəlb edilməsi, logistika mərkəzlərinin yaradılması, ticarət dövriyyəsinin genişləndirilməsi və region ölkələri arasında iqtisadi əlaqələrin dərinləşdirilməsi üçün də əlavə imkanlar formalaşdırır. Cənubi Qafqazın artan geoiqtisadi əhəmiyyəti region ölkələrinin əməkdaşlığını daha da aktuallaşdırır. Nəqliyyat, logistika, enerji və rəqəmsal bağlantıların inkişaf etdirilməsi Cənubi Qafqazın beynəlxalq iqtisadi sistemdə rolunun möhkəmlənməsinə və Asiya-Avropa ticarət əlaqələrində daha fəal mövqe tutmasına imkan verə bilər".



# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, üzv və tabe təşkilatların kollektivləri Zəfər parkını ziyarət ediblər



**27 Sentyabr - Anım Günü ilə əlaqədar Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, üzv və tabe təşkilatların əməkdaşları Zəfər parkını ziyarət ediblər.**

Vətənimizin müdafiəsi, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib, Zəfər abidəsi önünə gül dəstələri qoyulub.

# "Azərenerji" və "Azərişıq" rəhbərliyi şəhidlərin xatirəsini andı



27 Sentyabr - Anım Günü ilə bağlı "Azərenerji" və "Azərişıq" ASC-lərin rəhbərliyi və kollektiv üzvləri Zəfər Abidəsini ziyarət ediblər.



Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərin xatirəsi ehtiramla yad edilib, abidə önünə gül dəstələri düzülüb.

# Vətənlə qoşa anılan qəhrəmanlar



**Təqvimdə 27 sentyabr olanda... Hər kəs sükuta dalır. Hər yer ecazkar, ilahi səssizliyə bürünür. Əllərimiz ürəyimizin üstündə, gözlərimiz göylərə dikilmiş halda birdəqiqəlik əbədiyyətə yol alırıq. Bu sükut adi səssizlik deyil. Bu, fədakarlıq qarşısında baş əymək, haray çəkən o uca qəhrəmanların şanlı həyat hekayələrini dinləməkdir. Qulaqlarımıza bir andaca top-tüfəng səsləri gəlir, amma o "dəmir yumruğ"unun nərəsi, "Vətən, sənə canım fəda!" hayqırtıları bütün ağrı-acıları, dəhşətləri üstələyir. Sıldırım qayaları yalın əllə aşan, düşmənə aman verməyən o cəsur oğullar gözümüzün önündən keçir.**



Onlar cavan, gənc yaşlarında Tanrıdan verilmiş ömür paylarını bir an belə tərəddüd etmədən bütöv Azərbaycanın xoşbəxtliyinə bağışladılar. Sinələrini sipər edib, torpağı qanları ilə suvararaq ona Vətən möhürü vurdular. Bu gün Şəhidlər xiyabanlarında fotolardan bizə baxan o gülümsər simalar, sadəcə, xatirə deyil - onlar əbədiyyət üfüqündə doğan və heç vaxt batmayan günəşlərimizdir.

Ey uca şəhidlərimiz!

Siz olmasaydınız, bu gün Qarabağda ucalan körpə səslərinin, oxunan azanın, məktəbə tələsən övladlarımızın sevinci olmazdı. Sizin polad iradəniz sayəsində Xocalı qurbanlarının, vətənin bütövlüyü uğrunda canını qurban verən şəhidlərimizin qisası alındı, ruhları dinclik tapdı.

Uca bayrağımız zirvələrimizdə məğrur-məğrur dalğalandı...

Vətən bütöv oldu…

## Sonsuz torpaq sevgisi

2020-ci ilin 27 sentyabrı Azərbaycan xalqının yaddaşına, sadəcə, növbəti bir tarix kimi deyil, otuzillik həsrətə son qoyan milli iradənin, mənəvi dirçəlişin və şanlı Zəfərin başlanğıc nöqtəsi kimi həkk olundu. Müzəffər Ali Baş Komandanın "İrəli!" əmri ilə haqq savaşına atılan, ölümün gözünə dik baxaraq Vətənə canını sipər edən igidlərimiz bizə başıucalıq və tarixi zəfər bəxş etdilər.

Müharibənin ilk saatlarından etibarən düşmənin otuz il boyunca keçilməz hesab etdiyi, mühəndis-istehkam baxımından möhkəmləndirdiyi "Ohanyan xətti"ni yarıb keçən mərd oğullarımızın hər biri döyüş meydanında həqiqi qəhrəmanlıq dastanları yazdılar. Yağışa, palçığa, qara və şaxtaya baxmadan, dərin dərələrdən keçib sıldırım qayaları aşan döyüşçülərimiz üçün yalnız bir hədəf var idi: nə olursa-olsun, düşməni ana torpağımızdan qovmaq!

Bu 44 gündə göstərilən şücaət sonsuz Vətən sevgisinin təzahürü idi. Döyüş meydanında minaya düşən, qəlpə və güllə yaraları alan igidlərimizin çoxu tibbi yardımdan, arxaya təxliyə olunmaqdan qətiyyətlə imtina edirdilər. Yaralı-yaralı od-alovun, güllə yağışının içindən keçərək önə atılır, yoldaşlarını darda qoymur, düşmənin üzərinə şığıyırdılar. Murovdağ zirvələrindən Cəbrayıla, Füzulidən Zəngilana, Qubadlıdan Hadruta qədər hər qarış torpağımız məhz bu fədakarlığın, bu sarsılmaz iradənin sayəsində addım-addım, kənd-kənd azad olundu.

Müharibənin dönüş nöqtəsi, hərb tarixinin möcüzəsi sayılan Şuşa əməliyyatı isə Azərbaycan döyüşçüsünün hansı gücə, hansı ruha sahib olduğunu bütün dünyaya göstərdi. Dünya hərb mütəxəssislərini heyran qoyan bu əməliyyatda igidlərimiz ağır hərbi texnikanın keçə bilmədiyi aşılmaz Şuşa qayalıqlarına dırmaşdılar, sıldırımları fəth etdilər. Silah-sursat tükənəndə belə, yalın əllə, sadəcə, qəlblərindəki Vətən sevdası, qisas yanğısı ilə düşməni məhv edib bayrağımızı Qarabağın ürəyində - Şuşada dalğalandırdılar. Şuşanın azad edildiyi gün həm də milli qürurumuz göylərə ucaldı.

Bu şanlı zəfərin qazanılması, torpaqlarımızın azadlığı üçün qəhrəman oğullarımız canlarını belə qurban verməkdən çəkinmədilər. "Biz bir öləriksə, min dirilərik" deyərək uca şəhidlik məqamına yüksəldilər.

O oğulların döyüş meydanında yazdıqları qəhrəmanlıq salnaməsi xalqımızın əbədi fəxarət mənbəyinə çevrildi.

Prezident İlham Əliyev 2021-ci il sentyabrın 27-də Anım Günü ilə bağlı müraciətində vurğuladığı kimi: "Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib".

Ölkəmizin rəhbəri qürurla vurğuladı ki, biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik: "O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

## Əbədi ehtiramın təcəssümü

Məhz bu əbədi ehtiramın təcəssümü olaraq, 2021-ci ildə - Anım Günündə Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq Bakı şəhərində yürüş təşkil edildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından ibarət plakatlarla yürüş edərək xalqın birliyinin daimi və sarsılmaz olduğunu, Vətənə sevgini, şəhidlərimizə ehtiramın əbədiliyini bir daha nümayiş etdirdilər.

Dövlət başçısı yürüşdə şəhid Adil Asəm oğlu İbrahimlinin fotosu əks olunmuş plakatı ilə, Birinci xanım Mehriban Əliyeva isə yürüşdə şəhid Narin Teymur qızı Xalıqovanın fotosu əks olunmuş plakatla irəliləyirdi.

Həmin tarixdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhəri, 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlqoyma mərasimində də iştirak etdilər.

Bütün bunlar xalqın birliyinin daimi və sarsılmaz olduğunu, Vətənə sevgini, şəhidlərimizə ehtiramın əbədiliyini bir daha nümayiş etdirdi.

Qəhrəman oğullarımız, biz sizin uca şəhadətiniz qarşısında bir ömür boyu minnətdarlıqla baş əyəcək, adınızı təqvimin bir gününə deyil, qəlbimizə həkk edəcəyik. Nə qədər ki bu millət var, nə qədər ki üçrəngli bayrağımız zirvələrdə dalğalanacaq, siz daim Vətənlə, Vətən də sizinlə qoşa anılacaq.

Qanınızla yazdığınız Zəfər salnaməsi gələcək nəsillərimizə qürur və şərəf mənbəyi olacaq.

Əbədi ehtiram sükutumuzu və dua dolu minnətdarlığımızı qəbul edin...

Ruhunuz şad, məkanınız cənnət olsun!

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Şəhidlərimizə ehtiram əbədidir

## Biz bu Zəfərə görə onlara borcluyuq

**Azərbaycanın tarixində elə təqvimlər var ki, xalqımız o günləri böyük sevinc və iftixar hissilə qeyd edir. Çünki həmin günlər xalqımızın qəhrəmanlıq və igidlik salnaməsinə böyük hərflərlə yazılıb, zaman keçdikcə mübarizlik rəmzinə çevrilib. Xalqımızın qəhrəmanlıq nümunəsi olan İkinci Qarabağ müharibəsinin hər günü uğur və qələbə ilə keçdi. Rəşadətli Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında 44 günlük Vətən müharibəsinin hər günündə xalqımıza qələbə sevinci yaşatdı.**

İkinci Qarabağ müharibəsinin başladığı ilk gün - 27 sentyabr ölkəmizdə Anım Günü kimi qeyd olunur. Bu əlamətdar tarix ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş qəhrəman oğullarımızın əziz xatirəsinin xalqımız tərəfindən dərin ehtiram və hörmətlə yad edildiyi gündür. Anım Günü bizim üçün təkcə hüzn və kədər deyil. Həm də milli qürur, dövlətimizin gücünü, xalqımızın sarsılmaz birliyini, həmrəyliyini və Vətən sevgisini özündə birləşdirən və daim yaşadan əziz bir gündür. Şəhidlərimizin həyatını, döyüş yolunu xatırlamaq, onların bizə əmanət etdiyi Vətənə sahib çıxmaq və onu göz bəbəyi kimi qorumaq hər birimizin müqəddəs borcudur.

Dövlət başçımızın sərəncamı ilə təsis olunmuş Anım Günü İkinci Qarabağ müharibəsində qəhrəmancasına vuruşmuş, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir.

Prezident İlham Əliyev Vətənin azadlığı uğrunda canından keçmiş şəhidlərimizə yüksək ehtiramla yanaşır, onların xatirəsinin əbədiləşdirilməsini daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı Vətən müharibəsinin başa çatması ilə bağlı xalqa müraciətində demişdir: "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq".

Birinci vitse-prezident Mehriban Əliyeva da şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə, şəhid ailələrinə, qazilərə hərtərəfli qayğı göstərilməsinə xüsusi diqqət yetirir. Mehriban xanım Əliyeva şəhidlərimizə hörmət və ehtiramını bu dəyərli sözlərlə ifadə etmişdir: "Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib. Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir... Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu. Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq. Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq".

Həmişə olduğu kimi, xalqımız bu il də Anım Günündə yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş oğullarımızın məzarlarını böyük ehtiramla ziyarət etdi. Yaşından asılı olmayaraq hər kəs səhər açılandan qəhrəman oğullarımızın xatirəsini yad etmək üçün əlində gül-çiçək dəstələri Hərbi Memorial Məzarlığa üz tutdu.

Bu onu bir daha göstərirdi ki, xalqımız qəhrəmanlıqları ilə tarix yazmış şəhidlərini heç vaxt unutmayacaq. Onların xatirəsini həmişə əziz tutacaq, hörmət və ehtiramla yad edəcək. Şəhidlər xalqın milli kimliyi, onların yolu qəhrəmanlıq tariximizin şərəfli səhifəsidir. Şəhidlərin hər birinin xalqımızın qəlbində öz yeri var. Bu cəsur oğulların məzarını ziyarət etməyə gələnlərin üz-gözündən kədərlə bərabər qürur və iftixar da duyulurdu. Bu da təbii idi. Çünki 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsi xalqımıza kədərlə bərabər qələbə sevinci də yaşatdı.

Hərbi Memorial Məzarlığının qarşısında böyük izdiham var idi. Ziyarətə gələnlər asta, ehtiram ifadə edən addımlarla məzarlığın geniş açılmış qapısından içəri daxil olurdular. Əllərində bayraq və gül tutmuş məktəblilər müəllimlərinin müşayiəti ilə sırayla məzarlığa tərəf addımlayırdılar. Ziyarətçilərin ardı-arası kəsilmirdi. Gələnlərin arasında hərbi geyimdə olanlar daha çox gözə dəyirdi. Xalq böyük ehtiramla qəhrəman övladlarının qəbrini ziyarət edirdi. Məzarların üstünə qərənfillər səpilirdi.

Üstünə güllər düzülmüş, şəkillər qoyulmuş məzarlardan birinin yanında dayanmış qadınla söhbət etmək üçün ayaq saxlayırıq. Tanış olanda öyrəndik ki, qadın şəhid Əlibəyli Şəhriyar Ramiz oğlunun xalası Samirə xanımdır. 25 oktyabr 1994-cü ildə Qəbələ rayonu Vəndam kəndində dünyaya göz açmış Şəhriyar Əlibəyli ailənin yeganə övladı olub. Şəhriyar C.Naxçıvanski adına Hərbi Liseydə oxuyub, Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev Hərbi İnstitutu) hərbi təhsilini davam etdirib. Könüllü olaraq 44 günlük Vətən müharibəsində iştirak edib. Şuşa, Xocavənd, Laçın və Kəlbəcər uğrunda gedən əməliyyatlarda iştirak edib. 5 mart 2023-cü ildə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Samirə xanım bizimlə söhbətində dedi ki, Şəhriyarın qəhrəmanlığı ilə fəxr edir, qürur duyurlar: "O həmişə deyirdi ki, Qarabağın uzun illər erməni işğalında qalması zabit kimi onu çox narahat edir. Ordumuz çox güclü və qüdrətlidir. Əgər Qarabağın azadlığı uğrunda yenidən döyüşlər başlayarsa, nəyin bahasına olursa olsun, biz düşmənləri diz çökdürəcək, torpaqlarımızı işğaldan azad edəcəyik. Bu, zabit kimi mənim borcum və arzumdur. Şəhriyar arzusuna çatdı, yurdumuzun azadlığı uğrunda döyüşdü. Canından da çox sevdiyi Vətən torpaqları uğrunda şəhid oldu".

Növbəti həmsöhbətimiz Çingiz Zeynalov dedi: "Şəhid olanların hamısı bizim üçün doğma və əzizdir. Görürsünüzmü məzarlıqda nə qədər insan var. Kimliyindən, yaşından asılı olmayaraq Anım Günündə hamı bu müqəddəs məkana gələrək şəhidlərin məzarını ziyarət edir. Mən də bacım oğlu Xeyrulla İbrahimovun məzarını ziyarət etməyə gəlmişəm. Xeyrulla çox cəsur hərbçi idi. O, Birinci Qarabağ müharibəsi zamanı Laçın, Tərtər, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilanın müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib. 1994-cü il martın 22-də Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi istiqamətində gedən döyüşdə yaralanıb. Xeyrulla 44 günlük Vətən müharibəsi zamanı da Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşdu. Hərbçi kimi üzərinə düşən döyüş tapşırıqlarını bacarıqla yerinə yetirdi. 2020-ci il oktyabrın 26-da yurdlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid oldu. Allah bütün şəhidlərə rəhmət eləsin".

Baxışlarından kədər süzülən Gülbəniz Cəfərova ilə söhbət edərkən öyrəndik ki, o, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş həyat yoldaşı Zaur Cəfərovun məzarını ziyarət etməyə gəlib. Gülbəniz xanım dedi ki, Zaur çox ailəcanlı, cəsur, alicənab bir insan idi. Kəlbəcər rayonunun Başlıbel kəndində anadan olmuşdu: "Rayonumuz erməni qəsbkarları tərəfindən işğal olunanda doğma ocaqlarımızdan didərgin düşdük. Zaur 1997-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev Hərbi İnstitutu) qəbul olmuşdu. 2014-2016-cı illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında təhsil almışdı. Müharibənin ilk günlərindən döyüşlərə atılmışdı. Gərgin və şərəfli döyüş yolu keçən Zaur 10 oktyabr 2020-ci ildə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. Həyat yoldaşımdan üç övladı yadigar qalıb. Çalşıram ki, uşaqlarımızı Zaurun adına layiq böyüdüm. Onun igidliyi, qəhrəmanlığı ilə hamımız fəxr edir, qürur duyuruq".



Hava qaralsa da, ziyarətə gələnlərin ardı-arası kəsilmirdi. Xalq müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərin məzarını böyük ehtiramla yad edirdi. Hər addımda aydın görünür ki, şəhidlərin xatirəsi xalqımızın qəlbində əbədi yaşayır. Onların göstərdiyi fədakarlıq, qəhrəmanlıq tariximizin yaddaşına əbədi həkk olunub. Bu bir həqiqəti də ortaya qoyur: "Şirin canından keçən şəhidlərinin xatirəsini əbədi olaraq yaşadan xalq həmişə qalib olacaq".

Şərəf dolu bu gün bizə Vətənin müdafiəsinin, milli birliyin, həmrəyliyin, dövlətçilik ənənələrinin və tarixi yaddaşın əhəmiyyətini dönə-dönə xatırladır. Bizi sabahkı uğurlara və zəfərlərə səsləyir.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

**VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ**



# 27 sentyabr 2020-ci il saat 06:00...

## Savaş gündəliyi

**2020-ci il sentyabrın 26-dan 27-nə keçən gecə Ermənistan hərbi birləşmələri növbəti dəfə genişmiqyaslı hərbi əməliyyata başlayır...**

**Hər zaman olduğu kimi, ordumuz düşmənə cavab verir.**

**Amma bu dəfə Azərbaycan Silahlı Qüvvələrinə verilən əmr hərbi mundir geyinmiş bütün hərbçilərimizin böyük sevincinə səbəb olur.**

**Çünki Azərbaycanın igid oğulları düşmənə layiqli cavab verib 30 illik həsrətə son qoymaq üçün məhz bu əmri gözləyiblər.**

**Budur, illərlə gözlənilən hərbi komanda verilir - İRƏLİ!..**

**Savaş tariximizin ən şərəfli səhifəsi olan Vətən müharibəsi başlayır...**

*Saat 07:30*
*Müdafiə Nazirliyinin məlumatı*

### Ermənistan silahlı qüvvələri bütün cəbhəboyu genişmiqyaslı təxribat törədib

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.



Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilib.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görüb.

*Saat 08:35*
*Müdafiə Nazirliyinin məlumatı*

### Düşmənin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır

Cəbhənin ən gərgin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır.



Hazırda Azərbaycan Ordusu tərəfindən cavab tədbirləri görülür və qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Cəbhəboyu zonada baş verən hadisələrlə bağlı mətbuata və ictimaiyyətə əlavə məlumat veriləcək.

Əhali arasında çaşqınlıq salmamaq, həmçinin hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədilə sosial şəbəkə istifadəçilərini, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.

*Saat 09:10*
*Müdafiə Nazirliyinin məlumatı*

### Bütün cəbhəboyu qoşunlarımız əks-hücum əməliyyatına başlayıb

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.

Şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkar edərək məhv edirlər.

Əldə olunan məlumata görə, müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri vurulub, ekipaj üzvləri sağdır.

Qoşunlarımızın sürətli əks-hücum əməliyyatı davam edir.

*Saat 10:28*
*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin məlumatı*

### Ölkə üzrə internetin verilməsi məhdudlaşdırılır

Ermənistanın törətdiyi genişmiqyaslı təxribatın qarşısını almaq üçün ölkə üzrə internetin verilməsi məhdudlaşdırılıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaydığı məlumata görə, nazirlik ölkə üzrə internetin verilməsində məhdudiyyətlər tətbiq edəcək: "Azərbaycan vətəndaşlarının münaqişə vəziyyətində internetlə bağlı yarana biləcək məhdudiyyətlər səbəbindən anlayış göstərəcəklərinə ümid edirik".

*Saat 10:53*

### Müdafiə Nazirliyi təkzib edir

Ermənistan tərəfinin guya Azərbaycan Ordusuna məxsus 3 tank, 2 helikopter və 3 pilotsuz uçuş aparatının (PUA) vurulması barədə yaydığı məlumat yalandır və dezinformasiyadır.

Bildiririk ki, cəbhədə bölmələrimiz düşmən üzərində tam üstünlüyə malikdir.

*Saat 11:08*
*Müdafiə Nazirliyinin məlumatı*

### Azərbaycan Ordusu mülki əhalini atəşə tutmur

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.



Rəsmi surətdə bəyan edirik ki, Azərbaycan Ordusu mülki əhalini, mülki obyektləri və mülki xarakterli infrastrukturları hədəfə almır. Azərbaycan işğalçı Ermənistandan fərqli olaraq, hərbi əməliyyatlar zamanı Cenevrə konvensiyaları da daxil olmaqla beynəlxalq humanitar hüququn müddəalarının tələblərinə riayət edir.



Ermənistan ordusu özünün atəş nöqtələrini qəsdən mülki əhalinin yaşayış yerlərinin içərisində və yaxınlığında yerləşdirir.

Azərbaycan Ordusu işğal altında olan ərazilərdəki mülki əhalini hərbi obyektlərdən kənar durmağa çağırır.

*Saat 11:50*
*Prezident xalqa müraciət edir*

### İlham ƏLİYEV: "Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir"

Prezident İlham Əliyev xalqa müraciət edərək deyir ki, bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutub.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaq. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Ali Baş Komandan vurğulayır ki, son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter alırdı. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olub. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıb və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olublar. Amma Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr belə irəliyə gedə bilmədi.

Bu tədbirlərlə düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı: "Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır".

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü?

Prezident bu məsələyə aydınlıq gətirərək deyir ki, ilk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər: "Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir". Prezident deyir ki, Ermənistanın iyul və avqust aylarındakı təxribatlarına verilən layiqli cavab onlara dərs olmayıb. Ona görə yenə də çirkin əməllərini həyata keçirirlər.

Dövlət başçısı bildirir ki, əgər Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" deyirsə, onda hansısa danışıqlardan söhbət gedə bilməz. Bu azmış kimi, Ermənistan rəhbərliyi iddia edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir.

İlham Əliyev qətiyyətli şəkildə bəyan edir ki, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. Danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və bu o deməkdir ki, işğala son qoyulmalıdır:

"Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər".

Ali Baş Komandan Ermənistanın son təxribatlarını, müharibə hazırlıqlarını təsdiq edən faktları da misal göstərir. Bunlar qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərarın qəbul edilməsi, Ermənistanın baş nazirinin on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacağı ilə bağlı bəyanatıdır. Bütün bunlar Azərbaycana qarşı törədilən təxribatın hazırlıq mərhələsi idi.

İlham Əliyev bu barədə hətta BMT kürsüsündən də dünyaya səslənərək Ermənistanın yeni müharibəyə hazırlaşdığını, bu ölkənin təxribatlarının dayandırılmasının vacibliyini bildirdiyini deyir.



Azərbaycan Prezidenti Ermənistanın işğal edilmiş torpaqlarımızda qanunsuz məskunlaşma siyasətinə də aydınlıq gətirir: "Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır".

Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisinin azaldığını vurğulayan dövlət başçısı deyir ki, bu ölkədə demoqrafik böhran yaşanır və onlarda işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirmələri üçün insan resursları yoxdur. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıb. Rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir, tarixi abidələrimiz, məscidlərimiz dağıdılır, təhqir edilir. Məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Prezident deyir ki, Azərbaycan heç bir təxribata əl atmayıb, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır: "Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır".

Həmçinin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Dövlət başçısı bu qətnamələrin 30 ilə yaxın müddətdə kağız üzərində qaldığını söyləyərək deyir ki, bu müddətdə Minsk qrupu çərçivəsində danışıqlar aparılsa da, Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıb. BMT-dən başqa, bütün digər aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul edib. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyir:

"Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

*Saat 12:11*
*Müdafiə Nazirliyinin məlumatı*

### Əks-həmlə əməliyyatı uğurla davam edir

Azərbaycan Ordusunun bölmələri cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murovdağ istiqamətlərində Ermənistan qoşunlarının işğalı altında olan vacib yüksəkliklər uğrunda döyüşlər aparırlar.

Raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv edirlər.

Bütün cəbhəboyu şiddətli döyüşlər gedir.

*Saat 13:42*
*Xarici jurnalistlərə qarşı təxribat*

### Ermənistan silahlı qüvvələri türkiyəli jurnalistləri hədəfə alır

Erməni hərbi bölmələri "TRT Haber" telekanalı və "Anadolu" Agentliyinin əməkdaşlarının olduğu nöqtəyə minaatandan 3 atəş açırlar.

Bu barədə məlumatı "Anadolu" Agentliyi və TRT yayır.

Bildirilir ki, mərmilər jurnalistlərdən 100 metr aralı düşüb. Xoşbəxtlikdən hadisə nəticəsində jurnalistlər xəsarət almırlar.

*Saat 13:46*
*Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı*

### Tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür

Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayır. Sənəddə bildirilir ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrində qeyri-qanuni mövcudluğunun regionda sülh və sabitliyə ciddi təhlükə olduğuna yaxşı bələd olan və Ermənistanın Azərbaycana qarşı təcavüzü, işğalçı fəaliyyətinə beynəlxalq hüququn norma və prinsiplərindən irəli gələrək prinsipial mövqe nümayiş etdirən beynəlxalq ictimaiyyət bu ölkənin işğalçılıq siyasətini, təxribatçı əməllərini kəskin şəkildə qınamalıdır.

Eyni zamanda Ermənistan beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl etməyə məcbur edilməlidir. Yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

*Saat 14:00*
*Müdafiə Nazirliyinin məlumatı*

### Ordumuz bir sıra kəndlərimizi və vacib yüksəklikləri azad edib

Azərbaycan Ordusunun qoşun növləri və bölmələrinin həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz, vacib yüksəkliklər və əlverişli ərazilər azad edilib.



Məlumata görə, cəbhənin Füzuli-Cəbrayıl istiqamətində aparılan hərbi əməliyyat nəticəsində uzun illər ərzində düşmən işğalı altında olan Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib.

Ağdərə rayonu istiqamətində və Murovdağ silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək bir sıra hakim yüksəkliklər nəzarətə götürülüb.

Döyüş əməliyyatları davam edir.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# ZƏFƏRƏ belə başladıq

*Saat 14:16*
*Prezidentin Mətbuat Xidmətinin məlumatı*

## Rəcəb Tayyib Ərdoğandan İlham Əliyevə tam dəstək



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti bu gün Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib, onlara Allahdan rəhmət diləyib. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulayıb.

Başsağlığına görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidentinin daimi dəstəyini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev bu gün cəbhə xəttində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində baş verən hadisələrin gedişi barədə məlumat verib.

Dövlət başçıları dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

*Saat 15:05*
*Müdafiə Nazirliyinin məlumatı*

## Düşmənin döyüş texnikaları məhv edilib

Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əks-həmlə əməliyyatı nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi və döyüş texnikaları məhv edilib.



*Saat 15:57*
*Prezidentin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir*

## İlham ƏLİYEV: "Uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaq"

Günün ikinci yarısında Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir.

İclasda çıxış edən Ali Baş Komandan deyir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Amma Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulub. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib:

"Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır!"



Prezident deyir ki, Azərbaycan Ermənistana 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verib. Amma görünür ki, bu, onlar üçün dərs olmayıb: "Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir".

Ali Baş Komandan bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyinin olduğunu, eyni zamanda ordumuza könüllü yazılanların sayının on minlərlə insanı əhatə etdiyini söyləyərək bunu xalqımızın öz dövlətinə sadiqliyinin göstəricisi adlandırır: "Əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır. Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik".

İclasda çıxış edən müdafiə naziri Zakir Həsənov isə Ali Baş Komandana məruzə edərək deyir ki, əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılıb, yeddi kənd işğaldan azad olunub. Azərbaycan Ordusu digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı həyata keçirir və düşmən böyük itkilər verərək geri çəkilir.

Azərbaycan Ordusunun zərbələri həm ön xətdə, həm də düşmənin tam dərinliyində həyata keçirilir. Düşmən tam şəkildə geri çəkilir.

İclasa yekun vuran Ali Baş Komandan əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edir: "Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!"

## Fransa Prezidenti Emmanuel Makron İlham Əliyevə zəng edir

Prezident Emmanuel Makron Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd edib və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayır.

Dövlətimizin başçısı qeyd edir ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı dövlət başçısı Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı hadisələrin gedişi barədə məlumat verərək qeyd edir ki, Ermənistanın Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub, Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Azərbaycan Prezidenti bildirir ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

*Saat 16:29*
*Müdafiə Nazirliyinin məlumatı*

## Ermənistan hərbi birləşməsinin komandanlığına təslim olmaq təklif edilib

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaşayış məntəqəsində yerləşən qarnizonunun tam məhv edilməməsi və döyüş itkilərinin sayının artmaması məqsədilə Azərbaycanın hərbi komandanlığı tərəfindən bu istiqamətdə yerləşən erməni komandanlığına müqavimət göstərməmək, silahı yerə qoyaraq təslim olmaq barədə təklif edilib.

Azərbaycan Ordusunun komandanlığı onu da bildirir ki, hərbi əsirlər və mülki şəxslərlə davranış Cenevrə Konvensiyasının tələbləri və beynəlxalq humanitar hüquqa əsasən həyata keçiriləcək.

Müqavimət göstəriləcəyi təqdirdə hər bir silahlı şəxs tərəfimizdən zərərsizləşdiriləcək.

*Saat 18:18*
*Müdafiə Nazirliyinin məlumatı*

## Düşmən zirehli texnikasını döyüş meydanında ataraq qaçır

Əks-həmlə əməliyyatı həyata keçirən Azərbaycan Ordusu bölmələrinin zərbələri nəticəsində düşmən çoxlu sayda zirehli texnikanı döyüş meydanında qoyaraq qaçıb.



Nazirlik Ermənistan qoşunlarının məhv edilən, eləcə də ərazidə qalan hərbi texnikalarının videogörüntülərini yayır.

*Saat 18:28*
*Müdafiə Nazirliyinin məlumatı*

## Murovdağ silsiləsindəki əhəmiyyətli yüksəklik azad olunub

Cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murovdağ silsiləsindəki Murov zirvəsi azad olunub.




Əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verir.



Döyüş əməliyyatları davam edir.

*Saat 18:45*
*Türkiyə Prezidenti sosial şəbəkədə paylaşım edir*

## Rəcəb Tayyib Ərdoğandan Azərbaycana növbəti dəstək

"Bugünkü telefon danışığı zamanı bacarıq və qətiyyətinə bir daha şahid olduğum Azərbaycan Prezidenti, qardaşım İlham Əliyevə də bildirdiyim kimi, Türkiyə "bir millət, iki dövlət" anlayışı ilə azərbaycanlı qardaşları ilə həmrəyliyini gücləndirməyi davam etdirəcək".

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrdəki səhifəsində etdiyi paylaşımda bildirib.

Türkiyə Prezidenti qeyd edir ki, Azərbaycana qarşı yeni hücumlar edən Ermənistan bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha göstərdi: "Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır. Erməni xalqını onları fəlakətə aparan hakimiyyətinə və onları oyuncaq kimi istifadə edənlərə qarşı gələcəklərinə sahib çıxmağa dəvət edirik. Bütün dünyanı işğala qarşı apardığı mübarizədə Azərbaycanın yanında olmağa çağırırıq".

*Saat 19:05*
*Azərbaycan Respublikası Prezidentinin fərmanı*

## Ölkə ərazisində hərbi vəziyyət elan edilir

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, ölkəmizə qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycanın bütün ərazisində hərbi vəziyyətin elan edilməsi ilə bağlı fərman imzalayır.

Sənəddə bildirilir ki, hərbi vəziyyətin təmin edilməsi məqsədilə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilsin.

Fərmana əsasən, Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilir.

Şəhər və rayonlara xüsusi giriş-çıxış rejimi tətbiq edilir, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülür.

*Saat 19:59*
*Milli Məclisin iclası keçirilir*

## Parlament Azərbaycanda hərbi vəziyyətə keçidi təsdiq edir




Milli Məclisin iclası keçirilir. Parlamentin Sədri Sahibə Qafarova bildirir ki, Prezident İlham Əliyev "Hərbi vəziyyət elan edilməsi haqqında" fərman imzalayıb və həmin sənədi təsdiq edilməsi üçün Milli Məclisə təqdim edib. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə görə, "Hərbi vəziyyətin elan edilməsi haqqında" fərman Milli Məclisə daxil olduqdan sonra 48 saat müddətində növbəti və növbədənkənar sessiyalar dövrünün olub-olmamasından asılı olmayaraq, parlamentin iclası keçirilir. Bugünkü iclasın keçirilməsi də bu zərurətdən irəli gəlir.

Müzakirələrdən sonra Milli Məclisin qərarı qəbul edilir. Qərara əsasən, "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli fərmanı təsdiq edilir.

*Saat 20:08*
*Baş Prokurorluğun məlumatı*

## Ermənistanın atdığı mərmi nəticəsində Naftalanda bir ailənin 5 üzvü həlak olub

Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan rayonunda bir ailənin 5 üzvü həlak olur. Baş Prokurorluğun yaydığı məlumatda bildirilir ki, Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində rayonun Qaşaltı kəndinin sakini, 1951-ci il təvəllüdlü Elbrus Qurbanov və onun 4 ailə üzvü, 1956-cı il təvəllüdlü Şəfayət Qurbanova, 2006-cı il təvəllüdlü Fidan Qurbanova, 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 1981-ci il təvəllüdlü Afaq Əmirova həlak olublar.

Bundan başqa, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq dinc əhalinin sıx yaşadığı əraziləri ağır silahlardan atəşə tutub, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətməyə davam edib. Hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib.



Ermənistanın işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması məqsədilə tərəfimizdən xüsusi beynəlxalq tribunalın yaradılması üçün bir sıra beynəlxalq təşkilatlara, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasına müraciət ediləcək.

*Saat 20:15*
*Müdafiə Nazirliyinin məlumatı*

## Düşmənin 22 tankı, 15 zenit-raket kompleksi, silah anbarı məhv edilir

Qoşunlarımızın keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Ermənistan ordusuna məxsus silah-sursat anbarı məhv edilir.

Ordumuzun zərbələri nəticəsində anbarda baş verən partlayışlar nazirliyin yaydığı videoda aydın müşahidə olunur.

Əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qalır. Belə ki, düşmənin 22 ədəd tank və digər zirehli texnikası, 15 ədəd "OSA" zenit-raket kompleksi, 18 ədəd pilotsuz uçuş aparatı (PUA), 8 ədəd artilleriya qurğusu məhv edilib, ölən və yaralı olmaqla canlı qüvvə baxımından 550 nəfərdən artıq itkisi var. Müxtəlif istiqamətlərdə onun 3 silah-sursat anbarı məhv edilib.

Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri podpolkovnik Lernik Vardanyan məhv edilib, onun komandiri olduğu hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalıb.



Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospital və mülki xəstəxanalarda yer qıtlığı yaranıb, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur.

Ermənistan tərəfi hər zaman olduğu kimi, yenə də ordusundakı döyüş itkilərinin real sayını ictimaiyyətdən gizlədir.

***"Azərbaycan"***





# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# İlham ƏLİYEV: "Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatları həyata keçirir"

ZƏFƏR gündəliyi

28-29 sentyabr 2020-ci il



28 sentyabr



### Tərtər şəhəri atəşə tutuldu

Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər şəhəri atəşə tutulur.

Müdafiə Nazirliyinin rəhbərliyi qarşı tərəfi sonuncu dəfə xəbərdar edir ki, tərəfimizdən adekvat cavab tədbirləri görüləcək.

### Ölkəmizdə qismən səfərbərlik elan olundu

Prezident İlham Əliyev Azərbaycanda qismən səfərbərlik elan edilməsi ilə bağlı sərəncam imzalayır.



Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə tapşırılır ki, təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat məsələlərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

### Düşmənin onlarla zirehli texnikası sıradan çıxarıldı

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda ordumuzun apardığı əks-hücum əməliyyatları genişlənir. Düşmənin müqavimət göstərdiyi mövqelərə raket-artilleriya və aviasiya zərbələri endirilir.

Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizlənir, düşmən xeyli itki verir. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar zamanı düşmənin xeyli sayda hərbi texnikası məhv edilir:

- 24 ədəd tank və digər zirehli texnika;
- 15 ədəd "OSA" zenit-raket kompleksi;
- 18 ədəd pilotsuz uçuş aparatı (PUA);
- 8 ədəd artilleriya qurğusu;
- 3 silah-sursat anbarı.

### Erməni polkovnik-leytenantı məhv edildi

Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri, polkovnik-leytenant Lernik Vardanyan məhv edilir, onun tabeliyində olan hərbi hissənin şəxsi heyəti ağır itkilərə məruz qalır.

Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospitallarda və mülki xəstəxanalarda yer qıtlığı yaranır, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur.

Ermənistan tərəfi hər zaman olduğu kimi, yenə də ordusundakı döyüş itkilərinin real sayını ictimaiyyətdən gizlədir.

### İlham Əliyev Emmanuel Makrona həqiqətləri çatdırdı

Fransa Prezidenti Emmanuel Makron Prezident İlham Əliyevə zəng edir. E.Makron təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayır.

Amma İlham Əliyev fransalı həmkarının diqqətinə çatdırır ki, düşmən şüurlu şəkildə danışıqlar prosesini pozur və bu ölkənin rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı İlham Əliyev bildirir ki, Ermənistanın Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub, Azərbaycan Ordusu buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Bu səbəbdən də Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət bu ölkənin siyasi və hərbi rəhbərliyinin üzərinə düşür. Telefon söhbəti zamanı tərəflər diplomatik kanallar vasitəsilə təmasların həyata keçirilməsi barədə razılığa gəlirlər.

### Müdafiə Nazirliyi xarici ölkə səfirlərinə məlumat verdi

Müdafiə Nazirliyi tərəfindən Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların (BMT, Aİ, BQXK) ölkəmizdəki nümayəndələrinə Ermənistanın Azərbaycana qarşı təcavüzü, cəbhə xəttində yaranmış vəziyyət, qoşunlarımızın əks-tədbirləri və yaranmış əməliyyat şəraiti haqqında məlumat verilir.

Nümayəndələr düşmənin itkiləri, azad edilmiş ərazilər və yüksəkliklər, o cümlədən düşmənin təxribatları və dezinformasiya fəaliyyətləri haqqında ətraflı məlumatlandırılır.

### Ermənistan ordusunun 5-ci dağatıcı alayına zərbələr endirildi

Yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən artilleriya bölmələrinə zərbələr endirilir.

Artilleriyaçılarımızın sərrast atəşi nəticəsində ağır itkilərə məruz qalan düşmən bölmələri yerləşdiyi atəş mövqelərindən geri çəkilməyə məcbur edilir. Qeyd edək ki, həmin artilleriya bölmələri Ermənistan ordusunun 5-ci dağatıcı alayının tərkibində idilər.

### İlham Əliyevdən Antonio Quterreşə: "Münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır"

BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə onunla Prezident İlham Əliyev arasında videokonfrans formatında görüş olur.

Ali Baş Komandan Baş katibə Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribatla bağlı, hadisələrin gedişinə dair məlumat verərək qeyd edir ki, sentyabrın 27-də Ermənistan təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutub və bunun nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olublar. Azərbaycan tərəfi özünümüdafiə məqsədilə uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Prezident qeyd edir ki, Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllü dəstələri yaradıb.

Dövlət başçısı söhbət zamanı onu da xatırladır ki, Ermənistanın yeni müharibəyə hazırlaşmasını sentyabrın 24-də, müharibənin başlamasından 3 gün öncə BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışında diqqətə çatdırıb.

Söhbət zamanı İlham Əliyev bir daha vurğulayır ki, Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır.

***Cəbhənin bütün istiqamətlərində düşmən qüvvələrinə ağır zərbələr endirilir. Erməni əsgəri silahını, döyüş bayrağını ataraq qaçır. Azərbaycan Ordusunun Zəfər yürüşü davam edir.***

29 sentyabr

### Düşmənin artilleriya batareyası məhv edilib

Sentyabrın 28-dən 29-na keçən gecə bütün cəbhəboyu gərgin döyüşlər davam edib.



Ermənistan silahlı qüvvələri cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücum cəhdi göstərib.

Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri uğurla müdafiə olunaraq düşmənin bütün cəhdlərinin qarşısını alıb.

Gecə döyüşlərində cəbhənin Ağdərə istiqamətində düşmənin Madagizdən (Suqovuşan) hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətdə yerləşən qoşunlarımız tərəfindən məhv edilib.

Cəbhənin Füzuli-Cəbrayıl istiqamətində səhər saatlarında yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilib.

Gərgin döyüşlər davam edib. Düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur edilib.

### Daha 4 erməni tankı sıradan çıxarılıb

Səhər saatlarından etibarən Füzuli şəhərinin işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun hücumu davam edib.



Səhər saat 07:00-08:00 radələrində cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı qəhrəman əsgərlərimiz tərəfindən məhv edilib.

### Daşkəsən artilleriya atəşinə tutulub

Ermənistan növbəti provokasiyaya əl atıb. Səhər saat 07:30-dan etibarən Ermənistanın Vardenis rayonu ərazisindən Azərbaycanın Daşkəsən rayonunun ərazisi artilleriya atəşinə tutulub.

### Erməni hərbi hissəsinin komandiri məhv edilib

Bütün cəbhəboyu döyüşlər davam edir.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənə məxsus növbəti iki tank dəqiq atəşlə məhv edilib. Artilleriya bölmələrimiz düşmənə sarsıdıcı zərbələr endirib.

İşğal edilmiş ərazilərimizdə gedən döyüşlərə cəlb edilmiş Ermənistan ordusunun Eçmiədzin rayonunda dislokasiya olunan 61-ci əlahiddə mühəndis alayının 13516 saylı hərbi hissəsinin komandiri Spartak Koçaryan məhv edilib.

### İlham ƏLİYEV: "Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır"

Almaniya Kansleri Angela Merkel Prezident İlham Əliyevə telefonla zəng edib.



Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsi ilə bağlı ölkəsinin narahatlığını ifadə edən Angela Merkel hadisələrin gedişi ilə maraqlanıb.

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədib, ağır artilleriya qurğularından təmas xətti boyu yerləşən hərbi birləşmələrimizi, şəhər və kəndlərimizi atəşə tutub. Nəticədə iki gün ərzində hərbçilərimiz, 10 mülki şəxs, o cümlədən iki uşaq həlak olub, 29 mülki şəxs yaralanıb, 150 yaşayış evi dağıdılıb. Azərbaycan tərəfi əks-hücum əməliyyatına başlayıb.

İlham Əliyev vurğulayıb ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət bu ölkənin siyasi və hərbi rəhbərliyinin üzərinə düşür, Azərbaycan Ordusu öz torpaqlarında vuruşur və Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır.

### Mehriban ƏLİYEVA: "Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi azad edir"

"Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!"



Bu fikir Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstaqram" səhifəsindəki paylaşımında yer alıb. Paylaşımda daha sonra deyilir: "Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir".

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edən Mehriban xanım vurğulayıb ki, bu gün xalq niyyəti, hərəkət və duaları ilə misli görünməmiş birlik göstərir: "Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"

### Paşinyanın uydurmaları ifşa edildi



Rusiyanın "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan veriliş efirə gedib. Verilişdə Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan aparıcıların suallarını cavablandırıblar.

İlham Əliyev hər zaman olduğu kimi, yenə də qətiyyətli və prinsipial mövqeyini nümayiş etdirərək bildirib ki, artıq üçüncü gündür şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır.

Dövlətimizin başçısı Ermənistanın bu savaşda Türkiyənin iştirakı ilə bağlı uydurmalarına da aydınlıq gətirərək deyib ki, Türkiyə Azərbaycana yalnız mənəvi dəstək göstərir. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfinin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır. Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət də yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

Beynəlxalq ictimaiyyət qarşısında çıxış edərkən dəfələrlə rəzil duruma düşən Nikol Paşinyan növbəti dəfə də ənənəsini pozmadı. Verilişin aparıcılarının sualları qarşısında aciz qalan Ermənistanın baş naziri yenə də çıxışında heç bir fakta əsaslanmayan yalan və uydurmalar söylədi.

***"Azərbaycan"***

# Azərbaycan iqtisadiyyatının inkişaf prioritetləri çoxdur

## Prezident İlham ƏLİYEV: "Neft və qaz iqtisadiyyatımızda aparıcı rolunu qoruyacaq və əldə olunan gəlirlər yenidən iqtisadiyyata investisiya şəklində yönəldiləcək"

**Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 20 ildən artıq müddət ərzində ölkənin qazandığı uğurlar göz qabağındadır. Nailiyyətlərimizi bütün dünya görür. Bakıda keçirilən 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu bunu bir daha təsdiqlədi.**



Forum çərçivəsində "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal bağlantı və investisiya sabitliyinin dayağı kimi" mövzusunda tədbirdə dövlətimizin başçısı ilə söhbətdə moderatorun xatırlatdığı fakt və rəqəmlər də bunu göstərir. Belə ki, sözügedən dövrdə ÜDM 10 dəfə artaraq 7 milyarddan 76 milyarda yüksəlib. Adambaşına düşən ÜDM 8 dəfədən çox artaraq 900-dən 7500-ə yüksəlib. Yoxsulluq səviyyəsi 45 faizdən 5 faizə enib. Dövlət Neft Fondunun aktivləri 90 dəfə artaraq 840 milyon dollardan 75 milyard dollara yüksəlib.

İqtisadiyyat qeyri-neft-qaz sektorunun həcmini dörd dəfə yarım artırmaqla genişləndirilib. Nəticədə 2025-ci ildə qeyri-neft-qaz iqtisadiyyatı ÜDM-in 71 faizini təşkil edib. Eyni zamanda neft hasilatı azaldığı halda 2003-cü ildə 5 milyard kubmetr olan qaz hasilatı 2025-ci ildə 50 milyard kubmetrə qədər artıb.

Bu gün Azərbaycan 16 ölkəyə qaz ixrac edir. Bu aspektdə moderator Azərbaycanın artıq Avropa və Türkiyə üçün təbii qazın mühüm təchizatçısına çevrildiyini xatırladıb, bu məsələnin xüsusilə Ukraynadakı müharibə ilə əlaqədar son dərəcə böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Prezident İlham Əliyev indiyədək görülən işlərin gələcək inkişaf üçün ilkin şərt olduğunu bildirərək deyib: "Görülən işlər, sabit iqtisadiyyat və müstəqil maliyyə və iqtisadi sistem olmasaydı, bu gün gələcəkdən danışmaq çətin olardı. Beləliklə, bizim bu müsbət dinamikanı daha da inkişaf etdirməyimizə ehtiyac var. Biz iqtisadiyyatın müxtəlif sektorlarını təmsil edən bir çox aparıcı beynəlxalq şirkətin Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul etməsi faktını əldə rəhbər tutmalıyıq. Əlverişli investisiya mühiti sayəsində biz son 20 ildə 350 milyard ABŞ dollarından çox investisiya cəlb etmişik. Bunun yarısı birbaşa xarici investisiyalardır. Beləliklə, bütün bunlara əsaslanaraq, biz iqtisadi inkişafın ümumi tendensiyasına uyğunlaşmalı, uzunmüddətli və dayanıqlı artıma nail olmaq üçün neft-qaz sektorundan kənar sahələrdə olan potensialımızdan istifadə etməliyik".

Beləliklə, indi başlıca məsələ bütün bunlara əsaslanaraq iqtisadi inkişafın ümumi tendensiyasına uyğunlaşmaq, uzunmüddətli və dayanıqlı artıma nail olmaq üçün neft-qaz sektorundan kənar sahələrdə olan potensialdan istifadə etməkdir. Əsas prioritetlərin biri bərpaolunan enerjidir. Ölkəmizin bu sarıdan böyük potensialı var. Təkcə Xəzər dənizinin Azərbaycan sektorunda 157 giqavatlıq enerji potensialına malikik. Bundan əlavə, quruda günəş və külək elektrik stansiyaları artıq fəaliyyətdədir. Hədəf elektrik enerjisi istehsal etmək üçün təbii qaz istehlakını minimuma endirmək və həmin ehtiyatdan ixrac məqsədilə istifadə etməkdir. Qısası, qarşıdakı 5 il ərzində Azərbaycanın hər yerində bərpaolunan enerji mənbələri olacaq.

İqtisadiyyatın ikinci mühüm hərəkətverici qüvvəsi kimi logistika, nəqliyyat və bağlantılar qeyd olunub: "Biz fiziki infrastruktur yaradaraq, investorlar üçün daha anlaşılan biznes mühiti formalaşdıraraq və dənizə birbaşa çıxışı olmayan ölkə olduğumuza görə qonşularla birlikdə işləyərək bunun üzərində kifayət qədər uzun müddət çalışmışıq. Qonşular olmadan biz böyük tranzit ölkəsi ola bilmərik. Beləliklə, bu, xüsusilə bəzi ənənəvi təchizat zəncirlərinin müəyyən risklərlə üzləşdiyi hazırkı geosiyasi vəziyyəti nəzərə alsaq, əlavə stimullaşdırıcı amil ola bilər".

Böyük potensiala malik sahələrdən biri də təbii ki, mədənçilikdir. Təsadüfi deyil ki, bununla əlaqədar dövlət proqramı da qəbul edilib. Bu, geniş bir fəaliyyətə təkan verəcək dörd ili əhatə edən qısamüddətli bir proqramdır. Bununla belə, açıq-aşkar olan bir amil - neft və qaz unudulmayacaq. Çünki çox sayda müqavilələr imzalanıb. "Yəni neft və qaz iqtisadiyyatımızda aparıcı rolunu qoruyacaq və əldə olunan gəlirlər yenidən iqtisadiyyata investisiya şəklində yönəldiləcək", - deyə Prezidentimiz bildirib.

Məlum olduğu kimi, forum çərçivəsində bu istiqamətdə bir sıra yeni sənədlər də imzalanıb. Bunlardan biri "SOCAR, XRG və "TotalEnergies" şirkətləri arasında "Abşeron" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi üzrə Yekun İnvestisiya Qərarı"dır.

SOCAR eləcə də "ExxonMobil" şirkəti ilə Azərbaycan Respublikasının Orta Kür hövzəsi üzrə qeyri-ənənəvi karbohidrogen resurslarının kəşfiyyatı, işlənməsi və hasilatı üzrə Hasilatın Pay Bölgüsü Sazişi imzalayıb.

İmzalanan sənədlər arasında "SOCAR ilə İtaliyanın "Eni S.p.A." şirkəti arasında Kot-d'İvuar Respublikasında yerləşən "Baleine" neft-qaz yatağının işlənməsi layihəsində 10 faiz iştirak payının əldə olunması üzrə Əməliyyatın Tamamlanmasına dair Protokol" da var. Və bunlar mübadilə edilən sənədlərin yalnız bir hissəsidir. Qeyd edək ki, builki Bakı Enerji Həftəsində digər müqavilələr də imzalanıb.

Bütün bunlar Azərbaycanın investisiyalara açıq ölkə olduğunu bir daha sübut edir. Bunun səbəblərindən birini dövlətimizin başçısı belə xarakterizə edib: "Neft və qaz sektorunun inkişafına gətirib çıxaran, 30 il bundan əvvəl imzalanmış müqavilələrə hələ də heç toxunulmayıb. Heç bir söz də dəyişdirilməyib və bu da investorları cəlb etmək üçün amillərdən biri idi. Artıq bizim çox etibarlı tərəfdaş olduğumuza dair etibarlı portfelimiz var. Beləliklə, hətta biz müqavilə parametrlərinin bəziləri ilə 100 faiz qane olmasaq belə bu məsuliyyətin üstün tutulmalı olduğunu düşünürük".

Prezident İlham Əliyev həmçinin bəyan edib ki, neft və qaz hələ də ən cəlbedici investisiya sahələrindən biri kimi investisiyaların həcmi nöqteyi-nəzərindən ən böyük seqment olacaq. Bu, uzun müddət belə olacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Beynəlxalq tədbirlərin etibarlı ünvanı

## Ölkəmiz qlobal forumların və mötəbər idman yarışlarının əsas mərkəzinə çevrilib



**Azərbaycan regionun güc mərkəzi olmaqla yanaşı, özünü həm də mühüm qərarların qəbul edildiyi və qlobal dialoqun formalaşdığı etibarlı məkan kimi təsdiqləyib. Ölkəmizin strateji mövqeyi, daxili sabitliyi, zəngin resursları və müasir infrastrukturu Bakını beynəlxalq tədbirlərin, nüfuzlu forumların və idman yarışlarının daimi ünvanına çevirib. Paytaxtımızın eyni zaman kəsiyində həm idman dünyasının zirvəsi sayılan "Formula-1" Azərbaycan Qran-prisinin yubiley mərhələsinə, həm də 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumuna evsahibliyi etməsi dövlətimizin yüksək təşkilatçılıq qabiliyyətinin, beynəlxalq nüfuzunun və mühüm məsələlərə strateji baxışının növbəti təzahürüdür.**

Ölkəmizin təşkilatçılıq imkanlarının parlaq nümunəsi olan "Formula-1" Azərbaycan Qran-prisi artıq onuncu dəfədir ki, Bakı küçələrini dünya idmanının mərkəzinə çevirir. Qədim İçərişəhər divarlarının kölgəsində, müasir memarlıq incilərinin əhatəsində baş tutan yarış yüz milyonlarla qlobal izləyici auditoriyasına canlı yayımlanıb. Minlərlə xarici qonağın paytaxta gəlişi xidmət və turizm sektorunda böyük dinamika yaratmaqla yanaşı, "Euronews" kimi aparıcı media resurslarının hesabatlarında da vurğulandığı kimi, Azərbaycanın təhlükəsiz, modern, qonaqpərvər və dinamik inkişaf edən dövlət imicini beynəlxalq ictimaiyyətə bir daha nümayiş etdirib.

İdman təntənəsi ilə paralel olaraq, Prezident İlham Əliyevin himayəsi, İqtisadiyyat Nazirliyi və "The European House - Ambrosetti & TEHA Group"un tərəfdaşlığı ilə keçirilən 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu ölkəmizin iqtisadi diplomatiyadakı mərkəzi mövqeyini nümayiş etdirdi. "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal bağlantı və investisiya sabitliyinin dayağı kimi" devizi altında təşkil olunan bu mötəbər forum qlobal investorları, dövlət rəsmilərini, aparıcı beyin mərkəzlərini və beynəlxalq maliyyə institutlarını bir araya gətirdi.

Müzakirələrin yekunu olaraq süni intellekt, rəqəmsallaşma, bərpaolunan enerji, sənaye, kənd təsərrüfatı və infrastrukturu əhatə edən 10,8 milyard dollar dəyərində 23 strateji sənədin imzalanması qlobal kapitalın Azərbaycana olan sarsılmaz inamının bariz sübutudur. İyun ayında keçirilmiş Bakı Enerji Həftəsi ilə birlikdə planlaşdırılan birgə layihələrin həcminin 16,7 milyard dollara çatması ölkəmizin irimiqyaslı layihələrdə nə dərəcədə etibarlı və proqnozlaşdırılan tərəfdaş olduğunu göstərir.

Bu cür beynəlxalq forumların, diplomatik zirvə görüşlərinin və idman yarışlarının Azərbaycanda sistemli şəkildə təşkil edilməsi heç də təsadüfi deyil və dərin siyasi mənaları var. Müasir dövrdə qlobal arxitekturanın sarsıldığı, geosiyasi ziddiyyətlərin və parçalanmaların dərinləşdiyi bir dövrdə Azərbaycan regional və qlobal miqyasda sabitlik, etimad və barışıq adası rolunu oynayır. Ölkəmiz müstəqil və milli maraqlara söykənən xarici siyasət xətti ilə Şərqlə Qərb, Şimal ilə Cənub arasında təkcə logistik dəhlizi təmin etmir, eyni zamanda siyasi-diplomatik körpü yaradır.

COP29 kimi qlobal iqlim sammitinə evsahibliyi etməklə problemlərin həllində aparıcı rol oynayan Azərbaycan həm də Qoşulmama Hərəkatına uğurlu sədrlik təcrübəsi, Türk Dövlətləri Təşkilatındakı fəal mövqeyi və Mərkəzi Asiya regionu ilə dərinləşən inteqrasiyası ilə qlobal siyasətin əsas aktorlarından birinə çevrilib.

Bu qlobal təşəbbüslərin ölkəmizə faydaları da çoxşaxəli və uzunmüddətlidir. Siyasi müstəvidə Azərbaycanın beynəlxalq müstəqil nüfuzu yüksəlir, dövlətimizin suverenliyi və ərazi bütövlüyü şəraitində yaratdığı yeni regional reallıqlar dünya ictimaiyyəti tərəfindən qəbul edilir. Azərbaycan qlobal dialoqun məzmununu və istiqamətini müəyyənləşdirən aparıcı dövlət kimi qəbul olunur. İqtisadi müstəvidə isə cəlb olunan milyardlarla dollarlıq xarici sərmayə qeyri-neft iqtisadiyyatının sürətli şaxələnməsinə, yüksək texnologiyaların və innovasiyaların ölkəyə axınına, yeni iş yerlərinin yaradılmasına xidmət edir. Orta dəhlizin imkanlarının genişləndirilməsi və "yaşıl enerji" ilə bağlı təşəbbüslər Azərbaycana qlobal təchizat zəncirində və Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaş statusu qazandırır.

Nəticə etibarilə Bakının eyni vaxtda bir neçə nüfuzlu tədbirlərə uğurlu evsahibliyi Azərbaycanın qlobal arenadakı nüfuzunun, siyasi sabitliyinin və dinamik inkişafının əyani sübutudur. Ölkəmiz beynəlxalq tədbirlərin məkanı olmaqla yanaşı, beynəlxalq miqyasda etimadın və əməkdaşlığın önəmli mərkəzlərindən biri kimi mövqeyini daha da möhkəmləndirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

**Ötən həftənin iqtisadi icmalı**

# Gündəmdə enerji, investisiya və yeni inkişaf imkanlarıdır

**Ötən həftə Azərbaycanın iqtisadi gündəliyi müxtəlif sahələr üzrə yeni layihələr, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və iqtisadi göstəricilərdəki müsbət dinamika ilə yadda qalıb. Enerji və mədən sənayesindən nəqliyyat və rəqəmsal bağlantılara, kənd təsərrüfatından maliyyə və sığorta sektoruna qədər bir sıra istiqamətlərdə çox mühüm yeniliklər qeydə alınıb. Ölkənin regional və beynəlxalq iqtisadi əlaqələrinin genişləndirilməsi ilə bağlı yeni təşəbbüslər də həftənin diqqətçəkən mövzuları sırasında yer alıb.**



Sentyabrın 21-də "Gülüstan" sarayında "Əsrin müqaviləsi"nin 32-ci ildönümü və Neftçilər Günü münasibətilə tədbir keçirilib. Mərasimdə Azərbaycanın enerji strategiyasının yeni mərhələsi, "Əsrin müqaviləsi"nin 2050-ci ilədək uzadılması və AÇG layihəsinin yeni imkanları barədə danışılıb. SOCAR-ın prezidenti Rövşən Nəcəf şirkətin beynəlxalq fəaliyyətinin genişləndirilməsi istiqamətində görülən işlərə toxunaraq, "Italiana Petroli"nin səhmlərinin alınması və "Baleine" layihəsində iştirak payının əldə edilməsi, eləcə də Özbəkistanda yeni investisiya və kəşfiyyat layihələrinin həyata keçirilməsini bildirib.

❖ ❖ ❖

Həmin gün Bakıda "Azərkosmos"un təşkilatçılığı ilə Avropa Poçt və Telekommunikasiya Administrasiyaları Konfransının (CEPT) CPG PTB layihə komandasının növbəti görüşü keçirilib. Toplantıda 2027-ci il Ümumdünya Radiorabitə Konfransına hazırlıq, peyk rabitəsi və radiotezlik spektrindən səmərəli istifadəyə dair məsələlər müzakirə olunub.

Görüş Azərbaycanın beynəlxalq telekommunikasiya əməkdaşlığında fəal iştirakını da nümayiş etdirib. Qeyd edək ki, Azərbaycan 2027-2030-cu illər üçün Beynəlxalq Telekommunikasiya İttifaqının Şurasına, "Azərkosmos"un nümayəndəsi Sitarə Mehdiyeva isə Radio Tənzimləmə Şurasına üzvlüyə namizədliyini irəli sürüb.

❖ ❖ ❖

Həftə Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirə ilə diqqət çəkib. Tədbirdə çıxış edən dövlət başçısı dağ-mədən və metallurgiya sənayesinin inkişafının iqtisadiyyatın şaxələndirilməsi, yerli istehsalın artırılması və əlavə dəyər zəncirinin genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Müşavirədə mövcud potensialın daha səmərəli istifadəsi, yeni yataqların işlənməsi, müasir texnologiyaların tətbiqi və metallurgiya sənayesinin inkişafı ilə bağlı qarşıda duran əsas vəzifələr müzakirə olunub.

❖ ❖ ❖

Həftənin iqtisadi gündəliyində insan kapitalının inkişafı və gələcəyin əmək bazarına hazırlığı ilə bağlı təşəbbüslər də yer alıb. "Baku ID" festivalı çərçivəsində 4SİM-in təşkil etdiyi görüşdə süni intellekt və sürətli texnoloji dəyişikliklərin əmək bazarına təsiri, yeni bacarıqlara tələbat və ömürboyu öyrənmə məsələləri müzakirə olunub.

Bununla yanaşı, "PAŞA Holdinq", SOCAR və IE Universitetinin strateji tərəfdaşlığı ilə Bakıda Liderlik və İnnovasiya üzrə IE Mərkəzinin AZEMBA proqramına start verilib. Proqram rəqəmsal transformasiya, süni intellekt, innovasiya və müasir idarəetmə istiqamətlərində yerli peşəkarların bilik və liderlik bacarıqlarının inkişafına yönəlib. İlk iştirakçı qrupuna 850-dən çox müraciət arasından 40 nəfər qəbul olunub.

❖ ❖ ❖

Ötən həftə Azərbaycanın hüdudlarından kənarda baş verən iqtisadi hadisələr sırasında enerji tənzimlənməsi sahəsində beynəlxalq əməkdaşlıq da yer alıb. Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədri Samir Axundov Tiflisdə keçirilən IX Dünya Enerji Tənzimləmə Forumunda iştirak edib.

Forumda enerji keçidi və innovasiyalar, regional enerji bazarlarının inteqrasiyası, infrastruktur investisiyaları, şəbəkələrin çevikliyi və istehlakçı hüquqlarının qorunması kimi aktual məsələlər müzakirə olunub. Tədbir enerji tənzimləyiciləri arasında təcrübə mübadiləsi və yeni yanaşmaların müzakirəsi baxımından beynəlxalq platforma kimi yadda qalıb.

❖ ❖ ❖

Sentyabrın 25-də Prezident İlham Əliyev dünyanın aparıcı investisiya şirkətlərinin rəhbərləri ilə ayrı-ayrılıqda üç görüş keçirib. Görüşlərdə Azərbaycanla qlobal investisiya qurumları arasında əməkdaşlığın genişləndirilməsi, yeni investisiya imkanları və uzunmüddətli tərəfdaşlıq perspektivləri müzakirə olunub.

Dövlət başçısı "BlackRock"un tərkibində fəaliyyət göstərən "Global Infrastructure Partners"in təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesini qəbul edib. Görüşdə ARDNF, "BlackRock" və GIP arasında əməkdaşlıq, həmçinin fondun GIP ilə birlikdə İtaliyanın "Italo" yüksəksürətli qatar operatoruna və Londonun Qatvik hava limanına etdiyi investisiyalar müzakirə olunub. Rəqəmsal və nəqliyyat infrastrukturu üzrə yeni əməkdaşlıq imkanları da nəzərdən keçirilib.

"Brookfield Asset Management"in baş icraçı direktoru Konnor Teski ilə görüşdə enerji keçidi, bərpaolunan enerji, enerji saxlanc sistemləri və rəqəmsal infrastruktur sahələrində potensial layihələr ətrafında da fikir mübadiləsi aparılıb.

"Neuberger Berman"ın sədri və baş icraçı direktoru Corc Volkerlə görüşdə isə Azərbaycanla şirkət arasında 2016-cı ildən həyata keçirilən investisiya əməkdaşlığının nəticələri və yeni layihələrdə iştirak imkanları müzakirə olunub. Görüşdə qlobal investisiya bazarlarında yaranan imkanlar və uzunmüddətli tərəfdaşlığın genişləndirilməsi məsələlərinə də toxunulub.

❖ ❖ ❖

Həftənin son iqtisadi xəbəri isə Bakıda keçirilən 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu ilə bağlıdır. Prezident İlham Əliyevin himayəsi altında təşkil olunan forumun açılış mərasimində dövlət başçısının iştirakçılara müraciəti oxunub.

İqtisadiyyat Nazirliyi və "The European House - Ambrosetti & TEHA Group"un strateji tərəfdaşlığı ilə keçirilən ikigünlük forum "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal bağlantı və investisiya sabitliyinin dayağı kimi" mövzusuna həsr olunub. Tədbirdə əsasən qlobal iqtisadi və geosiyasi proseslərin investisiyalara təsiri, Azərbaycanın regional bağlantı imkanları və müxtəlif sahələrdə əməkdaşlıq perspektivləri müzakirə edilib.

Forum çərçivəsində Azərbaycan qurumları ilə xarici şirkət və tərəfdaşlar arasında yeni əməkdaşlıq sənədlərinin imzalanması və mübadiləsi həyata keçirilib.

❖ ❖ ❖

Arxada qoyduğumuz həftə Nyu Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 6,88 dollar artaraq 4270,3 dollar təşkil edib. Gümüş isə 0,14 dollar artaraq 63,68 dollara bərabər olub.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 11 iyul (Cümə günü) tarixli 222-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 12 şəvvalül-mükərrəm sənə 1337.
11 təmmuz 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 35 rublə,
2 aylığı 60 rublə, 3 aylığı 90 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə,
2 aylığı 70 rublə, 3 aylığı 100 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 5 rublə,
axırıncı səhifədə sətri 4 rublə,
itən şeylər və yer axtaranlar üçün 3 rublə.

### KİNOTEATR "RENESSANS"

*Torqovı küçə, nömrə 11*

Səşənbə günü iyul ayının 8-dən etibarən ictimai cinayət dra-ması

**"Qaranlıq dünya", yaxud ehtikar (spekulyatsiya) ilə mübarizə**

6 seriya, 18 dövr, 38 hissəli şəklin 1-ci seriyası 2 hissədə göstərilir. Bu şəkil Amerika igidləri Kordinq qardaşlarının "On beşlər klubu" ilə mübarizəsini təsvir edir. Bu şəkil səhmdaran "Prometey film" cəmiyyəti tərəfindən ələ gətirilib. Vücuda gətirəni isə "Janna d'Ark" şəklini vücuda gətirən Amerika tresti "Transatlantik"dir. Bu şəkil birinci dəfə olaraq "Renessans" teatrosunda göstəriləcəkdir.

*5422*

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**OPERA**

Zülfüqar bəy və Üzeyir bəy
qardaşlarının müdiriyyəti
Cümə günü, şəvvalül-mükərrəm ayının 12-də (iyul ayının 11-də 1919-cu [ildə]) mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Hacıbəyli qardaşlarının yazmış olduğu məşhur **"Leyli və Məcnun"** operası.
6 pərdədə. Pərdədən qabaq Zülfüqar bəy tərəfindən olan təzə milli şərqi "Xudam məni yaratdı" çalınıb oxunacaq. Biletlər indidən teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaq axşam
saat 9-un yarısında.

Taxtabitiləri, ağcaqanadları və sair həşəratı məhv etmək üçün ən yaxşı əlac Ş. N. Boriseviçin aptekarski mağazasında satılır. Ünvan: Voronsovski küçənin küncündə, Parapet qarşısında.

*5420*

### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Ticarət, Sənaət və Ərzaq Nəzarətindən**

*Əmrnamə nömrə 102*
24 iyun 1919

Ticarət, Sənaət [Sənaye] və Ərzaq Nəzarəti tərəfindən həmin sənə 15 may 91 nömrəli verilən əmrə əlavə olaraq bəyan olunur ki, ştatdan kənar edilənlər mayın 15-ə qədər xidmətdə olub, öz vəzifələrini ifa etdiklərindən məvacibləri də mayın 15-ə qədər verilməlidir.

*Əmrnamə nömrə 103*
25 iyun 1919

Bununla elan edilir ki, 1919 sənəsi iyunun 11-dən Azərbaycan Hökumətinin qətnaməsinə görə, başqa dövlətlər ilə mal mübadiləsindən ötrü Ticarət və Sənaət Nəzarəti nəzdində olan Komitə ləğv edilib, həman komitənin fəaliyyəti Ticarət, Sənaət və Ərzaq nazirinin şurasına vagüzar edilir [tapşırılır].

*Əmrnamə nömrə 104*
25 iyun 1919

Əcnəbi dövlətlərlə mal mübadiləsi sabiq Komitəsi müdiri mühəndis Balabəy Mustafabəyov 1919 sənəsi iyunun 12-dən Ticarət, Sənaət və Ərzaq Nəzarəti Dəftərxanasında Ticarət şöbəsi naçalniki vəzifəsini ifa etməyə təyin edilir.

*Əmrnamə nömrə 105*

Şura üzvü mühəndis-mexanik A. İ. Mançoya təklif edirəm ki, təhti-idarəmdə [tabeçiliyimdə] olan Nəzarət heyətinə daxil bütün xüsusiyyətinə müvafiq müəssisələri öz idarəsinə qəbul ilə həman şöbələrin məktubatını məzmununca nazir və ya nazir müavini imza etməsi lazım gəldiyi təqdirdə, özü imza etsin.

*Əmrnamə nömrə 106*
25 iyun 1919

Ticarət, Sənaət və Ərzaq Nəzarəti Dəftərxanasında Maliyyə şöbəsi kargüzarlığı vəzifəsini müvəqqəti ifa edən Pavel Qriqoryeviç Belyayev 1919 sənəsi mayın 1-dən həman vəzifəyə təsdiq edilir.

*Əmrnamə nömrə 107*
7 iyul 1919

Həmin sənəsi may ayının 15-dən 92 nömrəli verilən əmrə müvafiq olaraq ştat ixtisar edildiyinə görə, Gəncə quberniyası vəkili A. L. Brilinski, həmin iyunun 16-dan 91 nömrəli əmrdə göstərilən qərar üzrə likvidatsiyon paralarını almaqla xidmətdən kənar edilir.

*Əmrnamə nömrə 109*
7 iyul 1919

Həmin iyul ayının 1-dən etibarən hökumət mərmi zavodunun müavini müdiri mühəndis S. B. Utvinski xidmətindən kənar edilir.

*İmza etdi:*
*Ticarət, Sənaət və Ərzaq naziri*
*A[ğa] Əminov*
*Əslinə mütabiqdir.*
*Kargüzar müavini (imza)*

### AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**7 təmmuz iclası**
*(keçən nömrədən mabəd)*

Tənəffüsdən sonra Rəisi-vükəla [Baş nazir] həzrətləri növbədənxaric söz alır və Parlamana böylə bir təklif edirlər:

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbuslar! Məlumunuzdur ki, iyunun ibtidasında [əvvəlində] Qarabağda bəzi hadisat vaqe olmuşdur və bu vaqiə gərək mətbuat səhifələrində və gərəksə əhali arasında, gərək daxildə və gərəksə məmləkətimizin xaricində bir çox dedi-qoduya bais olaraq, bu məsələ ətrafında böyük gurultular qoparılmışdır. Həman işi təhqiq üçün komissiya tərtib verilmişdir və iş təhqiq olunur. Vaxtında hökumət bu xüsusda sizə məlumat verəcəkdir.

Yenə məlumunuzdur ki, hökumət məzkur [deyilən] məsələni məhəllində [yerində] təhqiq etmək üçün 4 məbusdan ibarət bir Parlaman heyəti təşkil edib Qarabağa göndərmişdi. Komissiya təhqiqat icra etmişdir. Fəqət hələ iş uzanır. Hazırda bu xüsusda bəyanat vermək mümkün olmayır. Bundan dolayı da təşviş çıxır. Binaənileyh [ona görə], heyətə daxil olan məbuslardan rica edərdim Qarabağ hadisatı haqqında sizə bir qədər məlumat versinlər ki, əfkari-ammə [ictimaiyyət] sakit olsun.

Məbusların fikri, rəyi bilindikdən sonra hökumət özünün bu barədə rəyi və məlumatı var, onu da sizə ərz edər. Hələlik münasib bilərdim məbus əfəndilər təhqiqat nəticələrindən sizə məlumat versinlər.

Təklif qəbul olunaraq heyət rəisi Qarabəyli Qara bəy kürsiyi-xitabətə çıxır və ümum məbusların anlamaq üçün məruzəsini rusca oxumağı lazım bilir.

Heyət – ikisi türk, ikisi erməni olmak üzrə 4 nəfərdən ibarətdir, fəqət bəzi təfərrüat və təfsilatda rəyləri bir olmadığından, Qara bəy ilə Şəfi bəy bir məruzə hazırlamışlardır, [Poqos] Çubaryan ilə [İsak Nikitiç] Xocayev digərini. Qara bəy rusca məruzədə bulunmaq istəyir. Şəfi bəyin etirazına baxmayaraq, Parlaman əksəriyyətiara [səs çoxluğu] ilə razı olur.

**Qarabəyli Qara bəy** (İttihad) - *(rusca danışır)* Möhtərəm məbuslar! Siz bilirsiniz ki, Qarabağ məsələsi böyük əhəmiyyəti haiz olduğundan [daşıdığından], Qarabağ xüsusi bir general-qubernatorluğa ayrılmışdır. Bu barədə İngilis Komandanlığı ilə də etilaf [razılıq] hasil edilərək, hətta general-qubernatorun şəxsi haqqında da razılıq əmələ gəlmişdi. Qarabağın halı nəhayət dərəcə qeyri-adi idi. Orada iki hökumət var idi. Qarabağın erməni əhalisi Azərbaycan Hökumətini istəməyirdi. İngilis Komandanlığı bəyan etmişdi ki, məsələ Sülh Konfransında həll edilənədək Qarabağ Azərbaycan Hökuməti təhtiidarəsində [tabeçiliyində], Naxçıvan, Şərur və sair İrəvan quberniyası qəzaları və həmçinin Qars oblastı erməni hökuməti təhtiidarəsində qalacaqdır. Fəqət, məzkur [deyilən] yerləri Ermənistan ixtiyarına verərək, İngilis Komandanlığı Qarabağ haqqında vermiş olduğu vədəyə bu vaxtadək əməl etmədi. Hətta Şuşa şəhərinin özündə general-qubernatorun sultası yalnız müsəlman hissəsinə şamil olub, erməni hissəsi isə Erməni Milli Şurası təhti-idarəsində qalmışdı. Böylə adətdən xaric işlər barəsində çox müzakirat icra edilmişdi. Hətta general-qubernator idarəsini qəbula mane olan Milli Şura əzasının [üzvlərinin] Şuşadan təb'idi [qovulması] haqqında İngiltərə Komandanlığı arasında etilaf əmələ gəlmişdi. Qabaqca onların dilindən kağız alınmışdı ki, böylə işlərə qarışmasınlar; fəqət bununla vəziyyət yaxşılaşmadı. Hətta general-qubernator hələ Zəngəzur və Qarabağın sair yerləri o yanda qalsın, barı Şuşa şəhərində qəbul olunacağını ümid edəmməzdi. Bir çox dəlillərdən görülür ki, general-qubernator bu məsələləri sülh ilə həll etməyə çalışmışdır. Fəqət göründü ki, bu tədbirləri heç kəs hüsn-istiqbal etməyir [xoş qarşılamır]. Biləks [əksinə], bir çox təcavüzkaranə hərəkətlər ibraz edildi [nümayiş etdirildi]. Yevlax-Şuşa şose yolu kənarında kain [yerləşən] dağlardakı kəndlərin erməniləri yolu güllələyib əhalini öldürür, arabaları soyur, atları aparırlardı. Hətta ordumuz ərkani-hərb [qərargah] rəisi general [Həbib] Səlimovu atəşə tutmuşlardır. Ümumiyyətlə, may ayınadək ermənilər ilə müsəlmanlar sülhlə dolanırmışlar. Mayın ibtidalarında ermənilər yola hücum edib 9 müsəlman aparmışlar, hətta bu vaxtadək meyitlərini belə verməmişlərdir. Mayın ortasında yenə 7 müsəlman ermənilər tərəfindən aparılaraq xəbərsiz qeyb olmuşdur.

Parlaman heyəti Şuşaya iyun ayının 16-da varid oldu [çatdı]. Yevlax-Şuşa yolunda və ətrafında tam müsalimət [əmin-amanlıq], asayiş və nizam hökmfərma idi [hökm sürürdü]. Ağdamda 10 nəfərədək erməni fəhləsi vardı. Biz onları danışdırdıq. Fəhlələr bəyan etdilər ki, burada heç bir təcavüz olmamış və gözlənməyir. Və kəndilərini tam amanda hiss edirlər. Yaxşı muzd alırlar və bu ətrafda yaşayan və işləyən ermənilərə qarşı müsəlmanların rəftarından çox razıdırlar. Pirumov adlı bir arvad Ağdamda casusluqda məznun [şübhəli] tutularaq tövqif [həbs] edilmiş imiş. Fəqət heyət onu azad edib özü ilə avtomobildə Şuşaya aparmışdır. Bu arvad dəxi təhriri [yazılı] surətdə iqrar və təkid etmişdir ki, hökumət və polis qulluqçuları onunla hüsnrəftar etmişlərdir, pristavlara, qəza qaimməqamına [qəza rəisinə] mütəşəkkirdir.

Şuşa-Yevlax yolu bu halda ikən, Şuşa-Gorus, Şuşa-Qarabulaq (Qaryagin) yolları tamamilə ermənilərin əlində olub bir müsəlman bu yollardan keçə bilməyirlərmiş. Müsəlmanlarla məskun yerlər mühasirədə olan kimi imişlər.

Mayın 27-dən etibarən köç başlanmışdır. Ağdamdan Şuşa və daha ötədə dağlaradək bütün yol mal-qoyun, at və sairə ilə dolur. Hər yeri oba tutur. Zəngəzurdan başqa ümum Qarabağ əhalisi köçür. Şəhərdə iki hökumət olur. Bir qisim əhali general-qubernatora, digər qismi Erməni Milli Şurasına tabe olmasına baxmayaraq, ingilis əsgərləri ilə müsəlman milisləri təhti-mühafizəsində [mühafizəsi altında] köç salamat keçirmiş.

İyunun əvvəllərinədək əhval böylə keçir. Müsəlmanlar çox narazı olmaqla bərabər, bu işlərə bir növ təhəmmül edirlərmiş [dözürmüşlər]. General-qubernator əmr etmişdir ki, heç kəs ermənilərə təcavüz edəmməz. Hətta ermənilər hücum etsələr də, müsəlmanlar gərək dinməsinlər.

Nəhayət, iyunun birində və ikisində (bəzi ermənilərin rəvayətinə görə) Şuşanın müsəlman hissəsində bir milis nəfəri bir erməninin tapançasını alır. Buna cavab olaraq Ermənistanda [şəhərin erməni hissəsində] ermənilər iki əsgəri tərksilah edərək birisinin atını, tüfəngini və tapançasını, digərinin də tüfəng və xəncərini alırlar. (Bunu ermənilər də, müsəlmanlar da etiraf edirlər.) Əsgərlərdən birisi onların əlindən qurtarıb müsəlmanıstana [şəhərin azərbaycanlılar yaşayan hissəsinə] qaçır və əhvalatı xəbər verir. General-qubernatorun ittixaz etdiyi [gördüyü] tədbirlər nəticəsində üç-dörd saatdan sonra ingilis heyəti vasitəsi ilə o biri əsgər dəxi azad edilir və silahları da tamamilə qaytarılmayır. Hətta qaytarılan silah həman adamlardan alınan silah deyildir. Erməni Milli Şurası demişdir ki, atı və silahı alan adamlar şəhərdən qaçmışlar. Ona görə Şura başqasını alıb verməyə məcbur olub. Bu əhvalat məhəlli [yerli] müsəlmanlar və əsgərlərə çox ağır gəlib, onları həyəcana salmışdır. Çünki məzkur [deyilən] hadisəni Azərbaycan Ordusu və əhalisi haqqında böyük həqarət tələqqi [hesab] edirlər.

Siz özünüz bilirsiniz ki, Bakıda Mart hadisəsinə bais Dikaya diviziya deyilən dəstənin adamlarına hücum edilməsi oldu. Mən bunu onun üçün deyirəm ki, böylə bir hadisəyə hərbiyyə idarəsi və camaatın nə nəzərlə baxacağını göstərəyim. Həman bu günlərdə də xəzinə ilə poçt-teleqraf idarəsi erməni hissəsindən şəhərin müsəlman hissəsinə köçürülür. Erməni hissəsində hökumət ümuru [işləri] Milli Şurada olmasına baxmayaraq, orada bəzi şeylər olurmuş. Məsələn, Ermənistana [Şuşanın erməni hissəsinə] müsəlləh [silahlı] erməni dəstələri və məsuliyyətsiz adamlar, ələlümdə kənardan gəlmələr gəlib-gedir. Milli Şuradan əlavə, bir də bandalar burada ciddi surətdə işləyir və ermənilər arasında dəhşət saçırlarmış.

Ruben Nikolayeviç Şahnazaryan və Minasbekovun göstərdiyindən məlum olur ki, həman bandalar Ermənistanda adamları soyur, erməni arvadlarını çəkir, təhqir edir və ermənilərə sair təcavüzlər edirmişlər. Əlbəttə, müsəlmanlar bunun həpsini bilərək həyəcan və iztiraba düşürmüşlər. Fəqət bununla bərabər, general-qubernator əhalini sakit və əsgərlərin tərksilah ixtilafını rəf edə [aradan qaldıra] bilmişdir.

Xəzinə ilə postanın müsəlmanıstana köçürülməsi münasibətilə hərçənd ermənilər təşvişə düşərək ingilis heyətinə qiymətli kağızlarının müqəddəratından qorxduqlarını bəyan etmişlərdir. Fəqət bu münasibətlə öylə bir ixtilaf vaqe olmamışdır.

Həman bu zamanlar şəhərdən köç getdiyindən, general-qubernator ətraflardan gəlib də özünü çox pis aparmaqda olan məsuliyyətsiz adamlar və bandaların təcavüzündən obanı və şəhəri təmin etmək qəsdi ilə mühüm yerdə – şəhərin başı üstündə hökmfərma olan Üçmıxda və Şuşa-Gorus yolunun ən mühüm qismi olan Yarmada mayın axırından etibarən əsgəri qarağol [gözətçi məntəqəsi, post] bulundurmağı təhti-qərara alır. Bunların vəzifəsi şəhərə müsəlləh adam buraxmamaq və elatın rahat keçməsini gözləmək imiş. Qarağolların miqdarı bir manqadan artıq deyilmiş. İyunun 2-də həman əsgər əhvalatından sonra iyunun 4-cü gecəsi general-qubernator binagüzarlıq etmişdir [sərəncam vermişdir] ki, şəhər üzərində hökmfərma olan [hakim mövqe tutan] Üçmıx səngərində qarağol artırılsın. (18 piyada və bir pulemyot ilə 9 pulemyotçu qoyulur.)

Ermənilər bu əhvalı bilərək, iyunun 4-ü səhər tezdən Üçmıxa Arzumanov nam [adlı] bir zabitin təhti-komandasında [komandanlığı altında] bir dəstə müsəlləh adam göndərmiş və onlar əsgərlərin səngərlərinin 50 addımlığında səngər tutaraq türk qarağolları komandanı zabit [Aleksey Pavloviç] Maksimoviçdən tələb etmişlər ki, səngəri boşaltsınlar və əsgərlər oradan getsinlər. Maksimoviç cavab vermişdir ki, müəyyən qanun və nizama tabe olan bir əsgər olmaq həsəbi [səbəbi] ilə öz böyüyündən əmr olmadıqca heç vaxt yerindən tərpənəmməz. Ancaq rəisi ilə bu barədə danışar, əgər rəis buyurarsa məəlməmnuniyyə [məmnuniyyətlə] gedər. Çünki ona əmr olmuşdur yolları mühafizə etsin və heç kəslə dava eyləməsin.

Maksimoviç müzakirata girişmək qəsdi ilə səngərdən çıxıb şəhərə gəlmiş və öz yerində müavini Kərimovu qoymuşdur. Ermənilər ikinci dəfə olaraq Kərimovdan da tələb etmişlər səngəri boşaltsın. Lakin o dəxi razı olmamışdır. Nəticədə səngərdə atışma başlanaraq türklərdən 4 əsgər, ermənilərdən isə zabit Arzumanov qətl edilmişdir.

Burada kim əvvəl güllə atdığını təyin edəmmədik. Ermənilər deyirlər qabaqca türklər atışma açdılar, türklər isə əvvəlcə ermənilərin güllə atdığını bəyan edirlər. Atışma buradan şəhərin sair yerlərinə də yayılıb, bir anda şəhər atəş altında qalmışdır. Şəhərin türk əhalisi dərhal tüfənglərini götürüb 1905-ci ildən bəri adət olduğu üzrə səngərlərə dolmuşlardır.

Bunu da qeyd etməliyəm ki, 1905-ci ildə vüqu bulmuş olan erməni-türk toqquşmasından bəri ermənistanla müsəlmanıstan sərhədi arasında səngərlər qayırılmışdır. Bir şey olan kimi türklər öz səngərlərinə dolurlar, ermənilər də öz səngərlərinə. Bu surətlə atışma başlandıqda türklər hər kəs tüfəngini götürüb müəyyən səngərə getmiş, ermənilər də öz səngərlərinə doluşmuşlardır. Üçmıx səngərinə sabiq polismeyster Məhərrəmzadənin komandası altında 10-15 nəfər polis və süvaridən ibarət xırda bir imdadiyyə dəxi göndərilmişdir. General-qubernator ümum polis nəfəratına və qoşuna şifahən və yazılı əmrnamələr vasitəsilə hökm etmişdir ki, güllə atmasınlar.

Ayın 4-də tamam gün atışma davam etmişdir. Yarmadakı qarağol dəstəsi ilə şəhərin əlaqəsi bilmərrə kəsilmiş imiş və ona kömək göndərmək heç vəchlə mümkün deyildi. Ermənilər yepiskop (keşiş) Vağana müraciətlə təvəqqe etmişlər ki, ingilis nümayəndəliyinə müraciət edərək, atışmanın yatırılması haqqında tədbirlər ittixazını [görülməsini] rica etsin. Mayor bu xüsusda general-qubernatora müraciətdə bulunmuşdur. General-qubernator bunun cavabında İngiltərə Komandanlığından tələb etmişdir ki, Azərbaycan əsgərlərinə təcavüz edilməsi və hökumətə tabe olunmamasına bais olan Milli Şura əzası [üzvləri] şəhərdən təbid edilsin [uzaqlaşdırılsın]. Mayor erməni əhalisinə cavab vermişdir ki, atışma sakit olacaqdır və general-qubernator əsgərlərə bu atışmada iştirak etməyə izin verməyir. Fəqət davanın yatırılması üçün lazımdır ki, İngiltərə Komandanlığı da öz vədinə əməl edərək Milli Şura əzasını şəhərdən çıxartsın.

Ayın 5-də səhər saat 9 radələrində ermənilər Milli Şura əzasından üç nəfərini təslim edərək bildirmişlər ki, yerdə qalanları şəhərdən qaçmışlardır. Bundan sonra atışma sakit olub, ancaq hər iki tərəfdən hərdəm bir tək-tək güllə atılırmış.

Hələ ayın 4-də atışma başlanar-başlanmaz general-qubernator türklərə əmr etmişdir ki, ermənilər güllə atsalar da onlar cavab verməsinlər. Atışmanın dayandırılması uğrunda general-qubernator, tabor komandanı və zabit Ştall tərəfindən hər növ tədbirlər görülmüşdür. Bu zaman yolda olan köçərilər dərhal geri qayıdaraq türk əhalisi mühafizəsinə sığınmışlardır. Fəqət bununla bərabər, onlardan beş külfət bütün şeyləri, qoyun və malları ilə ermənilərin əlinə düşmüşdür. İki arvad öldürülüb meyiti həman oradaca qalmış, yerdə qalanları isə qeyb olmuşdur. Erməni əlinə düşmüş qoyunlardan bir neçəsi bir ingilis avtomobilində tutulmuşdur. İngilis Komandanlığı qoyunları geri verərək üzr istəmişdir ki, onları satın almışdır. Türklərin rəvayətinə görə, bu atışmada ermənilərdən və türklərdən tələfat olmamışdır. Atışma vaxtı müsəlmanıstanda qalmış olan erməniləri buraxmışlardır. Ermənilər də oradakı müsəlmanları buraxmışlar.

Qəribə burasıdır ki, iyunun 4-də səhər ertə türklərin heç şeydən xəbəri olmayaraq öz uşaqlarını şəhərin qırağında, ermənistanın [şəhərin erməni hissəsinin] başında olan Realnı məktəbinə buraxmışlardır. Həman gün türk alış-verişçiləri də ermənistana getmişlərmiş. Məsələn, erməni ilə şərikli dükanı olan Kərbəlayı Qasım Qulu oğlu nam [adlı] bir şəxs səhər gedir ermənistana. Atışmadan bir saat qabaq şəriki olan Akop nam bir erməni şərikli puldan ona 1000 manat verərək demişdir ki, get müsəlmanıstana, çünki burada həyəcan var. Dükanlar bağlanıb və bir şey gözlənilir. Ermənilər isə deyirlər ki, müsəlmanıstanda 18-ədək erməni tələf olmuşdur. Bu barədə heyət general-qubernatordan sormuş və cavab almışdır ki, həman iş təhqiq edilmişdir və məlum olmuşdur ki, nə yerdə erməni işləyirmişsə sağ-salamat buraxmışlardır. Sonra nə olmuşsa bilməyir.

*(mabədi var)*

### TELEQRAF XƏBƏRLƏRİ

*Bolşeviklərin məlumati-rəsmiyyəsi*

Şərq cəbhəsində - Bizim qitəatın [hərbi hissələrin] yürüşü davam edir. Kunqur dəmiryolunun böyük hissəsi tərəfimizdən işğal edilmişdir. Ərzaq və ləvazimi-hərbiyyə [hərbi ləvazimat] ilə yüklü olan 3 qatar tərəfimizdən işğal edilmişdir.

Oxansk dairəsində düşmənlərin iki dəstəsi tərəfimizə keçmişdir. Bunlar bütün silah və obozlarını da [nəqliyyat vasitələrini də] təslim etmişlərdir.

Olonets səmtində biz müvəffəqiyyətli surətdə irəliləyiriz.

Qərb cəbhəsində - Petrozavodsk səmtində bizim qoşunlar Yaza kəndini işğal etmişlərdir. Bu yer Petrozavodskun 10 verstliyindədir.

Narva cəbhəsində bizim hissələr Yamburq şosesində bir qədər irəliləmişlərdir.

Pskov səmtində bizim hücum edən hissələrimiz müharibə ilə Keb nəhrini keçdilər. Bu nəhr Pskovun 20 verstliyindədir.

Molodeçno dairəsində bizim hissələr düşmənlərin təzyiqi altında Molodeçnonu tərk etmişlərdir.

Luninetsk dairəsində, Minsk səmtində müharibə ilə biz Valkini tərk eylədik. Jmerinka mövqifinin [stansiyasının] 3 verstliyində zirehli qatarların müharibəsi davam edirdi. Cənub tərəfdə bizim hissələr Staromayorska çəkilmişlərdir.

Cənub cəbhəsində - Melitopol səmtində Malaya Belozyorka yaxınlığında düşmənlərin həmləsi dəf edilmişdir.

Konstantinoqrad səmtində bizim qoşunlar Lannaya mövqifini işğal etmişlərdir.

Xarkov tərəfində bizim hissələr Valki şəhərini işğal etməyə çalışırlar. Belqorod səmtində düşmənlərin təzyiqi ilə bizim hissələr Buynı mövqifi[ni] tərk etdilər.

Valvisk səmtində Novı Oskolun 10 verstliyində hissələrimiz müharibə edirlər.

Voronej dairəsində müharibə gedir.

Borisoqlebsk dairəsində düşmənlərin təzyiqi ilə Borisoqlebski tərk etmişlər.

Şərq cəbhəsində Puqaçyov səmtində Miloradovka tərəfimizdən işğal edilmişdir.

Ufa dairəsində bizim qoşunlar Ural mövqifi xəttinə çəkilmişlərdir.

Kiyev - N. ordusunun məlumati-rəsmiyyəsi. Radivilov səmtində bizim hissələr Brodı üzərinə yürüşə keçmişlərdir. Starokonstantinovun cənub-qərb tərəfində bizim yürüşümüz davam edir. Nikolayevin 5 verstliyində vaqe Pisarevka tərəfimizdən işğal edilmişdir. Tərəfimizdən işğal edilən Kobılina üzərinə düşmənlər yürüş edib bir qədər bizi sıxışdırmışlardır. Yerli əhalinin sözünə görə, Prosqorovu düşmənlər təxliyə edirlər. Kamenets-Podolski səmtində sakitlikdir.

Odessanın 40 verstliyində düşmənlər hücuma keçmək istəmişlərsə də, lakin bizim atışımızla geriyə püskürdülmüşlərdir.

Xarkov səmtində üç günlük müharibədən sonra İskrovski yanında süngü ilə bizim hissələr düşmənləri məğlub edib Bakli səmtinə onları təqib edirlər.

Konstantinoqrad səmtində bizim hissələr Karlovka dairəsində düşmənləri səngərlərindən çıxararaq onları təqib edirlər.

Jeloçen səmtində düşmənlər Yuzovka [Donetsk] üzərinə hücum edib bizim hissələri Novoqriqorovka mövqifindən çıxarmışlardır. Bir çox cəbhələrdə əhval bizim üçün yaxşılaşır.

Şura qoşunları dabrovollar əleyhinə yürüşə keçmişdir. Yürüş üç yerdən başlamışdır. Poltava-Xarkov səmtində qoşunlarımız Lyubotin üzərinə yürüş edirlər. Poltava ilə Konstantinoqrad arasında bizim hissələr bir günlük müharibədən sonra bir çox kəndləri və düşmənin möhkəm səngərlərini işğal edib düşmənləri cənub tərəfə qovurlar.

Dabravollar ricət edərkən [geri çəkilərkən] kəndləri yandırırlar. Şura süvarisi ricət edən Denikin qoşunlarını təqib edirlər. Şura kəşifçiləri Konstantinoqrada yaxınlaşmışlardır.

Boqodux[ov] səmtində hakəza [habelə] Şura qoşunları yürüşə başlamışlardır.

Ufa - Bolşevik qoşunları tərəfindən Krasnoufimsk işğal edilmişdir.

Saratov - Nikolayevsk bolşevik qoşunları tərəfindən işğal edilmişdir.

### SÜLH ƏTRAFINDA

Beşlər Şurası zənn edildiyinə görə, bu gün gündüz Tuna və Ermənistan məsələsini qurtaracaqdır. Bu məsələlər dəfəatla Şurada müzakirə edilmişdir. Gələn həftənin başından isə Şura Adriatik məsələsi müzakirəsinə keçəcəkdir.

Hələlik qeyri-rəsmi xəbərlər var ki, guya İtaliyanın vəziyyəti müşküldür. Deyirlər ki, Amerika nümayəndələri fransız və ingilis nümayəndələri ilə birlikdə iş açmaq istəyirlər. İtalyanlar razılığa hazırdırlar. Hərgah, maneə çıxmazsa əğləbi-ehtimala [qüvvətli ehtimala] görə razılıq əmələ gələcəkdir. Tainki, tezliklə Avstriya ilə də sülh əqdi mümkün olsun. O zaman Yaxın Şərq, Bolqariya, Türkiyə və bolşevik məsələlərini həll etmək üçün Konfransın vaxtı olacaqdır.

- Xəbər verilir ki, Çin mürəxxəsləri [nümayəndələri] Avstriya ilə əqd ediləcək [bağlanılacaq] Sülh müahidənaməsini imzalamağa hökumətlərindən əmr almışlardır.

- Romanya rəisi-vükəlasının Parisdən getməsinə Müttəfiqlər təəssüf edirlər. Balkan məsələsinə əhəmiyyət vermədiyi ilə Sülh Konfransını təqsirləndirirlər.

### QƏZETƏLƏRDƏN

**Parisdə tətil**

Parisdən xəbər verirlər ki, əhval fənalaşmışdır. Tətil edənlərin miqdarı 350 minə varmışdır. Yeraltında olan dəmir-yolların əksəri işləməyir. Tramvay həmçinin dayanmışdır. Tətil edənlər məvaciblərinin azalmaması ilə iş vaxtının 8 saat olmasını tələb edirlər.

**Süveyşdə tətil**

Harmsvort izhar etmişdir ki, Süveyş kanalı kompaniyası müdirlərinin verdikləri xəbərə görə, tətilçilər tərəfindən qaldırılan məsələ teleqrafən Paris ilə müzakirə edilir. Saziş hüsula gələcəyini təsəvvür etmək olar. Tətil siyasi ruhdadır. İngiltərə məmurlarının müdaxiləsi ancaq asayişi saxlamaqdan ibarət olmuşdur.

**Çörçillin bəyanatı**

Avamlar Kamerasında [Donald] Maklin nazir haqqında etdiyi müzakirat barəsində, həmçinin Arxangelsk və Murman cəbhələrindən başqa ingilislərin və Müttəfiqlərin Rusiyadakı əsgəri siyasətindən mübahisə açıb demişdir ki, müəyyən edilməmiş müdaxilə siyasətini davam etdirmək bizim tərəfimizdən böyük səhvdir.

Çörçill təklif etmişdir ki, sülh müzakiratının və sənədlərin elan edilməsi məsələsi baxılmaq üçün nümayəndələrə vagüzar edilsin [tapşırılsın].

Çörçill Rusiyadan bəhs edib demişdir ki:

*"Biz çalışırıq ki, Rusiya şimalındakı işlərimizi qurtaraq. Ümidimiz var ki, yayın axırına qədər Şimali Rusiya o qədər qüvvətli olar ki, artıq bizim köməyimizə ehtiyacı olmaz. Biz də vəzifəmizi ifa etmiş olub, əsgərlərimizi geri çağırarıq. Qafqaziyada olan əsgərlərimiz düşməndən yüzlərcə verst məsafədədir. Qafqaziyanın gələcəyi həll edilənə qədər əsgərlərimiz orada qalacaqlardır.*

*Sibiryada bizim ancaq iki batalyonumuz var. Bunlar da cəbhədən uzaqdadırlar. Onlar Sibirya hökuməti paytaxtı Omsk şəhərindədirlər. Bununla da biz öz hüsn-təvəccöhümüzü Omsk Hökumətinə izhar ediriz."*

Sonra Çörçill izhar etmişdir ki:

*"Kolçakın hücumuna çox ümidvar olmaq olmaz. Kolçakın dəstəsi cənub tərəfdə geri çəkilmişdir. Lakin cəbhə böyük olub qüvvə az olduqda hücuma və geri çəkilməyə o qədər əhəmiyyət vermək lazım deyildir."*

Çörçill qəzetələrin verdikləri xəbərləri təkzib etmişdir:

*"Guya Kolçak bu yaxın vaxtda Moskvanı alacaqdır. Kolçak bir neçə yüz mil şəhərin məsafəsindədir. Biz Kolçaka əsgər göndərməyib, ancaq ona mühimmati-hərbiyyə və silah çatdırmışıq."*

Çörçill demişdir ki:

*"Omsk Hökumətinə pul ilə kömək edilmişdir. Biz bu hökumətə müavinət göstərməyi özümüzə vəzifəədd [hesab] edirik. Çünki qismən bu hökumət bizim tərəfimizdən vücuda gətirilmişdir. Biz polyakların əməliyyatına onunçün maraq edirik, bəlkə onların müvəffəqiyyəti əsgərlərimizi Rusiya şimalından geri çağırmağa kömək etsin.*

*Mütarikə elanından indiyə qədər Rusiyada bizim tələfatımız bu cür olmuşdur: 13 zabit və 14 əsgər ölmüşdür, 14 zabit və 152 saldat yaralanmışdır, 2 zabit və 26 saldat xəbərsiz itmişdir."*

Çörçill az miqdarda olan qurbanlar ilə İngiltərə qüvvəsinin azalması rəyinə rişxənd etmişdir:

*"Belə görünür ki, bizim əməliyyatımız polisə işi kimidir."*

Çörçill Rusiyada olan əməliyyat məxaricinin Yevropa müharibəsi ilə əlaqədar olduğunu isbat ilə demişdir ki:

*"Denikinə çatdırılan silahın və mühimmati-hərbiyyənin qiyməti 20 milyon ingilis lirəsindən artıq deyildir. Çünki müharibə qurtardığından onların qiyməti xeyli aşağı düşmüşdür. Əqd edilən etilafnaməyə [razılığa] görə, Rusiya Hökuməti bu məbləği verməlidir. Hal-hazırda Rusiya siyasəti bir tək İngiltərə siyasətindən ibarət olmayıb, Müttəfiqlərin və qeyri dövlətlərin siyasətindən ibarətdir. Onlar hamısı vaxtla Rusiya işlərini təqib edirlər."*

**Müttəfiq heyətinin məlumati-rəsmiyyəsi**

- Kolçak Hökuməti namından və general Denikin tərəfindən göndərilmiş olan heyəti-mürəxxəsə [nümayəndə heyəti] Parisə varid olmuşdur [çatmışdır].

- Sülh Konfransının sədri Klemanso bəyan eyləmişdir ki, Türkiyə və Bolqariya məsələlərinin həlli daha 6 ay çəkəcəkdir.

- İngiltərənin Təchizat naziri bəyan edir ki, Almaniya ilə mütarikə əqd edildiyi zaman İngiltərənin iki milyon top güləsi varmış. Müharibədən əvvəl ingilis ordusunun 456 topu var ikən, müharibə zamanında topların ədədi 26430-a qalxmışdır.

- General Ayronsayd xəbər verir ki, Şimali Rusiyada Dabravol ordusu Onej [Oneqa] gölü yanında Kanderbaş monastırını işğal etmişlərdir.

- Bauer və rəisi-vükəla Erzberqer Almaniya kabinəsini təşkil edirlər.

- Xəbər verildiyinə görə, Krım bolşeviklərdən təmizlənmişdir.

- General Denikin tərəfindən, Kolçak Hökuməti namından Parisə göndərilmiş olan heyəti-mürəxxəsə Parisə varid olmuşdur.

### NƏZARƏTLƏRDƏ
### [NAZIRLIKLƏRDƏ]

Gədəbəy zavodu fəhlələri ilə müdiriyyət əlaqəsi ilə məhəllində [yerində] tanış olmaq üçün işbu günlərdə Məsai Nəzarəti [Əmək Nazirliyi] katibi Kazımzadə cənabları oraya göndərilmişdi. Bu gün Kazımzadədən böylə bir teleqram alınmışdır:

*"Gədəbəy zavoduna gəldik. İşlər qayda üzrə gedir. Fəhlələrlə müdiriyyət miyanındakı [arasındakı] ixtilafı təhqiq etdik. Onların arasında etilaf [razılıq] əmələ gətirilmişdir. Ehtimal edilir ki, ixtilaf bərtərəf olacaqdır [aradan qaldırılacaqdır].*

*Kazımzadə."*

**Bakıdakı İngiltərə qüvayi-əsgəriyyəsi [ordusu] komandanı həzrətlərinə!**

İyulun 7-dən 1036 nömrəli Müttəfiq Komandanlıq tərəfindən qət edildiyi [qərarlaşdırılan] demarkasyon xəttinin [demarkasiya xəttinin, atəşkəs yaxud sülh bağlayan iki ordunu bir-birindən ayıran xəttin] pozulması haqqındakı təliqənizə [rəsmi məktubunuza] cavabən təkrarən məlum ediriz ki, Azərbaycan Cümhuriyyəti Hökuməti 3 iyun 1891 nömrəli etirazına əlavə olaraq inanır ki, Britaniya Hökumətinin qərardadını əmələ gətirməyə ixtilaf çıxmamasından ötrü general Denikini var qüvvəsilə məcbur edəcəkdir.

*Xariciyyə naziri: imza*

**Tiflisdən iyulun 8-də alınan teleqram**

Erməni Hökumətinin fəaliyyəti başlanmışdır. Naxçıvan və Şərurda bir çox həbslər icra edilmişdir. Naxçıvandan məşhur Mirzəəli bəy Bektaşov, Hüseynağa Novruzov, Cəfər bəy İrəvanski, Teymur Həsən Kazımov təqsirlərini elam etmədən [bildirmədən] Aleksandropola aparılmışlardır. Rica ediriz ki, iki qonşu millətin səlaməti üçün azad edilmələri üçün lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

*Əli Səbri*

**İyulun 8-də Tiflisdən alınan teleqram**

Bakı, Xariciyyə nazirinə

Şimdicə gəlmişlərin dediklərinə görə, Vedibasar dairəsindəki erməni cəza dəstələrinin dəhşəti davam edir. Müharibə davam edir. Vaqonlardan müsəlmanların çıxarılıb aparılmaları kimi hadisat olmuşdur. Məsələn, Qəmərli mövqifində [stansiyasında] 4 nəfər müsəlman aparılmışdır ki, başlarına nə gəldiyi məlum deyildir. Xalqın həyəcanı və vicdan məsələnin təhqiq və önünü almaq üçün tədabir ittixazını tələb edir.

*Əli Səbri*

**Dağıstanın müvəqqət hakimi həzrətlərinə**

İşbu iyunun 30/17-sindən 1715 nömrəli kağızınızla Tersk və Dağıstan nahiyələri Baş Komandanı general Erdelinin əmrinə məbni [əsasən], mənə Azərbaycan Cümhuriyyətinin siyasi nümayəndəsi olduğum üçün Teymurxanşura daxilində qala bilməyəcəyimdən naşi [ötrü] çıxmamı təklif etmisiz.

Həzrətlərinizə məlum olduğu üzrə, 1918-ci sənənin 26 mayısında Zaqafqaziya Hökuməti ləğv edilərək bir qaç dövlət, o cümlədən Azərbaycan Cümhuriyyəti vücuda gəlmişdir. Hər yerdən qovulmuş rus ziyalıları Azərbaycanda kəndilərinə bir məlcə [sığınacaq] bularaq yaşayırlar. Hal-hazırda 10 minlərlə ruslar – ziyalı, fəhlə, kəndçilər Azərbaycanda yaşayaraq, vətəndaşlar kimi həyat sürürlər. Rus Milli Komitəsi bütün rusları təmsil edərək, hətta hökumətdə belə iştirak edirlər. Məsələn, [Viktor Viktoroviç] Klenevski.

Öylə görükürdü Dabravol ordusu olan yerlərdə Azərbaycanın nümayəndəsi ola bilərmiş. Binaənileyh [ona görə], general Erdelinin mənim Teymurxanşurada qalmama zidd getməsini mən bir növ anlamayıram. General Erdelinin ordusu işğal etdiyi dairədə kəndisi istədiyi kimi çalışacağını qəbul edərək rica edərdim ki, Yalama mövqifinədək məni və ailəmi aparmaq üçün mənə bir vaqon verilsin. Vaqonun qaytarılacağını öz öhdəmə götürürəm.

*Azərbaycan siyasi nümayəndəsi:*
*[Əbdürrəhim bəy] Haqverdiyev*

**Petrovskdakı Müttəfiq Komandanlıq nümayəndəsinə**

Bununla təqdim edilən Zaqafqaziyadakı Britaniya qüvayi-əsgəriyyəsi [hərbi qüvvələri] Baş Komandanı general Korinin təliqəsindən [rəsmi məktubundan] göründüyü üzrə, Qafqaziya ştatları ilə və general Denikin miyanında demarkasyon xəttini [demarkasiya xəttini, atəşkəs yaxud sülh bağlayan iki ordunu bir-birindən ayıran xətti] riayətən [gözləmək üçün] general Denikin Dağıstanı təxliyə etməlidir.

Yenə pişnihad [təqdim] edilən Dağıstanın müvəqqət hakiminin 30/17 iyun 1715 nömrəli kağızında general Erdelinin əmrinə görə, mənə Dağıstandan çıxmaq təklif edilir. Şimdi mən də bilməyirəm general Erdelininmi qətnaməsinə və yaxud Britaniya Hökuməti əmrinə itaət edəyim. Rica edirəm, kəndiniz məsələni vazeh [aşkar] ediniz. Mənim səmimiyyətimi qəbul ediniz, əfəndim.

*Azərbaycan Cümhuriyyəti*
*siyasi nümayəndəsi:*
*[Əbdürrəhim bəy] Haqverdiyev*

### DAĞISTANDA

Dağıstan Müvəqqəti Hökuməti rəisi general [Mikayıl Maqomedoviç] Xəlilov "Dağıstan" qəzetəsində böylə bir elan dərc etdirmişdir:

Eşidirəm ki, Azərbaycan və gürcü hökumətləri və sairə məni müqəssir görürlər və məni xaini-millət ədd [hesab] edirlər. Binaənileyh [ona görə], elan etmək istəyirəm ki, gürcü hökuməti və sairənin indində [nəzdində] mən məsul deyiləm. Onların indində bəraət qazanmaq mənə heç bir vəchlə vacib deyildir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 11 iyul (Cümə günü) tarixli 222-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Mən ancaq, əvvəla Cənabi-Haqqın, saniyən [ikincisi] kəndi vicdanımın, salisən [üçüncüsü] Dağıstan millətinin indində məsulam.

Fəqət Azərbaycan əhalisinin ehtiramı və qüdsiyyəti mənim indimdə çox olmaq həsabi [səbəbi] ilə, onların indində dəxi kəndimi məsul hesab edirəm.

Cənabi-Haqq niyyətimi bilir. Kəndisi həqqaniyyətlə [ədalətlə] hökm edəcəkdir. Vicdanım dəxi heç bir vəchlə mütəəssir deyildir. Çünki yapdığım və yapmadığım şeyləri kəndim eyi bilirəm.

Millətə dəxi ənsəmimül-qəlb [səmimi qəlbdən] böylə cavab verirəm:

Əski hökumət istefa verdikdən sonra bir qaç dəfə məndən sadir olan ədəmi-qəbula rəğmən [razılıq verməmdiyimi bildirdiyimə baxmayaraq], 14-cü mayda Məclisi-Məbusan tərəfindən mən Hökumət rəisliyinə intixab edildim [seçildim]. Əvət, intixab edildim. Fəqət öylə bir zamanda intixab edildim ki, hökumət kassası paradan bomboş idi. Qüvveyi-əsgəriyyə az idi. Əhalidə itaət yox idi. Anarşizma bütün Dağıstanı istila etmişdi. Bütün ziyalılar məyusiyyətə qərq olmuşdular. Kabinədə əza [üzv] olmağa cəsarət edən heç kimsə yox idi. Evimizin bütün divarları münhədim olmuşdu [dağılmışdı].

Kabinəni təşkil etməklə məşğul vaxtda bolşeviklərin təşviqatı ilə bir taqım avam əhali Teymurxanşuraya hücum etməyə başladılar. Fəqət əsgərimizin səy və ictihadı [cidd-cəhdlə çalışması] ilə bilazərər [zərərsiz bir halda] onlar şəhərə daxil olmadan tərd edildilər [qovuldular].

Bu işin mənşəyini təhqiq və təftiş edib külliyyən böylə işlər olmamaq üçün adamların məqsədini bilərək Dağıstanda asayişi təmin etmək üçün çalışdığım vaxtda, 3-cü mayda Könüllü ordu Şamilqala və Dərbənd şəhərlərini işğal etdilər. Bunun həqiqətini bilib dərhal Məclisi-Məbusana ərz etdim. Məclisi-Məbusandakı Dağıstan məbusları və şeyxülislam müavini kəndi aralarında bir məclis əqd edərək, iş bu yerə gəldikdən sonra başqa bir əlac bulunmadığı bilindiyindən, nahaq yerə qan tökmək şər'ən [şəriətə görə] caiz olmadığı şeyxülislam müavini tərəfindən söyləndikdən sonra, Məclisi-Məbusanı müvəqqətən tərxis və Dağıstana məxsus bir hökumət təşkil etməyə qərar verdilər. Və saniyən [ikincisi], məni Dağıstan Hökuməti rəisliyinə intixab edərək Könüllü ordu komandanları ilə görüşüb müsalihə [sülh] ilə işi bitirməyi mənə təfviz etdilər [tapşırdılar].

Mən Könüllü ordu komandanları ilə görüşüb onların məqsədlərini anladığımdan sonra Dağıstan məbuslarına heç birisini ixfa etməyərək [gizləməyərək] həpsini söylədim və onların təsvibi [təsdiqləməsi, bəyənməsi] ilə işə başladım.

Şimdi insaf gözü ilə baxınız! Bu işlərdə məni müqəssir görmək və məni xaini-millətədd [hesab] etmək caizmidir? Xayır, bu böyük insafsızlıqdır.

Qardaşlar! Mitinqlərdə natiq olub nitq irad etmək [nitq söyləmək] və əlindən gəlməyəcək şeylərlə bağırıb-çağırıb gurultu çıxarmaq qolay bir işdir. Fəqət söylədiyi şeyləri qövldən feilə çıxarmaq və milləti sözlə deyil, işlə sevmək o qədər qolay deyildir.

Qəbahət məndəmi, yaxud məndən əvvəlki rəyasətdə bulunub kəndi millətini aldatmaqla vətənini hərc-mərcliyə döndərənlərdəmi? Tarix göstərəcəkdir.

Cənabi-Haqq mitinq natiqlərinə insaf versin.

*Hökumət rəisi general Xəlilov*

## XARİCİ SİYASƏTİMİZ

**- 7 -**

**İran və biz**

Böyük rus tufanından həmişə zərər görənlərdən biri də İran idi. Bu məmləkət çoxdan bəri dövləti islahat ilə uğraşmaq meylində idi isə də, rus intriqaları, heyfa ki, bu fikirləri yıxıb əzirdi. İranın bir daxili işləri yox idi ki, ona rus qarışmasın.

Daima ölkənin heysiyyəti ayaqlar altında tapdalanmada idi. Təbrizdə mücahidlərin asılması, Məşhəddə İmam Rza qəbrişərifinin təhqir olunması hamının yadındadır. Biçarə İran rus zərbəsindən göz aça bilməyirdi ki, ölkəsinin rahat və tərəqqisinə çalışsın.

Rus yıxıldı. Rus ilə İranın arasında Azərbaycan dövləti təşəkkül etdi. Rus qorxusuna qarşı Qafqaz orduları döşlərini sipər edərək durdular və duracaqlardır. İran da asudə nəfəs almağa başladı. Bundan sonra bu iki qonşu və islam dövlətləri arasında dostluq hüsula gəlməlidir.

İran ilə aramızda məchul və ixtilaflı bir məsələ yoxdur. İki qonşu dövlətin tərəqqisi yalnız qarşı dostluq ilə ola bilər. İran bizi tutarsa və bizi müstəqil deyə tanırsa, özü üçün şimal tufanına qarşı bir sipər qazanar.

İran istiqlaliyyəti bizə də böyük faydalar verəcəkdir. Bu istiqlaliyyət sayəsində dindaş qonşumuz islahat və idarə inkişafı ilə məşğul olaraq ölkədə rahatlıq və asayiş doğura bilər. Nə qədər İranda daxili rahatlıq olarsa, bir o qədər biz də rahat yaşarıq. Sərhəd boyundakı təbəələrimizin [vətəndaşlarımızın] sülhpərvər həyatı təsadüfi hadisələrlə pozulmaz.

Rus rəqabəti İranı iqtisadi cəhətlərdən əzirdi. Biz istərdik ki, İranın iqtisadi qüvvələri artsın. Çünki məmləkətin məhsulları Azərbaycan yolu ilə başqa məmləkətlərə nəql olunacaqdır. Biz də bundan fayda görəcəyik. İqtisadca tərəqqi etmiş İranın alıcıları artar və biz də oraya artıq mal yeritməyə müvəffəq olarıq. Müstəqil yaşayan İranın, əminik ki, pulları çoxlaşacaq, nəqliyyə vasitələri gözəlləşəcək, insanların asayişi təmin olunacaq və bunların sayəsində də bizimlə İran arasında alış-veriş yüngüllük ilə yola gedəcək, bundan da hər iki tərəf fayda görəcəkdir.

Hanki nöqteyi-nəzərdən baxsaq, İranın müstəqil və məsud yaşaması bizə əlverişlidir.

Dövlətimizin Azərbaycan adlandığı sui-təfəhhümlərə [yanlış anlamalara] səbəb oldu. Halbuki, Təbriz əyalətinin yəni İran Azərbaycanının İranın olub-olmaması barədə ortalıqda heç bir məsələ yoxdur. İranın haqqına təcavüz etmək fikrində deyilik, olmamışıq və olmayacayıq. Bizim tərəqqi və istirahətimizi təmin edən yalnız qonşularımız ilə dostluğumuz olacaqdır.

*Yusif Vəzirov*

## QIRMIZI QAN VƏ QARA MÜRƏKKƏB

**- 3 -**

Yeni təşəkkül edən səltənətlərin ilk istiqlalı inqilab və bu yolda şühədanın [şəhidlərin] axıdılmış qırmızı qanı ilə təmin olunduğu halda, onun əsrlərcə davam və bəqası da [əbədiliyi də] onun daxilində yaşayan üləmanın [alimlərin] hümməti və bu yolda sərf etdiyi qara mürəkkəbin miqdarı ilə təmin olunur. Bunu hamıdan qabaq ərəblər anlamışlar ki, "üləmanın mürəkkəbi şühədanın qanından əfzəldir" demişlərdir. Filhəqiqə [həqiqətən də], məmləkətin mütəfənninləri [elm adamları] artdıqca, onun ömrü uzanar. Bərəks, alimləri azaldıqca ömrü gödəlib izmihlala [süquta, dağılmağa] yaxınlaşar. Hanki hökumət ki, millətinin ülum və fününu [elm və fənni] uğrunda çalışmayır, böylə bətaətlə [süstlüklə] istiqlalın kökünə baltalar vurur. Tarixdən adları silinmiş millətlərin də izmihlalı həmin minval ilə başlamışdır.

İndi heç kəsə gizlin deyil ki, Azərbaycan türkləri maarifcə çox geridə qalmışlardır. Lakin bu böyük qüsurumuz hələ bizi izmihlala məhkum edəmməz. Zira, amerikalılar və bolqarlar kimi, hərgah biz də ciddü-cəhd edərsək, istiqlalın elanından az bir vaxt sonra mətin və sarsılmaz bir səltənətin sahibi olarız. Bu, mümkündür. Hətta, 30 ildən sonra Azərbaycanı İsveçrə kimi mədəni bir ölkəyə döndərmək olar. Bu şərtlə ki, mütəfəkkirlərimizin həpsi maarif yolunda çalışalar, əmək sərf edələr. Burada birinci vəzifə Parlamanda əyləşən millət vəkillərinin və hökumətindir. Zatən, bunların səy və kuşişləri [çalışmaları] yalnız üç şeydən ibarətdir: əvvəla, əhalinin qarnı tox olsun (çörək), ikincisi cəhldən azad olsun (maarif) və üçüncüsü də dünyada sərbəst yaşasın (hürriyyət). Lakin vaxtın pozuqluğu və qəhətlik şiddəti vəkilləri indiyə qədər məşğul edib maarif işlərinə, heyfa ki, hələlik imkan verməmişdir. Bununla belə, vəkillərimiz düşünməlidirlər ki, maarif işləri təxirə düşdükcə, idarə əngəlləri davam edəcəkdir.

Cahil qalmış millətin başı üstündə hədə qamçıları oynayacaqdır. Binaənileyh, maarif məsələlərini ən təcili işlərdən sanıb Parlamanın və Heyəti-Vüzəranın [Nazirlər Kabinetinin] müzakirə və icrasına çalışmalı ki, bu yolda hər dəqiqə giranbəhadır [qiymətlidir].

Məlum olduğu üzrə, mədəniyyətə nail olmaq üçün iki yol vardır: biri uzun, o biri də gödək. Əvvəlincisinə "təkamül" və ikincisinə də "inqilab" üsulu deyərlər. Təkamül üsulu uzun olsa da, nəticəsi müstəqim və müsbətdir. Biz bu üsulu qəbul etsək, Azərbaycan türklərinin mədənilaşmək fəqərəsi bəlkə 100 ilə də başa gələ bilməsin. Böylə olarsa, yəni maarif işlərini əhalinin öz meyil və xahişinə buraxarsaq, bir əsr tamam olunca mədəni qonşularımız bizi dəfələrlə həzmira-bedən keçirmiş olarlar. Pəs [elə isə], təkamül yolu bizim üçün yaramaz və əlverişli deyil.

Maarif inqilabına gəldikdə, bu da siyasi inqilab kimi qan tökməkdən ibarət olmayıb, ancaq hökumətin təsdiq və qəbul edilə biləcək icbari bir qanununa vabəstədir ki, onun icrası ilə əhalinin uşaqları – zükurən və ünasən məktəblərdə təlim almağa məcbur olsunlar. Əxzi-əsgər məsələsində heç kəs boyun qaçıra bilmədiyi kimi, təlimi-ümumi və icbari fəqərəsində də heç bir valideyn həddi-təlimə varmış övladını məktəbə verməyib avam saxlaya bilməz. 7-8 yaşına varmış uşaqların hər il siyahısı tutulub məhəllə məktəbləri arasında təqsim edilir. 3-4 il təlimi-ibtidaiyyəni gördükdən sonra edadiyyələrə daxil olmaq istəməyən şagirdlər bu ibtidai təlimə kifayət edərək xüsusi məşğuliyyətləri dalınca gedirlər. İştə, arzu etdiyimiz bu qanun hökumət tərəfindən təsdiq olunarsa, 4 ildən sonra həddi-təlimə varmış uşaqlarımızdan bir nəfər də bisavadı dərman üçün belə tapılmaz! Təlimi-ibtidaiyyəmiz məcburi olarsa, indiki halda bu, bizə kifayət edər. Bu, böyük bir nemətdir. Ey kaş ki, hamı azərbaycanlılar sadəcə oxumaqla yazmaq biləydilər. Bu məsələ baş tutarsa, yəqin ki, edadiyyələrimiz, indiki kimi, müsəlman şagirdlərindən boş qalmazlar. İbtidaiyyələri ikmal edənlərdən bir çoxu edadiyyələrə və oradan da, hətta darül-fünunlara daxil olmaq həvəsində bulunacaqlar. Xülasə, təlimi-ibtidaiyyəmiz məcburi olmayınca, edadiyyə və darül-fününlarda əcnəbi rəqabəti çəkəmməyəcəyiz. Və bu hal davam edib dayandıqca, idarələrimiz də əcnəbilər çəngalında qalacaqdır. Yenə köhnə əsarət, yenə sabiqdəki zəlalət [zəlillik; doğru yoldan çıxma]... Axırı da uçurum...

Burada yenə irad edəcəklər ki, təlimi-icbariyyənin öhdəsindən gəlmək zordur. Zira, mətlub ehtiyacı rəf etmək üçün nə müəllimlərimiz, nə də mənzillərimiz vardır. Burası inkar edilməyəcək bir həqiqətdir. Bununla belə, dünyada çalışqanlar üçün heç bir çətin iş yoxdur. Əvvəla, təlimi-icbariyyəni bütün-bütünə icra etmək mümkün olmasa, hissə-hissə mümkün olar. İkincisi, bir mənzildə günortaya qədər bir məhəllənin, günortadan sonra o biri məhəllənin, axşam da hətta üçüncü məhəllənin şagirdlərini oxutmaq mümkün olduğu kimi, müəllimlər də ağır məşəqqətə qatlaşıb iki-üç növbədə dərs versələr, məqsədimizə bir qədər yaxınlaşan kimi olarız (əlbəttə, müəllimlər hər növbəyə ayrıca məvacib almalıdırlar). Müvəqqəti olaraq, qoy hər yerdə ki, mümkündür dərs verilsin. Hər kəs ki, bacarır dərs versin.

*Fərhad Ağazadə*

## AZƏRBAYCAN DARÜLFÜNUNU

Bakıda bir darülfünun [universitet] açmaq məsələsi qalxmışdı. Maarif Nəzarəti nəzdində layihə hazırlamaq üçün bir əncümən [şura, komitə] təsis edilmişdir. Əncümən işlərini bitirib qurtarmaq üzrədir. Bu yaxınlarda Azərbaycan tarixinə şanlı bir səhifə yazılacağı – Darülfünun açılacağı gözlənir.

Fəqət birdən-birə bəzilərincə kəşf edildi ki, Azərbaycana böylə darülfünun lazım deyilmiş. Və açılacaq olduğu təqdirdə ancaq yabançı mənafeyə xidmət edəcəkmiş. Çünki Məsai [Əmək] naziri həzrətləri ilə tələbələrimizin zənnincə:

*"Tibbi şöbəsinə elmi cəhətdən, təbii ki, bir söz deniləmməz. Fəqət yenə bir çox tərəfləri mövcuddur ki, Azərbaycan türk tələbələrini kifayətlandirməyəcəkdir. Zira layiqli professorların yoxluğu, lazımi vəsaitin əldə edilə bilməyəcəyi və qeyrə kimi nöqsanlar görülür. Tarix və ədəbiyyat şöbəsinə gəldikdə, burası qayət gülünc, hətta bir dərəcə acınacaq bir məsələdir. Əcəba, bu şöbə türk tələbələri üçünmü? Əlbəttə, xayır. Zira, böylə olacaq olardısa, o vaxt Türkiyə, Misir və yaxud başqa yerlərdən türk professorları dəvət edilməli idi. Halbuki, böylə deyildir. Burada rus professorları rusca tarix və ədəbiyyata dair mühazirələr oxuyacaqlarmış. Deməli, yenə əski hamam, əski tas. Biz yenidən rus məktəbinə dönürüz."*

Buna görədir ki, Məsai naziri və tələbələr Azərbaycan türk tələbələrinin təhsil üçün Avropaya getmələrini məsləhət görürlər. Çünki:

*"Avropa təhsilinin başqa-başqa siyasi əhəmiyyətləri vardır. Məsələn, bu vaxtadək Qafqaziyanın fəqət [ancaq, sadəcə] bir erməni ölkəsi olduğunu bilən Avropaya Azərbaycan və türklərin vücudunu da canlı sübutlarla göstərmək və bu kimi çox məsələlər. Heç olmazsa, Avropadan qayıdan tələbələr bir lisan öyrənə biləcəklərdir. Ən başlıca ehtiyaclarımızdan biridir."*

Gərək nazir həzrətlərinin və gərəksə tələbələrin başlıca dəlilləri iki şeydir:

Əvvəla, darülfünunda leksiyalar türkcə olmayacaqdır. Ona görə məqbul deyildir. Saniyən [ikincisi], darülfünun Azərbaycan mədəniyyətinə deyil, rus mədəniyyətinə xidmət edəcəkmiş.

Bu səbəblərə görə də, Azərbaycan türk tələbələri əcnəbi darülfünunlarına getməlidirlər. Əsas etibarilə elm, fənn, musiqi və ümumiyyətlə sənayeyinəfisənin [incəsənətin] milliyyət xaricində ümum bəşəriyyət malı olması əsasını kənara qoyaraq və yenə əsas etibarilə darülfünunun tam bir türk məbədi-ülumu [elm məbədi] olmasını onlarla bərabər tələb edərək, fəqət, bununla bərabər məsələyə həqiqəti-hal və vəziyyəti-haziriəmiz nöqteyi-nəzərindən yaxlaşaraq, bir çox məsələdə onlarla şərik olammayırız.

Məsələn, deyirlər, Azərbaycan darül-fününunda leksiyalar türkcə olmadığından üdul edirlər [vaz keçirlər]. Əcəba, Avropaya getdikdə türk tələbələri leksiyaları türkcəmi eşidəcəklərdir?

Deyirlər, hamı tələbələr Avropaya getsinlər.

Bu barədə ümum tələbələrin maddi halı nəzərə alınırmı, yoxsa yalnız 5-10 zəngin tələbə ölçüsü tətbiq edilir? Böylə isə, bəs yüzlərcə biçiz [kasıb] tələbəmiz nə yapsın?

Deyirlər, Avropaya gedən barı bir dil öyrənər. Fəqət o dili öyrənmək üçün sərf edəcəkləri hümməti tələbə əfəndilər ana dillərini öyrənməyə sərf etsələr, özlərinin hesab olunub da bixəbər qaldıqları türk dilini öyrənsələr çoxmu zərər ola?

Saniyən, əgər bir tələbəmiz Avropaya gedib bir dil öyrənəcək olarsa, digər tərəfdən türk dili, türk mühiti və türk evindən uzaq düşməklə, türk dili, türk ruhu, türk ənənatı [ənənələri], türk hərfini tamamilə unutduqda, qeyb etdikdə azmı zərər gətirəcəkdir? Qazandıqları dil qeyb etdikləri türklüyü əvəz edəcəkmidir? Bilxassə, bu vaxtadək Avropada oxumuşlarımızın camaatdan nə qədər uzaq düşdükləri göz qabağındadır.

Deyirlər, tələbələrimiz Avropaya getdikdə, hər şəhərdə bir neçə tələbə bulunması ilə biz Azərbaycanın varlığını nümayiş etdirmiş olacağız. Tələbələrimiz Avropada Azərbaycan üçün canlı bir reklam kəsiləcəklərdir.

Tələbələrimiz Avropa qapılarında elm dilənçisi olmaq üzrəmi vətən və milləti nümayiş etdirməyi faydalı görürlər, yoxsa birillik həyata malik olan bir millətin qanlar, alovlar içində məbədi-ülum və fünun [elm və fənlər məbədi] yaratması iləmi? Məncə, canlı reklam lazım gəlsə, Avropada varlığımızı siyasi nümayəndəlik, ticarət, mətbuat və sairə ilə nümayiş etdirmək, məktəb qapılarına düşməkdən pis deyil. Elm və mədəniyyətə olan həvəsimizi göstərmək üçün isə, şübhəsiz, daxilimizdə təcəddüd [yenilənmə] və tərəqqi ilə nümayiş etdirmək daha övladır [üstündür] ki, bunun da icrası üçün darülfünun açmaqdan böyük tədbir olammaz. Bir neçə tələbənin təhsil üçün Avropaya getməsi mütəəddid əşxasın [bir çox şəxsin] elmə talib olduğunu göstərir, amma bu tezlikdə paytaxtımızda darülfünun açmaq isbat edir ki, biz nimvəhşi [yarım-vəhşi] asiyalı kimi deyil, milli hərsimizi [mədəniyyətimizi] Avropa mədəniyyəti ilə mərbut edərək [əlaqələndirərək], Avropa mədəniyyətinə malik milli həyat ilə yaşamaq istəyiriz. Reklamın böyüyü budur zənnindəyiz.

Deyirlər, nə üçün Darülfünunun tarix və ədəbiyyat şöbəsinə Türkiyədən, Misirdən deyil, Rusiyadan professorlar çağırılır? Burası pək haqlı olardı. Fəqət bir şərtlə. Bunu iddia edənlər barı öz aralarında ana dilini barı mükəmməl danışmağa və eşidəcəklərini anlamağa qadir olaydılar. Həqiqət nə qədər acı olsa da, gizləmək olmaz. Üz qızartısı ilə etiraf etməliyiz ki, bu gün darülfünunumuza Türkiyədən, Misirdən professorlar dəvət ediləcək və leksiyalar türkcə oxunacaq olarsa, tələbələrimizin ancaq yüzdə biri onu başa düşər. Bizim yazılarımızı, danışıqlarımızı "qəliz ibarədir, başa düşmürəm" deyə oxumaq, dinləmək istəməyən əfəndilər professorların elmi, fənni, tarixi, ədəbi istilah və təbirlərlə [termin və ifadələrlə] dolu mühazirələrini necə olacaq ki, anlayacaqlardır?

Bizcə, tələbələrin istədiyi "Azərbaycan Darülfünunu" ancaq "Azərbaycan gimnaziyaları" bitirmiş, yəni millliləşmiş məktəblərdə milli tarix, milli ədəbiyyat, milli dildə riyaziyyat, fizika, həndəsə, kimya, kosmoqrafiya və sairə, və sairə oxumuş tələbələr üçün açıla bilər. Bu da ancaq bir neçə ildən sonra, yəni orta məktəblərimiz tamamilə milliləşərək, mükəmməl türk dili bilən cavanlar yetişdirdikdən sonra mümkün olar. Bu isə uzaq deyildir: Gələcək tədris sənəsində orta məktəblərin 3-cü sinifləri milliləşir. Bu surətlə 4 ildən sonra edadilər arzu etdiyimiz kimi cavanlar yetirə biləcəklərdir. O vaxt darülfünunumuz "Azərbaycanlaşmaz" isə, əlbəttə bizə öylə darülfünun lazım olmadığını həpimiz iqrar [təsdiq] edər və ona bir qəpik millət pulu buraxılmasına kimsə razı olmaz. Fəqət şimdilik arzumuz üzərinə deyil, məcburiyyət altında darülfünunumuz tam mənası ilə Azərbaycan darülfünunu olammaz. Bunu tələbə arxa-daşlar dəxi etiraf edərlər.

Dövlət və millət məsələsində hissiyyata qapılmaq həmişə məmul [arzuedilən] nəticə verəmməz!

*Maarifçi*

## MƏTBUAT

Türk mətbuatı yeni bir qəzetə ilə zənginləşmişdir. "Əhrar" firqəsi naşiri-əfkarı [orqanı] olmaq üzrə "El" adı ilə yeni bir qəzetə çıxmağa başlamışdır. Birinci nömrəsində "Məsləkimiz" sərlövhəli baş məqaləsində qəzetə tutacağı yoldan bəhs edir və: *"«El» qəzetəsinin təqib edəcəyi məslək hal-hazırda siyasətən biri-birindən ayrı olaraq yaşamaqda olan türk əqvamı [xalqları] arasında mənavi, siyasi və iqtisadi bir rabitə hasil etmədən ibarət olacaqdır. Bu gün türk əqvamı arasında bir mövqeyi-mühüm ehraz edən [qazanan] Azərbaycan türkləri siyasi bir istiqlala nail olduqdan sonra türk əqvamının yuxarıda zikr etdiyimiz əsaslar üzərinə birləşmələrindəki lüzum və əhəmiyyət daha ziyadə artmış bulunur" deyə, bədəhu [sonra] firqə proqramının tətbiqi olmaq üzrə: "Hökumət işlərində görülən qüsurları, nöqsanları tənqiddən bilmərrə çəkinməyəcəkdir. Gənc məmləkətimizin ümuri-həyat və maişətinə [həyat və maişət işlərinə] aid məsələlərdə ittixaz edəcəyimiz [tutacağımız] xətti-hərəkətə gəlincə, bunda, təbii, əvvəlbəəvvəl ərbabi-məsaidən [zəhmətkeşlərdən] ədd [hesab] edilən işçi və əmələ sinifi ilə əhliziraənin [əkinçilərin], rəncbərlərin hüquqi-ixtiyarının müdafiə ediləcəyini"* vəd ilə siyasəti-xariciyyəyə keçir və bu yolda həmişə ümum millətlərlə, xüsusən qonşularla mehriban və dostanə münasibət hüsuluna çalışacağını qeydlə, nəhayət, hökumətə münasibətini böylə təsvir edir:

*"Hökumətin əza-ərkanı [Hökumət üzvləri və adamları] əksəriyyət etibarilə başqa bir firqəyə mənsub bulunmuş olsa da, ögey ana nəzəri ilə baxmayıb, hər bir tədbir və təşəbbüsatda ona yardım etməliyiz. Çünki istiqlaliyyətimizə qarşı xaricdə bir çox təhlükələr mövcud ikən, biz firqə münaziəsi [çəkişməsi] ilə iştiğala [məşğul olmağa] başlayıb da, millət və vətənin təkrar qeydi-əsarətə keçməsini təshil edəcək [asanlaşdıracaq] qədər böyük bir xəyanətdən, əfvi qeyri-qabil müdhiş bir cinayətdən ehtiraz etməliyiz [çəkinməliyiz]."*

Digər bir məqaləsində Paris Sülh Konfransından nələr gözlədiyini təzkarla [deməklə], ümidlərinin puça çıxdığını bəyanla və yə'sini [ümidsizliyini]: *"Hər kəs düşüncəsinin yalnız boş və havayı bir əfsanə olduğunu acı təəssürlə [hisslə] təsdiqə məcbur oldu. Məlum oldu ki, kəndilərini zəiflərin arxası hesab edənlər, onlara kəndi hüquqlarını, azad yaşamaqlarını vermək deyil, biləks [əksinə], təzədən ələltılar, əsirlər arayırlar. Aşkar bilindi ki, siyasəti-hazirənin ərkani-əsliyyəsi [əsas qaydaları], əsası yalan, hiylə, təzvir [saxtakarlıq] və iğfal [aldatmaq] imiş"* kimi cümlələrlə bəyan və izhar edərək, konfransçıardan şikayətlənir və yazır ki:

*"Deməк ki, ən nifrətli yalan bugünkü sülh konfransçılarının söylədiyi zinətli və mahiranə yalanlardır. İştə, görülür ki, millətlərin gözlədiyi başqa, Konfrans müzakiratı nəticəsi isə bambaşqadır."*

Nəhayət, yeni rəfiqimiz bu səbəblərə görə və bu mülahizələri nəzərə alaraq azərbaycanlıların nə kimi bir vəziyyət almaları və nə etmələri lazım gəldiyinə keçərək, qarelərinə [oxucularına] xitabən deyir ki:

*"Bilməlisən, bu gün haqq, həqiqət də həpsi qüvvətdədir. Onun üçün, ən birinci istəyimiz olan Azərbaycanımızın müstəqil bir Hökuməti-Cümhuriyyə halında yaşanması üçün özgələrdən bir tədbir gözləməməliyiz. Bütün millət bir fərdin kəndi hüququnu tələb etdiyi kimi, böyük-kiçik, cahil-alim bu yolda kəndi qüvvəsinə güvənərək arzusunu əldə etməsi yolunda çalışmalıdır, vailla [yoxsa] ağlamayan çocuğa süd verməzlər."*

Şübhəsiz hər kəs özünə ümidvar olmalı və müqəddəratının təəyyününü [müəyyənləşməsini] başqalarından gözləməyib, öz əlinə almalıdır. "Qonşuya ümid olan şamsız yatar" demişlərdir. Təəssüf ki, "El"çilər hələ indi başa düşürlər.

## BAKI XƏBƏRLƏRİ

**Məktəb kitabları**

Maarif Nəzarəti tərəfindən təşkil olunmuş məktəb kitabları hazırlayan komisyon 20 günün içində aşağı siniflər üçün türkcə kitablar hazırlayıb qurtarmışdır. Bu günlərdə böyük siniflər üçün türkcə sərfnəhv [qrammatika] və başqa kitablar hazır olacaqdır.

**Lənkəran komissarının həbsi**

İyulun 8-də "Salyanets" paraxodu ilə Salyandan Bakıya Lənkəranda Şura hökuməti təşkil edən və məhəlli [yerli] hökumətin Hərbiyyə komissarı olan Qorlin adlı bir şəxs gətirilmişdir. Qorlinin həbsi böylə vaqe olmuşdur:

İyulun 5-də Kür çayında bir lodkada 8 nəfər şübhəli adam tutulmuşdur. Onlardan 7-si həbs edilib Salyana yollanmışlar. Birisi isə saxta sənədlə Gürcüstan nümayəndəsi olduğunu söylədiyindən, azad olmuşdur.

Azad olunan Qorlin Bankəyə gəlib "Salyanets" paraxoduna minmiş, orada Lənkəran qaçqınları tərəfindən tanınmış və hökumətə təslim olunmuşdur. Qorlin hər bir şeyi boynuna almışdır. Axtarışda yanından 34 min manat pul dəxi tapılmışdır.

**Hökumət Darülfünunu üçün**

Bakıda Hökumət Darülfünunu [Universiteti] üçün birinci növbədə xərc olaraq Şurayi-Vükəla Maarif Nəzarəti ixtiyarına bir milyon para buraxmışdır.

**Məktəb kitabları üçün**

Türk dilində məktəb kitablarının çap olunması üçün və kağız almağa hökumət tərəfindən Maarif Nəzarəti ixtiyarına 500 min manat pul buraxılmışdır.

**Azərbaycan Dövlət Bankı**

Hökumət tərəfindən Dövlət Bankının başa gətirilməsi üçün Maliyyə Nəzarəti ixtiyarına 100 min manat para burax[ıl]mışdır.

**İngiltərə ştabından rica**

Ticarət və Sənaət [Sənaye] Nəzarəti Bakıdakı İngiltərə ştabına müraciətən rica etmişdir ki, ştab Londonla danışıb Tağıyevin fabrikası üçün bir çox maşın hissələri və materiallar almağa İngiltərəyə getmiş Ağazeynal Tağıyevə müavinət etməyi təvəqqe etsin.

**Düyü**

Ticarət və Sənaət Nəzarəti Ziraət [Əkinçilik] Nəzarətinə müraciətən rica etmişdir ki, zeyldəki [aşağıdakı] məsələləri müzakirə üçün bir mütəxəssis göndərsin:

[1)] Azərbaycan əhalisinə lazım olan düyünün miqdarı;

2) Ehtiyat düyüsü düzəltmək üçün nə qədər faiz təyin olunsun.

3) Düyü təmizlənərkən neçə faiz tələf olur.

Necə ki məlumdur ki, Ticarət və Sənaət Nəzarəti bu saat İrandan Bakıya gələn düyülərin təmizlənmək məsələsini müzakirə edir. Düyü Bakıdan və Azərbaycan içərisindən keçib tranzit təriqi [yolu] ilə başqa məmləkətlərə gedəcəkdir.

**Çörək**

Mərkəzi Ev Komitəsi xəbər verir ki, iyulun 8-dən yenə çörək bişirilib, ağ çörək 3 manat 90 qəpiyə, qara çörək 2 manat 60 qəpik və 2 manat 75 qəpik qiymətlə satılmaqdadır.

**Dəmiryolunda**

Dəmiryol hərəkatını qaydaya salan büro Maliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, tamojna [gömrük] hissəsinə baxmaq üçün bir nümayəndə göndərsin.

* * *

Avqustun 1-dən etibarən malı skorost [aşağı sürət] ilə mal göndərmək qaydası ləğv olunub, 51-52[-ci] maddə əsasları tətbiq olunacaqdır.

* * *

Dəmiryol hərəkatını qaydaya salan büronun xərci üçün hər puddan 3 qəpik xərc almaq təhti-qərara alınmışdır.

* * *

Azərbaycan Cümhuriyyəti ilə Ermənistan miyanında [arasında] əqd edilmiş [bağlanmış] olan Post və Teleqraf müqavilənaməsini Ermənistan Məclisi-Məbusanı təsdiq etmişdir.

* * *

Qafqazyadakı Ukrayna siyasi nümayəndəliyi nəzdində ateşemilitərliyə miralay [polkovnik] [Nikolay Moiseyeviç] Çexovski təyin olunmuşdur.

**Qızıl pul tutulması**

Srağagün təhərri [axtarış] polis acentləri tərəfindən naməlum bir yəhudinin Dərbəndə külli miqdarda qızıl pul aparması xəbər alınmışdır. Bakı mövqifində [stansiyasında] Petrovska [Mahaçqalaya] gedən qatarda təftiş icra edilmiş və nəticədə həman yəhudidən bir kisə qızıl və gümüş pullar tutulmuşdur. Pulun miqdarı hələ müəyyən edilməmişdir.

**Bomba tutulması**

Srağagün Kolyubakinski küçədə sabiq "Madrid" mehmanxanasında olan Parlaman qoruqçu bölüyü nəfəratından [əsgərlərindən] birisi balkondan rubəruda [üzbəüz] olan bir dükandan bir erməninin əlində bir şey olduğunu görərək təşvişə düşmüş və onu axtardıqda kiçik bir bomba tapmışdır. Bomba alınıb özü isə həbs edilmişdir.

**Aşqabadın dağılması**

Dabravol ordusu Aşqabad şəhərindən çəkildikdə şəhərin bir çox mühüm yerlərini, elektrik mövqeyini, yaxşı evləri və qeyri bir neçə idarələri yandırmışlardır. Şəhər artıq dərəcə xəsarətə düçar olmuşdur.

**Ermənilərin dənizə tökülməsi**

Tazəşəhərdən gələn qaçqınların dediyinə görə, Tazəşəhərdən Bakıya və Petrovska gələn paroxodların birisində qaçqınlar və erməni saldatları ilə dabravol kazakların arasında toqquşma vaqe olub nəticədə kazaklar ermənilərdən bir neçəsini dənizə atmışlardır.

**Birjada**

Kerenski minlikləri qiymətdən düşməkdə davam edirlər. Lap təzələrini 1450 manata tapmaq mümkündür. Ümumi kurs isə 1300 manatdır. Xırdası əsla getməyir. Nikolay 500-lükləri çox yaxşı gedir. 500-ə 1650-1700 manat təklif edirlər. 100-lükləri 280-300-ə axtarırlar. Zaqafqaziya bonları 2 – 2 ½ faiz.

**Varid olmuş [gəlmiş] mallar**

Bakıya iyulun 7-də bu qərar ilə mal gəlmişdir: Türküstan tərəfindən tənbəki 1400 pud, pambıq 500 pud.

## AZƏRBAYCANDA

**Qarabağda**

Qarabağ, Qafqaz müsəlmanları arasında ən qədimül-əyyamdan [ən qədim zamanlardan] mərkəzi-ürfan hesab olunmaqdadır. Məşhur alimlərin, ariflərin, şairlərin, qəhrəmanların, şücaətli kişilərin əksəri bu Qarabağdan vücuda gəliblər.

Qarabağın dağları, meşələri, suları, ələlümum [ümumiyyətlə] təbiəti Qafqazda birinci olduğu kimi, təbii olaraq yetişdirdiyi adamları da birincidir. Odur ki, millətin keçirməkdə olduğu tarixi günlərdə, şübhəsiz, gərək Qarabağ mühüm rollar oynaya.

Bu axırkı illərdə, ələlümum Qafqaz müsəlmanlarının və baxüsus Qarabağ müsəlmanlarının başına gələn bəlalar, keşməkeşlər bu milləti o qədər çulğalayıb cünbüşə, təlatümə gətirib ki, millətin içində olan qeyrət və namusluları hərəkətə gətirib dəyərli vücudlar meydana gətirmişdir.

Zəmanəmizin özü yetişdirdiyi dəyərli zatlardan [şəxslərdən] birisi də Qarabağda zühur etmiş Soltan bəy Muradovdur.

Rusiya hərc-mərci başlanandan sonra Qarabağda erməni dəstələri tüğyan və Andranik dəstəsi Qarabağa hücum edərək yüzlərcə müsəlman kəndlərini viran, Şuşa şəhərinə yürüş edərək Qarabağ müsəlmanlarının "ya həyat, ya məmat" [ölüm-qalım] məsələləri həll olunan bir zaman bu Soltan bəy Zəngəzur dağlarının arxasından, meşələrdən, çaylardan çıxıb üç-dörd yüz nəfər kürd ilə meydana atılaraq "Müsəlmanlara məmat [ölüm] bu qədər!" deyə millət yolunda mücahidəyə [mübarizəyə] başlamışdır.

Keçən il Andranik bir neçə min əsgərlərdən mütəşəkkil dəstə ilə Şuşaya gəlmək istəyib Qaladərəsinə çatdığı zaman, genə də Soltan bəy az bir qüvvəsi ilə Andranikin qabağını kəsib Qaladə-rəsində çox böyük tələfatla Andraniki qayıtmağa vadar, Qaladərəsini də həmişəlik müsəlmanlar üçün əziyyətsiz, qorxusuz etmişdir.

Soltan bəy kürdlərin arasında öylə bir geniş və həqiqi hörmət və etibar qazanmış ki, hamısının məhbubül-qülubu [ürək dostu] olmuşdur.

Soltan bəyin şücaəti, səxavəti, hünəri və bütün övsafihəsənəsi [gözəl xüsusiyyətləri] Qarabağ müsəlmanları arasında böyük bir şöhrət tapıb, cümlənin tərif və afərinlərinə məzhər [nail] olmuşdur.

Hökumət tərəfindən Qarabağa general-qubernator təyin olunandan sonra Zəngəzurda milli milisiya təşkil edilmək lazım görülmüşdü. Bu ağır və məsuliyyətli vəzifəni də, genə Soltan bəy öhdəsinə almışdır. Soltan bəy Zəngəzurda milis naçalniki təyin olunan üç-dörd ay tamam deyil, bu bir az zamanda istirahəti, adi həyatını unudub, gecə-gündüz bu yolda işləyərək, bu anda 2000 nəfərə yavuq təlim görmüş nizami milis dəstəsi hazırlamağa müvəffəq olmuşdur.

Zahiri nəzəri ilə iş asan və zəhmətsiz bir şey görünür. Lakin Zəngəzurda yaşayan kürd camaatını tanıyanlar onların həyatiictimaiyyələrindən, əhvali-ruhiyyələrindən xəbərdar olanlar indi gəlib "kürd dəstəsini" görsələr, yəqinimdir ki, Soltan bəyin bu yolda çəkdiyi zəhmətləri təqdir edəcəklər.

Ən şücaətli, ən dilavər [ürəkli] və layiqli cavanlardan mütəşəkkil bu "kürd dəstəsi" demək olar ki, Qarabağ üçün böyük bir nemətdir.

"Kürd dəstəsi" olmasaydı, yəqinimdir ki, bu günə kimi Qarabağ müsəlmanları yenə bir çox əziyyətlərə, bəlalara giriftar olacaqdılar.

Dəstə nəfəratının [əsgərlərinin] göstərdiyi şücaətlər, Azərbaycan Hökumətinə indiki xidmətlər və bununla belə xülusiqəlb ilə [təmiz qəlblə, sədaqətlə] daşıdıqları ağır vəzifələr heç vaxt onların hökumətdən aldıqları aylıq məvaciblərinin bahası deyildir. Milisiyadakı kürd ancaq vətən və milliyyət pərəstarlığı [qulluğu] qəsdi ilə, öz millət qardaşlarına kömək etmək fikri ilə, çiyinlərinə "Azərbaycan-kürd" kəlmələrini yazıb, hökumətə xülusi-qəlb ilə xidmət edirlər. Bunların hamısı Soltan bəyin zəhmət və məşəqqətlərinin gözəl nəticəsidir.

Soltan bəy milli qəhrəmandır. Ona görə də, millət onu sevir, onun namı [adı] ilə özünü hər bir bəlaya uğrayır. Və cümlə düşmənlərin qarşısına durmağa öz hazırlığını izhar edir.

Soltan bəy təkdir. Bir neçə Soltan bəylərə malik olsaydıq, deyə bilərdim ki, bundan sonra dəxi millətimizin, vətənimizin qorxusu yoxdur.

*M. S.*

**İtibdir**

Əsəd Molla Hüseyn oğlunun Şamaxıdan aldığı pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5426*

**İtibdir**

Heydər Kərbəlayı Əbdüləli oğlunun Şamaxıdan aldığı pasportu itibdir. Etibardan saqitdir.

*5419*

İtibdir

Hüseyn Qasım oğlunun Lənkərandan aldığı 5 illik pasportu itib. Etibardan saqitdir.

*5421*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla ümuma elan edir ki:

1) Bakı Azərbaycan dəmiryollarından gələn yüklər üçün pud vergisi bu gündən Nəzarətdə qəbul olunmayıb, Bakı birinci istasyonunda qəbul olunacaqdır.

2) Dəniz təriqi [yolu] ilə gələn yüklər üçün isə pud vergisi Vostoçnı Obşestvanın 22-ci körpüsündə qəbul olunacaqdır.

*T-171*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çahar-şənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Ucuz satılır**

Yekaterinodardan alınmış əla sarı sabun, yeşiyi 2 pud, partiya ilə satılır. Adres: Mehmanxana "Bolşoy Moskovski", nömrə 26. Səhər saat 9-dan 12-yədək və axşam saat 3- dən 5-ədək.

*Əliverdiyev*
*5417*

**Elan**

Cümə günü iyul ayının 11-də axşam saat 6-da Şəhər Dumasının kiçik zalında İrəvan Quberniyası Həmtorpaqlılar Cəmiyyəti üzvlərinin ümumi iclası təyin olunmuşdur.

*İdarədən*
*5423*

**Satılır**

Ucuz qiymətə ingilis malından hər cür hazır kostyumlar, Busloviçin mağazasında. Korçakovski nömrə 12, telefon nömrə 24-70.

*5406*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qəzetələrdən***

"Avamlar Kamerası": ikipalatalı Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

***Dağıstanda***

"qövldən feilə çıxarmaq": qə-zetdə "qövldən" yerinə "qüvvədən" getmiş-dir.

***Xarici siyasətimiz***

"İki qonşu dövlətin tərəqqisi": mətndə "iki" yerinə "ikinci" getmişdir.

"rahatlıq və asayiş doğura bilər": qəzetdə "doğura bilər" yerinə "doğura bilməz" getmişdir.

***Bakı xəbərləri***

"Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbə-lərdəki adı.

"Petrovsk": Dağıstanda, indiki Mahaç-qala şəhərinin köhnə adı.

***Azərbaycanda***

"M. S.": bu imza Məhəmməd Sadıq Axundzadəyə (Aran) məxsusdur.





## Mədəniyyət





# Sənət fədaisi

**Bu gün inkişaf etmiş, böyük şöhrət qazanmış milli teatrımızın ilk peşəkar aktyorlarından biri də Cahangir Zeynalov olmuşdur. Cahangir Zeynalov peşəkar sənətçi kimi oynadığı bütün rollara yeni cizgilər əlavə edərək onları daha da zənginləşdirmişdir. Sözün həqiqi mənasında ifa etdiyi obrazlara öz möhürünü vuraraq həyat həqiqətlərini realizm prinsipləri əsasında səhnədə uğurla canlandırmışdır. Beləliklə, özündən sonra öyrəniləsi böyük bir sənət məktəbi qoymuşdur.**



Cahangir Zeynalov 1865-ci ildə Bakıda dünyaya göz açıb. Atası tacir Məşədi Rza görüb-götürmüş, həyata açıq gözlə baxan insan olub. Ona görə də oğlunun təhsilli olmağını istəyib. Cahangir ibtidai təhsilini çox mükəmməl alıb. Rus və fars dillərini öyrənib.

Teatr vurğunu olan Cahangir Zeynalov Bakıda fəaliyyət göstərən Lanskoy, Şorşteyn, Aqriptseva kimi aktyorların truppaları ilə dostluq edib. Elə buradan da onun sənət dünyasına gedən yolu başlayıb. Gələcəyin böyük aktyoru tamaşalara adi seyrçi kimi yanaşmayıb. Baxdığı tamaşalar barədə rəy və düşüncələrini "Teatro dəftərçəsi"ndə yazıb. Bütün bunlar gənc Cahangirdə aktyorluq peşəsinə böyük sevgi oyadıb. Bəzi vərəqləri itmiş olsa da, həmin dəftərçə hazırda Azərbaycan Dövlət Teatr Muzeyində saxlanılır.

Cahangir Zeynalov aktyor kimi səhnədə əvvəlcə Həbib bəy Mahmudbəyovla Sultanməcid Qənizadənin hazırladıqları tamaşalarda rol alıb. XIX əsrin sonlarında isə sənət dostu Nəcəfqulu Vəliyevlə birgə əsərlər tamaşaya qoyub. 1900-cü illərdə Müsəlman Dram Artistləri şirkətinin təşkilində Cahangir Zeynalovun böyük xidməti olub. "Nicat", "Səfa" və "Nəşri-maarif" mədəni-maarif cəmiyyətləri nəzdindəki teatr truppalarında Cahangir Zeynalov aktyorluq etməklə yanaşı, həm də tamaşalara quruluş verib.

Dövrünün qabaqcıl düşüncəli ziyalısı olan Cahangir Zeynalov teatr truppaları yaratmaqla bərabər, kitabxanaların təşkilinə də kömək göstərib. Görkəmli aktyor "Səfa" mədəni-maarif cəmiyyətinin kitabxanasının təşkilində böyük işlər görüb. Kitabxananın fonduna xeyli sayda kitab bağışlayıb.

Həmin dövrlərdə "Səfa" Bakıda qabaqcıl elm ocaqlarından biri sayılırdı. "Şəfa"nın məktəbində qabaqcıl düşüncəli ziyalılar Səməd Mənsur, Abbas Mirzə Şərifzadə, Cəfər Bünyadzadə ilə yanaşı, Cahangir Zeynalov da dərs deyib. Cahangir Zeynalov dəfələrlə "Səfa" teatr bölməsi idarə heyətinin rəhbərliyinə seçilib. 1914-cü ildə isə sədr vəzifəsini Cahangir Zeynalov, müavinliyi isə Mehdi bəy Hacınski tutub.

Maddi cəhətdən də imkanı olan Cahangir Zeynalov həmişə aktyorlara yardım edər, pul verərdi. Peşəsinin vurğunu olan görkəmli sənət adamı indiki Hüsü Hacıyev və Dilarə Əliyeva küçələrinin kəsişməsində yerləşən Şahmat klubunun yerindəki evinin böyük zalını aktyorların məşq etməsi üçün ayırmışdı. Xeyli xərc də çəkib zalın baş tərəfində səhnə də düzəltdirmişdi. Hacıağa Abbasov, Mirzağa Əliyev, Məhəmməd bəy Əlvəndi, Hüseyn Ərəblinski, Mirmahmud Kazımovski kimi tanınmış aktyorlar, Sultanməcid Qənizadə, Həbib bəy Mahmudbəyov, Bədəl bəy Bədəlbəyli kimi müəllim və səhnə fədailəri dəfələrlə həmin zalda məşq etmiş, müxtəlif tamaşalar hazırlamışdılar. Cahangir Zeynalov məşqlərdən sonra aktyorlara süfrə də açırmış.

Teatrın aktyorları da Cahangir Zeynalovun bu cür diqqət və qayğısını cavabsız qoymurdu. O, ilk Azərbaycan aktyorudur ki, teatr ictimaiyyəti ona təntənəli yubiley keçirib. Səhnə fəaliyyətinin 25 illiyi münasibətilə "Nicat" cəmiyyəti Qurban bayramı günündə (30 noyabr 1910) Tağıyev teatrında onun yubileyini qeyd edib. Yubiley mərasiminin rəsmi hissələrinin fasilələrində xanəndələr mahnlar oxuyub. Bundan başqa, Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyası oynanılıb. Həmin tamaşada Mirzə Həbib rolunu aktor Cahangir Zeynalov özü ifa edib. Aktyorun yubileyi münasibətilə "Günəş", "Kaspi", "Nicat", "Səda", "Bakı", "Bürhani-Tərəqqi", "Qafqazskaya kopeyna" qəzetləri məqalələr yazmaqla kifayətlənməyiblər. Dövrünün tanınmış ziyalıları olan Nəriman Nərimanovun, Mehdi bəy Hacınskinin, Boyarski truppası aktyorlarının, redaksiya heyətlərinin təbriklərini də çap ediblər.

Cahangir Zeynalov gənc aktyorların inkişaf etməsində, formalaşmasında da böyük xidmətlər göstərmişdi. Mirzağa Əliyev, Hacıağa Abbasov, Məmmədəli Vəlixanlı kimi istedadlı aktyorların səhnəyə gəlişində böyük əmək sərf etmişdi.

Aktyorluqla yanaşı, rejissor kimi də səmərəli fəaliyyət göstərən Cahangir Zeynalov 1913-cü ildə "Səfa"da Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", Namiq Kamalın "Vətən", Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" və başqa əsərlərə quruluşlar verib. Cahangir Zeynalov həm rejissor, həm də aktyor kimi tamaşalar zamanı xalq folklorundan qaynaqlanan yumordan yaradıcılıqla istifadə edirdi. Pafosla danışmağı, saxta hərəkətləri heç vaxt qəbul etməzdi. Buna görə də tamaşaları seyrçilər tərəfindən maraqla baxılırdı.

Cahangir Zeynalov bacarıqlı, istedadlı aktyor olmaqla yanaşı, həm də bənzərsiz şəxsiyyət idi. İnsanların qayğısına qalmağı özünə böyük şərəf bilirdi. Buna görə də hər yerdə hörmət-izzətlə qarşılanır, müdrik ağsaqqal, xeyirxah ziyalı kimi qəbul olunurdu.

1918-ci il martın son günlərində erməni daşnakları Bakıda azərbaycanlılara qarşı soyqırımı törədəndə Cahangir Zeynalov həyat yoldaşı Hüsniyyə xanımla, qızı Nəsibə ilə İranın Ənzəli şəhərində yaşayan qayınatasının yanına gediblər. Ara sakitləşəndən sonra ailəsi ilə gəmiyə minib Bakıya qayıdarkən dənizdə fırtınaya düşüb. Səkkiz gün dalğalar qoynunda qalan gəmidə natəmizlikdən yatalaq xəstəliyinə tutulub. Bakıya çatandan sonra dünyasını dəyişib.

Səhnəmizdə qadınların olmamasından həmişə narahat olan aktyor qızını aktrisa kimi görmək istəyib. Amma vaxtsız gələn amansız ölüm sənət fədaisinə bu günü görməyə imkan verməyib. Qızının üç yaşı olanda Cahangir Zeynalov xəstəlikdən vəfat edib. Böyüyüb yaşa dolandan sonra xalqımızın sevimlisi, görkəmli aktyor, Xalq artisti Nəsibə Zeynalova atasının təməlini qoyduğu realist aktyor məktəbinin ən layiqli davamçısı olub, oynadığı bənzərsiz rolları ilə əbədiyaşarlıq qazanıb.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Səsin sehri...

Sanki dənizin sükuta dalmış sahillərinə asta-asta baş çəkən, günəşin şəfəqləri altında bərq vuran ləpələr pıçıldaşırdı. Küləklər ağacların yarpaqları ilə danışırdı. Aydın səmanın qucağına səpələnmiş ulduzlar sayrışırdı... Əminə Yusifqızı şeir deyirdi.



Onun səsində qəribə bir sehr vardı. Əminə Yusifqızı şeir oxuyanda elə bil sözlər də səsinin cazibəsinə bürünürdü. Onun ifasında hər sözün, hər misranın öz rəngi, öz ahəngi, öz duyğusu vardı. Poeziyanın qüdrəti aktisanın səsindəki məlahətlə birləşir, dinləyicilərə bu dünyanın gərdişini, sevincini, kədərini anladırdı...

Əminə Yusifqızı 90 il öncə, 1936-cı il sentyabrın 24-də paytaxtın Bakıxanov qəsəbəsində dünyaya gəlib. Təhsil almağa həmin qəsəbənin orta məktəblərindən birində başlayıb. Yeddinci sinfə qədər həmin məktəbdə oxuyub. Sonralar ailəsi ilə Sabunçu qəsəbəsinə köçdüyündən təhsilini orada davam etdirib.

Kiçik yaşlarında nənəsi onu məscidə, dini məclislərə aparıb. Nənəsi dövrünə görə yaxşı təhsil almış, mədrəsədə oxumuşdu. Mollalıq edirdi. Balaca Əminə də nənəsinə qoşulub mərsiyələr deyib. O, sözün, səsin, intonasiyanın insanlara təsir gücünü də o vaxtlardan hiss edib, anlayıb.

Nənəsinin bağışladığı gümüş qabın içərisində "Quran"ı uşaqlıqdan boynunda gəzdirib. Sonralar da həmin "Quran"dan ayrılmayıb.

Əminə Yusifqızı hələ orta məktəb illərindən səhnəyə maraq göstərib. Onun sənətə gəlişi asan olmayıb. Qardaşı Əminə xanımın səhnəyə çıxmasına etiraz edib. Anası isə qızını anlayıb, ona dayaq olub. Əminə Yusifqızı bir müddət teatra qardaşından gizli gedib. Anası bunu oğlundan sirr kimi saxlayıb. O həyəcan, təlaş dolu günlərində Əminə Yusifqızı aktrisa olmaq arzusundan bir an belə dönməyib, səhnədən uzaqlaşmaq fikrinə düşməyib.

M.F.Axundov adına Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutuna (indiki Bakı Slavyan Universiteti) daxil olub. İnstitutun birinci kursunda oxuyanda Gənc Tamaşaçılar Teatrında (indiki Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı) işləməyə başlayıb. 1961-ci ildə həmin institutu bitirib.

Əminə Yusifqızı aktirisa kimi 1958-1964-cü illərdə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında, 1964-1974-cü illərdə isə Azərbaycan Milli Dram Teatrında (hazırda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) çalışıb. "Anacan", "Son məktub", "Söz yarası", "Komsomol poeması", "Ana tarla", "Şeytanın şagirdi" və başqa tamaşalarda bir-birindən maraqlı, yaddaqalan rollar oynayıb. Teatrşünaslar Əminə Yusifqızının səhnə yaradıcılığında Səməd Vurğunun eyniadlı poeması əsasında hazırlanan "Komsomol poeması" tamaşasında ifa etdiyi Humay rolunun xüsusi yer tutduğunu qeyd ediblər. Həmin rol aktrisaya böyük uğur gətirib. Yaradıcı heyətə mükafat qazandıran tamaşa sonralar Kremldə də nümayiş etdirilib.

Əminə Yusifqızı 1974-cü ildən fəaliyyətini "Azərbaycanfilm" kinostudiyasında davam etdirib. O, "Şərikli çörək", "Sən niyə susursan?", "Bizim küçənin uşaqları", "Musiqi müəllimi" və digər filmlərə, televiziya tamaşalarına, müxtəlif xarakerli obrazlara ekran ömrü verib. Əminə Yusifqızının dublyaj sahəsindəki fəaliyyəti də yaradıcılığında mühüm yer tutub.

O, klassik və çağdaş Azərbaycan poeziyasının yorulmaz təbliğatçısı olub. Görkəmli şairlərimizin əsərlərini uzun illər fəaliyyət göstərdiyi Azərbaycan Dövlət Televiziya və Radiosunun efirində səsləndirən bədii qiraət ustası kimi onları tamaşaçı və dinləyicilərə daha da sevdirib, dillər əzbəri edib.

İstedadı danılmaz olub. İstər teatrda, istər bədii filmlərdə, istərsə də televeziya tamaşalarında rejissorların ona həvalə etdikləri hər bir rol sanki boyuna biçilib. Əminə Yusifqızının hər çıxışı tamaşaçıların alqışları ilə qarşılanıb. O, Azərbaycanın ən yaxşı bədii qiraət ustalarından biri kimi məşhurlaşıb. Ancaq sənət yolu enişli-yoxuşlu olub. Ona layiq olduğu fəxri adlar da gec verilib. Əminə Yusifqızı bunu özünə dərd etməyib, sınmayıb. Xarakterсə inadkar olan aktrisa heç vaxt ruhdan düşməyib. Hər zaman böyük həvəslə, sənətinə tükənməz məhəbbətlə çalışıb, öz işini ustalıqla görməyə səy göstərib. Əminə xanım müsahibələrinin birində bildirib: "Camaat bu barədə maraqlanırdı, amma mən bu söhbətləri ürəyimə yaxın buraxmırdım. Mən özümü mərd aparırdım".

Əminə Yusifqızı mədəniyyətimizin inkişafında xidmətlərinə görə, 1982-ci ildə Əməkdar artist, 1998-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. 2016-cı ildə sənətkar "Şöhrət" ordeni ilə təltif olunub.

Görkəmli aktrisa və bədii qiraət ustası, Xalq artisti Əminə Yusifqızı 2025-ci il oktyabrın 9-da, səksən doqquz yaşında dünyasını dəyişib. Sənətkar lent yazılarının yaddaşında qalan ifaları, oynadığı rolları ilə ehtiramla xatırlanır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Elmi anatomiyanın banisi

**Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, dünyaşöhrətli alim, ölkəmizdə elmi anatomiyanın banisi, təcrübəli pedaqoq və bacarıqlı təşkilatçı kimi Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası (indi "İnsan anatomiyası və Tibbi terminologiya") kafedrasının müdiri vəzifəsində çalışmış Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Kamil Balakişiyevin 120 illik yubileyi qeyd edilir.**

Kamil Əbdülsalam oğlu Balakişiyev 1906-cı il sentyabrın 20-də Bakının Novxanı kəndində dünyaya göz açmışdır. O, orta təhsilini ikinci dövlət kişi gimnaziyasında aldıqdan sonra, 1921-ci ildə Azərbaycan Dövlət Universitetinin (indi BDU) Tibb fakültəsinə daxil olmuşdur. Hələ ikinci kurs tələbəsi ikən pedaqoji və elmi-tədqiqat işlərinə böyük maraq göstərdiyinə görə İnsan anatomiyası kafedrasına qəbul olunmuşdur. Onun qabiliyyət və bacarığı kafedra rəhbərliyinin diqqətini cəlb etmiş və bir qədər sonra İnsan anatomiyası fənni üzrə sərbəst məşğələlər aparmasına şərait yaradılmışdır.

Beşinci kurs tələbəsi olarkən K.Balakişiyev öz müəllimi A.Valenkaya ilə birlikdə rus dilində "Osteologiya üzrə praktik məşğələlərə rəhbərlik" adlı dərs vəsaiti yazmış və həmin dərslik 1926-cı ildə çap olunmuşdur. XX əsrin 30-cu illərinin əvvəllərində isə o, Azərbaycan dilində latın qrafikası ilə silsilə dərslik və dərs vəsaitləri çap etdirərək ölkə anatomiyası tarixində yeni səhifə açmışdır.

1930-cu ildə 24 yaşında elmi-pedaqoji fəaliyyətindəki xidmətlərinə görə Kamil Balakişiyev privat-dosent elmi adına layiq görülmüşdür. O, praktik məşğələlər aparmaqla yanaşı, tələbələrə həm rus, həm də Azərbaycan dillərində normal anatomiya fənni üzrə mühazirələr oxumağa başlamışdır. Hələ tələbəlik illərindən mütəmadi olaraq elmi-tədqiqat işləri ilə məşğul olan alimə 1935-ci ildə dövri mətbuatda çap etdirdiyi sanballı elmi-tədqiqat işlərinin nəticələrinə görə, tibb elmləri namizədi elmi dərəcəsi verilmişdir. Həmin illərdə Kamil müəllim bud sinirinin kötükdaxili quruluşunu öyrənməklə Azərbaycanda periferik sinir sisteminin morfo-funksional xüsusiyyətlərinin öyrənilməsinin əsasını qoymuşdur.

Kamil Balakişiyev 1936-cı ildə 30 yaşı olarkən Azərbaycan Dövlət Tibb İnstitutunun (indi ATU) elmi şurasının açıq iclasında "Sidik kanalı soğanağı (Meri və Kuper) vəziləri" mövzusu üzrə doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Gənc alim müdafiə ərəfəsində Sankt-Peterburqda 6 ay müddətində elmi ezamiyyətdə olmuş, onun elmi-tədqiqat işi Rusiyanın məşhur alimləri tərəfindən yüksək qiymətləndirilmişdir.

1937-ci ilin avqust ayında Azərbaycan Dövlət Tibb İnstitutunun Normal anatomiya kafedrasına ilk dəfə olaraq milli kadr - professor Kamil Balakişiyev rəhbərlik etməyə başlamışdır. O, bu məsuliyyətli və çətin vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. Kamil müəllim eyni zamanda 1937-1941-ci illərdə Bakı Dövlət Universitetinin Anatomiya kafedrasına, 1938-1940-cı illərdə isə Azərbaycan Pedaqoji İnstitutunun Anatomiya və fiziologiya kafedrasına rəhbərlik etmişdir.

1942-ci ildə Azərbaycanda səhiyyənin, tibb elmi və təhsili sisteminin inkişafında, eləcə də yüksəkixtisaslı tibb kadrlarının yetişdirilməsindəki xidmətlərinə görə Kamil Balakişiyev "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. O, 1943-1945-ci illərdə ATİ-nin müalicə-profilaktika fakültəsinin dekanı, 1944-1945-ci illərdə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının "Tibb" bölməsinin baş elmi işçisi vəzifəsində çalışmışdır.

Kamil Balakişiyevin kafedraya rəhbərlik etməyə başladığı dövr çox çətin və təzadlı olsa da, kafedraya istedadlı azərbaycanlı gənclər cəlb olunmuş, burada sanballı milli kadr potensialı yaranmışdır. Bu dövrdə K.Balakişiyev həm də tələbəlik illərindən kafedranın nəzdində təşkilində iştirak etdiyi muzeyi hərtərəfli inkişaf etdirmişdir. Müzey tezliklə nəinki keçmiş SSRİ-nin, həm də dünyanın ən qabaqcıl, ən zəngin anatomiya muzeylərindən biri kimi tanınmışdır.

Uzun illər bu kafedraya rəhbərlik etmiş Əməkdar elm xadimi, professor Vaqif Şadlinski deyir ki, o zaman tibb sahəsi üzrə xaricdən Azərbaycana gələn qonaqlar K.Balakişiyevin rəhbərlik etdiyi kafedraya gətirilir və onlara muzey, anatomiya teatrı, dərs otaqları göstərilirdi. Tibbi terminologiya kafedrasının beynəlxalq əlaqələri zaman-zaman genişlənib. A.Natişvili adına Tbilisi Eksperimental Morfologiya İnstitutu, İ.Seçenov adina Moskva Tibb Akademiyası, eləcə də Rusiya, Ukrayna Gürcüstan və Türkiyənin bir sıra ali məktəblərinin tibb fakültələrində çalışan anatomlar arasında elm və təhsil sahəsində qarşılıqlı əməkdaşlıq məqsədilə uzunmüddətli müqavilələr imzalanıb və bir sıra layihələr həyata keçirilib. Kafedra rəhbərliyinin təşəbbüsü və əməkdaşların novatorluğu sayəsində mühazirə və təcrübə dərslərinin təchizatı yenilənib, tədrisin keyfiyyəti, aparılan elmi işlərin aktuallığı yüksəlib, mövcud anatomiya muzeyləri yenidən qurularaq dünya standartları səviyyəsinə qaldırılmışdır. Bu ənənə hazırda da davam etdirilir. Sevindirici haldır ki, muzey Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ictimai əsaslarla fəaliyyət göstərən rəsmi muzeylər reyestrinə daxil edilmişdir.



Görkəmli alimin əsas iş yeri Azərbaycan Dövlət Tibb İnstitutunun Normal anatomiya kafedrası olsa da, o, Bakının digər ali məktəblərində də insan anatomiyası kafedraları təşkil etmişdir. Bununla yanaşı, o, Azərbaycanda təkcə anatomiya deyil, histologiya elminin də inkişafına güclü təkan vermişdir. Kamil müəllim Azərbaycanda ilk dəfə olaraq ana dilində histoloji terminlərin yaradıcısı olmuş və bu haqda dəyərli kitab çap etdirmişdir. O, həmçinin Bakının bir sıra xəstəxanalarının cərrahiyyə şöbələrində həkim-cərrah kimi fəaliyyət göstərmişdir.

Kamil Balakişiyev milli elmi kadrların hazırlanmasına xüsusi diqqət yetirirmiş və bilavasitə onun rəhbərliyi altında 15 nəfər elmlər doktoru və namizədi yetişdirilmişdir. O, 100-ə yaxın elmi işin, o cümlədən orijinal dərslik və dərs vəsaitinin, lüğət və terminologiyanın, elmi-kütləvi məqalənin müəllifi olmuşdur. Alim əldə etdiyi çoxillik elmi-pedaqoji təcrübə əsasında hazırda monumental abidə kimi dəyərləndirilən elmi məqalələr, əvəzsiz dərslik və dərs vəsaitləri, habelə nomenklaturalar yaratmışdır.

Professor Kamil Balakişiyevin Azərbaycan anatomiya tarixində ən mühüm xidmətlərindən biri də onun ana dilində tibb terminlərini işləyib hazırlaması olmuşdur ki, bunun da əsasında alimlərimiz milli dildə tibb dərslikləri və vəsaitləri hazırlaya biliblər. Azərbaycan dilində anatomiyaya aid ilk dərs vəsaitlərinin hazırlanması məhz K.Balakişiyevə aiddir.

Kamil Balakişiyev qayğıkeş müəllim, görkəmli alim olmaqla yanaşı, həm də ictimai işlərin fəal iştirakçılarından idi. Onun çoxillik elmi-tədqiqat və pedaqoji fəaliyyəti inzibati və ictimai işlərlə bağlı olmuşdur. O, uzun illər səhiyyə sahəsində müxtəlif mötəbər vəzifələrdə çalışmışdır. 17 il Azərbaycan Tibb İnstitutunda tədris işləri üzrə prorektor, Səhiyyə Nazirliyində idarə rəisi, Azərbaycan Elmlər Akademiyasının Terminologiya Komitəsinin tibb bölməsinin sədri vəzifələrini layiqincə yerinə yetirmişdir. İşlədiyi bütün kollektivlərdə daim öz ideal səliqə-sahmanı, səmimiyyəti, insani keyfiyyətləri ilə dərin izlər qoymuş, rəğbət qazanmışdır.

ATU-nun İnsan Anatomiyası və Tibbi Terminologiya kafedrasının dosenti Şöhrət Qasımovun dediklərindən: "Professor Kamil Balakişiyev həm də gözəl natiq idi. Onun söylədiyi mühazirələr həmişə böyük maraqla dinlənilərdi. O, institutun I kurs tələbələrinə böyük həvəslə söylədiyi ilk mühazirələrini bu ibrətamiz cümlələrlə başlayardı: "Siz həyatınızı tibbə həsr etmək qərarına gəlmisiniz. Tibb elmi onu başqa elmlərdən fərqləndirən səciyyəvi xüsusiyyətlərə malikdir. Əgər, ümumiyyətlə, elm həqiqətə xidmət edirsə, təbabət elmi eyni zamanda həm həqiqətə, həm də xeyirxahlığa xidmət edir. Bu isə gərgin əmək tələb edir". Onun bu müdrik fikirləri, tövsiyələri həmişə bizimlədir.

Kamil müəllim keçmiş SSRİ-nin iri şəhərlərinin tibb müəssisələrində keçirilən anatom, histoloq və embrioloqların qurultay, konqres və simpoziumlarında yaxından iştirak etmiş, elmi məruzələr söyləmiş, Azərbaycan morfologiya elminin ən layiqli nümayəndələrindən, təmsilçilərindən birinə çevrilmişdir. O, uzun illər SSRİ Anatom, Histoloq və Embrioloqlar Cəmiyyətinin Rəyasət Heyətinin üzvü olmuş,1953-1973-cü illərdə bu cəmiyyətin Azərbaycan şöbəsinə rəhbərlik etmişdir.

Böyük alim və pedaqoq Kamil Balakişiyev ömrünün 67-ci payızında, 1973-cü il noyabrın 22-də əbədiyyətə qovuşmuşdur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin göstərişi ilə Fəxri xiyabanda dəfn edilmişdir. Kafedranın əməkdaşları hər il sentyabr ayının 20-də I kurs tələbələri ilə birlikdə Azərbaycanın böyük alimi professor Kamil Balakişiyevin doğum günündə məzarını ziyarət edir, yeni dərs ilinə onun nurlu xatirəsini anmaqla başlayırlar.

Professor, təcrübəli pedaqoq Kamil Balakişiyevin tibb sahəsindəki çoxillik fəaliyyəti qədirbilən xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, ölkəmizdə səhiyyənin inkişafı və tibb kadrlarının yetişdirilməsində xidmətlərinə görə "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" (2 dəfə), "Oktyabr inqilabı" ordenləri, "SSRİ səhiyyə əlaçısı" döş nişanı, habelə bir sıra medallar və digər mükafatlarla təltif edilmişdir. Bakı şəhərindəki küçələrdən biri professor Kamil Balakişiyevin adını daşıyır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***




# "Formula-1" Azərbaycan Qran-prisinin qalibi Gorc Rassel oldu

**Bakıda keçirilən "Formula-1" Azərbaycan Qran-prisi Bakı Şəhər Halqasında gərgin mübarizə getdi və bir çox maraqlı hadisələrlə yadda qaldı. 51 dövrəlik yarışın qalibi "Mercedes" pilotu Gorc Rassel olub. Britaniyalı sürücü startdan finişədək liderliyini qoruyaraq mövsümdə üçüncü qələbəsini qazandı.**













Rassel yarışa pole-pozişiyadan başlayıb və ilk dövrələrdən etibarən liderliyi əlində saxlayıb. Lakin iki dəfə təhlükəsizlik avtomobilinin (Safety Car) trasda görünməsi onun yaratdığı üstünlüyünə mane olub. Elə buna görə də son mərhələdə "Red Bull" pilotu Maks Ferstappen Rasselə ciddi təzyiq göstərib.

Finiş xəttində Rassel ilə Ferstappen arasında cəmi 0,196 saniyə fərq olub. Beləliklə, Ferstappen ikinci, "Red Bull"un digər pilotu İsak Hadjar isə üçüncü yeri tutaraq komandasına ikiqat podium qazandırıb.

### Rassel son dövrələrdə təzyiq altında olub

Yarışın ilk hissəsində Rassell rahat liderlik etsə də, iki Safety Car epizodu mübarizəni yenidən sıxlaşdırıb. Son restartdan sonra Ferstappen sürətlə Rasselə yaxınlaşıb.

"Mercedes"in məlumatına görə, Rassell son dövrələrdə avtomobilin idarə olunmasında əlavə təzyiqlə üzləşib və Boost sistemində problem yaşayıb. Buna baxmayaraq, o, Ferstappeni arxasında saxlamağı bacarıb.

Rassel yarışdan sonra Bakıdakı həftəsonunu yüksək qiymətləndirərək son stintdə Ferstappenlə mübarizənin xüsusi gərgin keçdiyini bildirib.

### Ferstappen səkkizinci yerdən podiumun ikinci pilləsinə keçib

Maks Ferstappen yarışa yalnız səkkizinci yerdən başlayıb. Lakin buna baxmayaraq, "Red Bull" pilotu yarış ərzində ardıcıl ötmələrlə ön qrupla aradakı fərqi bağlayıb və sonda qələbə uğrunda Rasselə ciddi təzyiq göstərə bilib.

"Red Bull" yarışdan əvvəl Ferstappenin mühərrikini dəyişib və komandanın məlumatına görə, dəyişiklik yarış tempinə müsbət təsir göstərib. Ferstappen xüsusilə son hissədə yumşaq təkərlərlə daha rəqabətli temp nümayiş etdirib.

### Hacar üçün uğurlu qayıdış

Podiumun üçüncü pilləsində İsak Hacar qərarlaşıb. "Red Bull" pilotu bu nəticə ilə komandasının ikiqat podiumuna töhfə verib.

Hacar üçün Bakı yarışı həm də fasilədən sonra "Formula-1"ə qayıdışı olub. O, yarışın sonunda üçüncü yeri qoruyaraq podiuma yüksəlib.

### "Ferrari" pilotları ilk altılıqda

Şarl Lekler yarışı dördüncü, Luis Hamilton isə altıncı yerdə başa vurub. "Mercedes"in digər pilotu Kimi Antonelli isə 16-cı start mövqeyindən beşinci yerə qədər yüksəlib.

Antonellinin nəticəsi xüsusilə diqqət çəkib: o, sıralanma turundakı çətinlikdən sonra yarış ərzində mövqelərini tədricən yaxşılaşdıraraq 10 xal qazanıb.

### "McLaren" üçün çətin gün

"McLaren" Azərbaycan Qran-prisində gözlədiyi nəticəni əldə edə bilməyib. Oskar Piastri yarışı 14-cü yerdə tamamlayıb, komanda yoldaşı Lando Norris isə finişə çata bilməyib.

Piastri yarışın əvvəlində ikinci yer uğrunda mübarizə aparıb və Ferstappeni arxasında saxlamağa çalışıb. Lakin Safety Cardan sonrakı restart zamanı birinci döngədə əyləcləmə səhvi edərək mövqelərini itirib.

Norris isə 35-ci dövrədə yarışdan kənarda qalıb. Onun mübarizədən çıxması "Alpine" pilotları Franko Kolapinto və Piyer Qasli arasında baş verən insidentlə əlaqəli olub.

### Bakı yarışının çempionata təsiri

Azərbaycan Qran-prisində "Red Bull"un hər iki pilotunun podiuma çıxması komanda üçün əhəmiyyətli xal gətirib. Ferstappen və Hacar birlikdə 33 xal toplayıblar. "McLaren" isə Norrisin yarışdan çıxması və Piastrinin 14-cü olması səbəbindən bu yarışda xal qazana bilməyib.

2026-cı il Azərbaycan Qran-prisi "Formula-1"in Bakıdakı təqvimdə 10-cu ildönümünə təsadüf edib. Yarış həm iki Safety Car epizodu, həm çoxsaylı qəza, həm də son dövrələrdə Rassel-Ferstappen mübarizəsi ilə yadda qalıb.

Beləliklə, Bakı Şəhər Halqasında finiş xəttini birinci keçən Corc Rassel Azərbaycan Qran-prisinin qalibi olub. Maks Ferstappen 0,196 saniyə fərqlə ikinci, İsak Hacar isə üçüncü olub. Qeyd edə bilərik ki, Bakıdakı yarış "Formula-1" mövsümünün ən gərgin finişlərindən biri ilə başa çatıb.




## "Formula-1"in qalibi mükafatlandırıldı

**Bakıda keçirilən "Formula-1" Azərbaycan Qran-prisinin qalibi mükafatlandırılıb. Kürsünün ilk pilləsində "Mercedes"in britaniyalı pilotu Corc Rassel yer alıb. "Red Bull"dan niderlandlı Maks Ferstappen ikinci, onun komanda yoldaşı İsak Hacar üçüncü sıraya qalxıb.**



Onlara mükafatları Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, gənclər və idman naziri Fərid Qayıbov, Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem təqdim ediblər.

## "Sonlara yaxın inanılmaz sürət nümayiş etdirdik"



**"Komandanı təbrik etmək istəyirəm, onlarla, həqiqətən, qürur duyuram". Bu sözləri "Formula-1" Azərbaycan Qran-prisinin qalibi olan "Mercedes" komandasının britaniyalı pilotu Corc Rassel deyib.**

O, həftəsonunun əla keçdiyini bildirib: "Yarışın ilk hissəsi çox rahat keçdi. Sonlara yaxın inanılmaz sürət nümayiş etdirdik. Finiş xəttinə qədər Maks Ferstappenlə mübarizə aparırdıq. Ümumilikdə inanılmaz həftəsonu oldu".

## "Yaxınlaşdım, amma ötmək üçün kifayət etmədi"

**"Yaxşı yarış keçirdik. İlk hissə bir qədər çətin idi, amma yuxarı pillələrə qalxa bildik. Sonra isə 2-ci yer üçün mübarizə başladı. Sonuncu dövrədə sarı bayraqlar oldu, fərq çox az idi. Yaxınlaşdım, amma ötmək üçün kifayət etmədi. Yenə də bütün gücümüzü ortaya qoyduq".**



Bu sözləri "Formula-1" Azərbaycan Qran-prisində ikinci olan "Red Bull"un niderlandlı pilotu Maks Ferstappen deyib.

O, bir neçə dəfə baryerlərə toxunduğunu söyləyib: "Hər şey qaydasında idi, sadəcə, döngəni bir az daha geniş almağa çalışırdım. Əsas odur ki, sonluq yaxşı oldu".

*Hazırladı: Dönməz Abbasov*

# 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "Kritik xammal və qlobal iqtisadi təhlükəsizlik" mövzusunda panel sessiya keçirilib

**25-26 sentyabr tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında keçirilən 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "Kritik xammal və qlobal iqtisadi təhlükəsizlik" mövzusunda panel sessiya təşkil olunub.**




Panel sessiyada Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, Asiya İnkişaf Bankının Azərbaycan üzrə direktoru Sunniya Durrani-Camal, "Technip Energies", "Limak Holding", "Green Spark" və "Kazakhstan Insulator Plant" şirkətlərinin rəhbər nümayəndələri iştirak ediblər.

Sessiyada kritik xammalın qlobal enerji keçidi, yüksəktexnologiyalı sənaye və iqtisadi təhlükəsizlik baxımından artan strateji əhəmiyyəti, dayanıqlı təchizat və emal zəncirlərinin formalaşdırılması, beynəlxalq tərəfdaşlıq və investisiya imkanları müzakirə olunub.

Paneldə çıxış edən ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov Azərbaycanın yanaşmasının uzunmüddətli əməkdaşlığa, resurslardan səmərəli istifadəyə və qarşılıqlı faydaya əsaslandığını bildirib. O qeyd edib ki, "Azərbaycan 2030" Milli Prioritetləri çərçivəsində dairəvi iqtisadiyyata əsaslanan biznes modellərinin inkişafı, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və mineral ehtiyatların səmərəli dövriyyəyə cəlb edilməsi əsas hədəflərdəndir. Nazir həmçinin Kiçik Qafqaz, Naxçıvan və Balakən-Zaqatala bölgələrinin kritik mineral potensial baxımından əhəmiyyətini və layihələrdə ekoloji tələblərin nəzərə alınmasının vacibliyini vurğulayıb.

"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov kritik mineralların artıq yalnız dağ-mədən sənayesinin deyil, qlobal iqtisadi təhlükəsizliyin də mühüm elementinə çevrildiyini bildirib. Onun sözlərinə görə, enerji keçidi, rəqəmsal texnologiyalar və süni intellektin inkişafı metallara tələbatı artırır, geosiyasi proseslər isə təchizat zəncirlərinin dayanıqlılığını daha da aktuallaşdırır.

Zakir İbrahimov qeyd edib ki, bu baxımdan əsas məsələ yalnız resursların mövcudluğu deyil, onların harada emal edilə bilməsi və dünya bazarlarına təhlükəsiz və etibarlı şəkildə çatdırılmasıdır. O, Azərbaycanın zəngin mineral resursları, enerji və sənaye infrastrukturu, eləcə də Mərkəzi Asiyanı Avropa və qlobal bazarlarla birləşdirən Orta dəhliz üzərində yerləşməsi ilə bu sahədə mühüm imkanlara malik olduğunu vurğulayıb.

İdarə Heyətinin sədri Filizçay polimetal yatağını nümunə göstərərək, yatağın zəngin sink, qurğuşun və mis resurslarına malik olduğunu və belə layihələrin Azərbaycanın regional təchizat zəncirlərində rolunu gücləndirə biləcəyini qeyd edib.

Zakir İbrahimov həmçinin Ələt Kritik Minerallar Mərkəzinin inkişafı istiqamətində aparılan işlərə toxunaraq, təşəbbüsün Azərbaycanın mineral resurslarını və emal imkanlarını Mərkəzi Asiya resursları ilə birləşdirərək Avropa və digər qlobal bazarlara çıxış imkanlarını genişləndirə biləcəyini bildirib.

Beynəlxalq tərəfdaşlığın əhəmiyyətinə diqqət çəkən Zakir İbrahimov "AzerGold" QSC ilə Birləşmiş Ərəb Əmirliklərinin "International Resources Holding" şirkəti arasında Naxçıvanda həyata keçirilən əməkdaşlığı nümunə göstərib. O bildirib ki, əməkdaşlıq çərçivəsində kritik metalların da daxil olduğu mineral-xammal potensialının öyrənilməsi və perspektivli faydalı qazıntı yataqlarının müəyyənləşdirilməsi istiqamətində işlər aparılır.

Panel sessiyası sual-cavab formatında davam edib. Müzakirələr zamanı kritik xammalın iqtisadi təhlükəsizlik baxımından əhəmiyyəti, dayanıqlı təchizat zəncirlərinin formalaşdırılması, mineral resursların məsuliyyətli mənimsənilməsi, emal imkanlarının genişləndirilməsi və beynəlxalq əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## BEYNƏLXALQ HƏYAT

## Banqkokda minlərlə insan evlərini tərk etmək məcburiyyətində qalıb

**Banqkokda güclü yağışların intensivliyi azalıb. Bu barədə "Associated Press" agentliyi xəbər verir. Bir neçə ərazi hələ də su altında qalıb, bəzi yerlərdə güclü yağış yağıb və minlərlə insan evlərini tərk etməyə məcbur olub.**

Bildirildiyinə görə, Tailandda son 10 gündə şiddətli hava şəraiti nəticəsində səkkiz nəfər ölüb.

Ümumilikdə, güclü yağışlar və daşqınlar 25 əyalətdə 545 mindən çox insana təsir edib. Bəzi qatar və avtobus xidmətləri dayandırılıb. Hava limanları hələ ki açıqdır, lakin gecikmələr mümkündür.

Meteoroloqlar ölkənin bəzi ərazilərində daha çox yağış yağacağını, lakin yaxın günlərdə ümumi vəziyyətin yaxşılaşacağını bildirirlər.



## Prezidentlikdən istefa verən A.Vuçiç Serbiyanın baş naziri olmağa ümid edir

**Serbiya Prezidenti Aleksandr Vuçiç, bu yay vəd etdiyi kimi, istefa verib. Bu qərar erkən prezident seçkilərinin yolunu açır, lakin konstitusiya ilə icazə verilən iki prezidentlik müddətini, demək olar ki, başa vuran ölkə başçısı namizədliyini irəli sürməyəcək. Bunun əvəzinə, o, çox güman ki, oktyabrda keçiriləcək parlament seçkilərindən sonra baş nazir olmağa çalışacaq və faktiki olaraq respublikaya nəzarəti saxlayacaq.**

İki həftə əvvəl A.Vuçiç 25 oktyabr seçkilərindən öncə parlamentin buraxılması haqqında fərman imzalayıb. O bildirib ki, Serbiya Tərəqqipərvər Partiyasının (SPP) parlament seçkilərində qalib gəlməsinə kömək edəcək. Şərhçilər A.Vuçiçin seçkilərdən sonra baş nazir olmaq və prezidentliyə mümkün qədər ona sadiq olan bir siyasətçini namizəd göstərmək niyyətində olduğunu ehtimal edirlər.

Serbiya Parlamentinin Sədri Ana Brnabiç seçki kampaniyası və səsvermə zamanı prezident vəzifələrini icra edəcək. Səsvermənin üç aydan gec olmayaraq keçirilməsi planlaşdırılır.

A.Vuçiç bazar günü prezident iqamətgahında keçirilən mətbuat konfransının əvvəlində bəyan edib ki, "qərar qəbul etməyin vaxtı gəlib çatıb və bu gün, əziz vətəndaşlar, istefa verirəm".

Serbiya dövlət televiziyasında canlı yayımlanan çıxışından sonra A.Vuçiç Belqradın mərkəzindəki Prezident Sarayının əsas girişindən çıxıb və tərəfdarlarına müraciət etmək üçün yaxınlıqdakı parka gedib. İstefa verən dövlət başçısı məşəllər, "Ako, serb" ("Aleksandar əsl serbdir" - red.) şüarları və üzərində "Vuçiç siyasi dahidir" yazısı olan plakatlar arasında müvəqqəti kürsüyə qalxıb və izdihama deyib: "Bu iki prezidentlik müddətində sizə sədaqətlə, dürüst və ləyaqətlə xidmət etmişəm".

A.Vuçiç əlavə edib ki, üzvü olduğu partiyanın "binalarımızı yandıran və insanlara silah tuşlayanlardan fərqli olaraq, zorakılığa təhrik etməməsindən" qürur duyur.

*Hazırladı: Rizvan CƏFƏROV, "Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi "Azərbaycan Hava Yolları" QSC-nin Müşahidə Şurası sədrinin müavini Sabir İlyasova qardaşı

**CABİR İLYASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi "Azərbaycan Hava Yolları" QSC-nin Müşahidə Şurası sədrinin müavini Sabir İlyasova qardaşı

**CABİR İLYASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3314
Sifariş 1256

Qiyməti 60 qəpik